İMRAN AXUNDOV

# BARAT ŞƏKİNSKAYA

Bakı
Mütərcim
2014

Elmi redaktor:

**İ.S.Kərimov**

*AMEA-nın müxbir üzvü, professor*

**İmran Axundov. Barat Şəkinskaya.** *Monoqrafiya.* – Bakı: Mütərcim, 2014. – 104 səh.

Monoqrafiyada görkəmli sənətkar, xalq artisti Barat xanım Şəkinskayanın həyat və yaradıcılığı təhlil edilir, ifa etdyi səhnə və ekran qəhrəmanları tədqiqata cəlb olunur.

$A \frac{4907000000}{026}$ 49-14

©İmran Axundov, 2014



**Barat Şəkinskaya**

# GİRİŞ

*Mən səni sevirəm. Ona görə yox ki, gözəlsən, məharətlisən. Ona görə ki, yaxşı sənətkarsan.*

***SSRİ xalq artisti*** **Sidqi Ruhulla**

Sənətkar! Bu söz hər aktyor üçün deyilmir. Cünki bu ada sahib olmaq üçün gecə-gündüz çalışmaq və yaratmaq lazımdır. Elə çalışmaq ki, öz sənətində açılmayan səhifələr açasan, tamaşaçını düşündürməyə çalışasan və yaratdığın obrazları tamaşaçı yaddaşına həkk edəsən.

Qədim tarixə malik olan Akademik Milli Dram Teatrı (keçmiş M. Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı- İ.A.) belə sənətkarlarla zəngin idi. Onlar bütün əzab-əziyyətlərə dözərək sənət aləmində yeni cığırlar açıb öz bənzərsiz ifaları ilə tamaşaçıların zövqünü oxşayıblar. C. Zeynalov, H. Ərəblinski, M. A. Əliyev, S. Ruhulla, A. M. Şərifzadə, H. Abbasov, İ. Hidayətazdə, Ü. Rəcəb, M. Mərdanov, R. Təhmasib, R. Əfqanlı, A. Gəraybəyli, Ə. Məmmədova, M. Davubava, M. Sənani, Ə. Ələkbərov, S. Hacıyeva, Ə. Sultanov, F. Qədri, A. İsgəndərov, H. Qurbanova, M. Məmmədov, A. D. Qurbanov və b. Bu misilsiz sənətkarların içərisində teatr sənətində ən əlçatmaz zirvəni fəth etmiş, xalq artisti Barat xanım Şəkinskayanın adı hörmət və ehtiramla çəkilir.

# I FƏSİL

## AKTRİSANIN HƏYATI VƏ İLK SƏHNƏ FƏALİYYƏTİ

Barat Həbib qızı Şəkinskaya 1914-cü il iyun ayının 28-də Azərbaycanın ən səfalı yerlərindən birində Şuşada anadan olmuşdur.

**Bir haşiyə:** -*Barat xanım Şəkinskaya İbrahim xanın nəslindəndir. İbrahim xanın xanımlarından biri Cavad xanın qızı olub. Ondan yaranan Natəvan nəslidir.*

*İbrahim xanın ilk xanımlarından biri isə acar kinyazı Abaşidzenin bacısıdır. İbrahim xan Zəngəzuru, onun ən səfalı yeri olan Şəki kəndini xanımı Abaşidzeyə hədiyyə edib. Şəkinskaya soyadı həmin kəndin adı ilə bağlıdır. Abaşidze soyadını ona görə Şəkinskaya eləyib ki, bu soyad knyaz soyadına çox yaraşır.*

*İbrahim xanın Abaşidzedən olan övladlarının hamısı Şəkinskidir. Hamıya çox yaxşı tanış olan Şuşanın mərkəzindəki Gövhər ağa (çox qəribədir ki, bu qadına niyə "ağa" deyirdilər. Əbdürrəhim bəy Haqverdiyevin əmisi qızı olan bu hünərli qadın Qarabağın abad olunmasında əlindən gələni əsirgəməyib. Bu yerlərdə nə qədər məscid varsa hamısını Gövhər ağa tikdirib.) məscidi buna bir sübutdur. Qarabağlılar bilirlər ki, Gövhər ağanın soyadı Şəkinskaya olub. Onun yeganə qardaşı İsgəndər ağa Şəkinski Barat xanımın atası Həbib xan Şəkinskinin babasıdır.*

Barat Şəkinskaya – teatr tarixində adı qızıl həriflərlə yazılan bu bənzərsiz sənətkar on yaşında səhnəyə atılmış, onun dərdi ilə alışıb yanmışdır.

Kim idi Barat xanım? Gəlin onun səhnəyə gəldiyi günə qədər ki, həyatı ilə tanış olaq.

B. Şəkinskaya həyatının ən ağır günlərini o dövrlər adlandırırdı. Ailənin vəziyyəti çox ağır idi. Üç uşaq 25 yaşlı cavan, savadsız ananın ümidinə qalmışdır. Bütün valideyinlər kimi bu qayğılı ana da istəyirdi ki, uşaqları yaxşı təhsil alsın, heç nədən çətinlik çəkməsinlər.

B. Şəkinskaya o vaxt kiçik olsada tələsirdi ki, tez oxuyub qurtarsın, işləsin, anasına kömək etsin. Yay aylarında tətilə çıxan kimi 10-12 yaşlarında balaca Barat "Ovçular ittifaqı"nda, sonra "seleksion stansiya"da barama qurdları üçün tut yarpağı yığırdı. Kiçik yaşlı Barat bir dərəcəli məktəbi beş il əvəzinə dörd ilə buturib, əla qiymətlərlə pedaqoji texnikuma daxil olur və oranı bitirir.

Anası istəyirdi ki, qızı tar çalmağı öyrənsin. Bu istəklə Baratı Pionerlər evinə aparır. O vaxt orada manqa rəhbəri Adil İsgəndərov və Süleyman Tağızadə idi. Anası qızını tar dərnəyinə yazdırdı. Amma uşağın tar çalmağa həvəsi yox idi. Qız idmana yazıldı...

B. Şəkinskaya özü yazır ki; "Anam gecələr pedaqoji texnikumun qızları üçün paltar tikir, gündüzlər "İslah evində" işləyirdi.

O, fərdi sifarişlərlə paltar tikməyi heysiyyatına sığışdırmırdı. Yalnız texnikumun qızları üçün müqavilə ilə qışda yay, yayda isə qış paltarı tikirdi. Bu iş anama il boyu bəs edirdi, dolanışığımızı da yola verirdi".

Əlbəttə hər bir insanın həyatında ən ağır günü olur. Barat xanımında ağır günləri uşaqlıq çağlarıdır.

Bütün o dövrləri yadda salanda Barat Şəkinskayanın xatirində səhnə sənəti ilə bağlı olan xatirələr yaşayırdı. Peşəkar səhnədə misilsiz obrazlar qalereyası yaratmaq hər kəsə nəsib olmur. O sənətkar buna müvəffəq olur ki, sevib-seçdiyi peşəsinin aludəsi olsun, qəlbində onun həsrəti ilə alışıb yansın.

Nadir istedad sahibi olan Barat xanım Şəkinskaya ilk rollarından biri 1924-cü ildə "Gəncə qadınlar kulubu" nun nəzdindəki həvəskarlar dərnəyinin hazırladığı "Lenin artıq yoxdur" əsərində ki, balaca qız obrazı idi. Bu balaca qızın atası rolunu dərnəyin rejissoru

və rəhbəri Əsəd Şıxzamanov ifa edirdi. Barat bu tamaşa ilə ilk dəfə Bakıya gəldi. Bakını ilk dəfə idi ki, görürdü. O, Bakıda bu tamaşa ilə çox yerlərdə çıxış etdi.

B. Şəkinskaya 13-14 yaşında "Qadınlar kulubu"nun həvəskar aktyorları ilə səhnədə pollar ifa etməyə başlayır. Aktrisa orada "Mən oxumaq istəyirəm" pyesində Nigar, H. Cavidin "İblis" əsrində Xavər, C.Cabbarlının əsərlərində -"Od gəlini"ndə Solmaz, "Aydın"da Gültəkin, "Oqtay Eloğlu"nda Firəngiz, "Sevil"də Gülüş və "Qaçaq Kərəm" əsərində Gülcahan rollarını ifa etmişdir. Barat xanım sonuncu dörd tamaşada görkəmli rejissor, SSRİ xalq artisti Adil İsgəndərovla tərəfmüqabili olmuşdur. Aktrisa özü yazır ki; "hələ o vaxtlar Adil İsgəndərovun (30-cu illərin ikinci yarısının bəzi afişa və proqramında Adil İsgəndərovun adı Ədil İsgəndərov kimi yazılırdı-İ.A.) rejissorluq və aktyorluq istedadı nəzəri cəlb edirdi.



*B.Şəkinskaya*
*20-ci illərin sonu*

Onun ifa etdiyi "Qaçaq Kərəm"də Kərəm, "Sevil"də Balaş, "Oqtay Eloğlu"da Şəkinski, "Aydın"da Dövlət bəy rolları əsl sənət nümunələri idi".

Yuxarıda qeyd etdiyim kimi B. Şəkinskaya xalq artisti İbrahim Həmzəyevin quruluşunda H. Cavidin "İblis" əsərində Xavər rolunu ifa edirdi.

Xavər-Şəkinskaya ərini dərin məhəbbətlə sevən, mehriban bir qadın idi. Ərinin əzab və işgəncələri Xavər-Şəkinskayanı sarsıdırdı. O, bu səhnələri çox həyacanlı ifa edirdi.

Bundan başqa “İblis”də Mir Cəlal-İbn Yəmini, Cəfər Xəndan və Hidayət Bağırov isə Arifi ifa edirdilər.

Barat Şəkinskaya həvəskar aktyorlar ilə həm “Gəncə qadınlar kulubu”nda, həm də “Fəhlə” kulubunda dolğun obrazlar yaradıb. O, 1929-cu ildə Mikayıl Davudovun quruluşunda Ü. Hacıbəyovun “Arşın mal alan” və “Məşədi İbad” musiqili komediyalarında Asiya və Sənəm, Adil İsgəndərovun quruluşunda S. S. Axundovun “Laçın yuvası” əsərində Göyərçin, 1930-cu ildə yenə də M. Davudovun quruluşunda səhnəyə qoyulan “Zəlzələ” pyesində Haykanuş və s. rəngarəng obrazlar yaratmışdır.

# II FƏSİL

## AKTRİSA VƏ GƏNCƏ TEATRI

O dövrdə yəni 20-30-cu illərdə Bakı şəhərində iki böyük teatr fəaliyyət göstərirdi. Türk İşçi Teatrı və Əzizbəyov Teatrı (indiki Akademik Milli Dram Teatrı-İ.A.). Hər iki teatrın yaradıcılıq əlaqəsi var idi. Hətta tamaşaçıları da ayrı-ayrı idi. Bir şəhərin iki gözü idi bu teatrlar.

O illərdə Aqriba adlı bir katib var idi. Onun qərarı ilə Türk İşçi Teatrını Gəncəyə bağışladılar (çünki elə adamların marağı yox idi ki, Azərbaycanın mərkəzində iki teatr olsun). Gəncəyə köçən İşçi Teatrının əksər aktyorları imkansızlıq olduğuna görə gedə bilmədilər. Hərəsi özünə bir sənət tapdı. Bəlkə onlar teatrda qalsa idi hərəsi böyük bir sənətkar olardı. Lakin bir neçə aktyorlar Abbasmirzə Şərifzadə, Kazım Ziya, Ələsgər Ələkbərov, Əzizə Məmmədova, Ağahüseyn Cavadov, Ağasadıq Gəraybəyli, İsmayıl Talıblı, Əjdər Sultanov, İsmayıl Əfəndiyev, Əmir Dadaşlı, Məxfurə və Nina Yermakova bacıları və b. gənc aktyorlar və teatrın müdiri Ələkbər Seyfi, rejissor Həbib İsmayılovda Gəncəyə köçdülər.

Teatrın heç bir imkanı olmadığına görə işçi kulubunu teatrın binasına verdilər. İlk dəfə böyük türk ədibi Ə. Hamidin "Hind qızı" tamaşasını oynayan gecə teatrın nəyi var idi hamısı oğurlandı.

Həmid Sultanov o illərdə Gəncə İcra Hakimiyyətinin başçısı idi. Onun qərarı ilə yerli həvəskarlar turuppasının üzvlərindən on beşə yaxın adam və o cümlədən Barat Şəkinskayanıda teatra cəlb etdilər (o vaxtlar Barat xanım Gəncənin Sərkar kəndində müəllimə işləyirdi). Həmid Sultanov şəxsən Barat xanımın arxasınca adam göndərmişdir. B. Şəkinskayanın anasının xalası oğlu Cəlil Məmmədzadə ikinci katib işləyirdi. Onun xahişi olmasaydı Barat xanım teatrda

fəaliyyət göstərə bilməzdi. Bu xahişdən sonra B. Şəkinskaya teatra gəldi.

Oğurluqdan sonra dövlət teatrı üçün nə bina, nə də səhnə yaramırdı. Ona görə teatr məcbur olub, qış aylarında Azərbaycan rayonlarına üz tutdu. Nəhayət teatr üçün layiqli bina tikməyə başladılar.

1933-cü ilin əvvəllərində yeni tamaşalar hazırlanırdı. Bir-iki ay fəaliyyət göstərən Fatma Qədri Bakıya-Rus Dram Teatrına getməli oldu... (Rus-dilini yaxşı bildiyinə baxmayaraq Rus Dram Teatrında özünə layiqli yer tuta bilmədi. Ona görə 30-cu illərin axırlarında Azərbaycan Dram Teatrına gəldi). Onun getməsinə bu şərtlə razılıq verildi ki, öz rollarına aktrisa hazırlasın. Çünki teatrın bütün yükü onun çiyinlərində idi. Fatma Qədri Ə. Hamidin "Hind qızı" pyesində sürücü, "Cancur Səməd"də ("Cancur Səməd", J. B. Molyerin "Yalançı xəstə" pyesinin təbdili) Nabat, A. Qlebovun "İncə" əsrində Yasəmən kimi rollara B. Şəkinskayanı hazırladı. Beləliklə, Barat xanım rayonlarda bu rolları ifa edirdi. Hətta Şəkiyə gələndə mərhum Ağakərim Şərifov (teatr muzeyinin banisi, A. M. Şərifzadənin əmisi oğlu) Barat xanımı Şəkili bilib "Hind qızı" tamaşasının başlanması üçün görüş düzəltmişdir.

Tamaşanın birinci pərdəsində hind qızı sürücü, ingilis zabiti Tomsonu sevirdi. Bu iki gəncin evlənmələrinə heç kəs razılıq vermirdi. Belə qərara gəlirlər ki, bir qırmızı , bir ağ çicək atsınlar və kimin çiçəyi keçsə o, onun dinini qəbul etsin və evlənsinlər. Əllərində çıçək səhnəyə çıxan kimi qəfildən əlləri çiçəklə dolu məktəbli uşaqlar səhnəyə axışdılar. Bunu A. Şərifov Barat xanıma görə təşkil etmişdir. Özü də səhnəyə çıxıb tamaşaçılara müraciət edərək "-siz el qızını səhnədə görürsünüz"-demişdir. Səhnəni çiçəklə doldurmuşdular. B. Şəkinskaya özü qeyd edir ki, nə yaxşı ilk söz Tomsonun idi, yoxsa dilim söz tutmazdı.

1933-cü ildə Gəncə teatrının səhnəsində B. Şəkinskaya S.S. Axundovun "Laçın yuvası" pyesində Pəricahan və A. M. Şərifzadənin quruluşunda "Namus" əsərində Süsən, H. Cavidin "Şeyx Sənan" faciəsində gürcü gözəli Xumar obrazlarını ifa etdi.

Aktrisa Süsən obrazı üçün özünə məxsus xarakter seçmişdir. O, Süsənin insanpərvərliyini, incə qəlbini böyük aktyor bacarığı ilə yaratmışdır.

Xumarda müsbət qadın obrazı idi. Barat xanımın ifa eydiyi Xumar Şeyx Sənanı dərin məhəbbətlə sevən bir qız idi. B. Şəkinskayanın Xumarında tamaşaçı, eşqin, məhəbbətin böyüklüyünü görmüş və ona inanmışdır. Aktrisa Xumarı onun gələcəkdə görkəmli bir sənətkar olduğuna zəmin yaratmışdır.

O zamanlar çox ağır aclıq illəri idi. B. Şəkinskaya aktyorlarla birlikdə bütün rayonları gəzir, tamaşalar göstərirdilər. Yay gəldi, bütün aktyor turuppası məzuniyyətə çıxdı (1933). Məzuniyyətdən qayıtdıqdan çox az bir müddət içərisində teatr səthi təmir olundu. Bir tərəfdən təmir olunurdu, digər tərəfdən isə tamaşalar göstərilirdi. Bu illərdə C. Cabbarlı “Yaşar” pyesi hazırlandı. Yaşar rolunu A. M. Şərifzadə, Yaqut rolunu isə B. Şəkinskaya ifa edirdi.

Barat xanım gənclik dövründə yaratdığı ən mükəmməl rollarda biri də Yaqut idi. Kəndli qızı, son dərəcə sadə olan Yaqutu aktrisa maraqlı mizanlarla yaratmışdır. Onun ifa etdiyi Yaqut Yaşarı böyük eşq ilə sevən əsl azərbaycanlı qızı idi.

1934-cü ildə Abbasmirzə Şərifzadə artıq Bakıya köçmüşdür. Həmin ilin məzuniyyətindən sonra Ələkbər Seyfi əlacsız qaldı, məcbur oldu ki, Tiflis teatrının artistlərini Gəncəyə gətirsin. Beləliklə, Əhməd Salahlı, Əli Şahsabahlı, o cümlədən Solmaz (Nina) Orlenskaya Gəncə teatrına dəvət olundular. Lakin əvvəl ki, kollektivdən Əjdər Sultanov, İsmayıl Əfəndiyev, Kazım Ziya, İsmayıl Talıblı, Əmir Dadaşlı və Məxfurə xanım Gəncə teatrına sadiq qalmışdılar.

1935-ci ilin məzuniyyətindən qayıtdıqdan sonra Barat xanım divardakı elanı oxudu. Həmin elanda “Şeyx Sənan”ın növbəti tamaşasının afişası vurulmuşdur: Şeyx Sənan-Ə. Salahlı; Xumar-Solmaz; Nina-Barat ...

Böyük faciə aktyoru A.M. Şərifzadə ilə Xumarı ifa edən B. Şəkinskaya, Abbasmirzə gedəndən sonra özüdə bilmədən Nina roluna keçirilmişdir.

Bu elanı oxuduqdan sonra Barat xanım evə gəlir və teatra zəng çalır, deyir ki, dayım ağır xəstədir. Həmin il o, Bakıya gəlir.

Hələ böyük dramaturqumuz Cəfər Cabbarlı Barat xanımın artistlik məharətini eşitmiş və onu indiki Akademik Milli Dram Teatrına gətirmək istəyirmiş. Azərbaycan mədəniyyətinin inkişafında misilsiz rol oynayan Cəfər Cabbarlı Barat Şəkinskayanı paytaxt teatrının səhnəsində görə bilmir. 1934-cü ilin dekabrında C. Cabbarlı rəhmətə gedir və Barat xanım 1935-ci ilin oktyabrında paytaxt teatrının səhnəsinə gəlir və bənzərsiz obrazlar qalereyası yaradır.

# III FƏSİL

## AKTRİSA AKADEMİK MİLLİ DRAM TEATRININ SƏHNƏSİNDƏ

*Barat öz qəhrəmanını hər iki ruhi vəziyyətdə dərindən duyaraq və sevərək oynayır.*

***Prof.* Cəfər Cəfərov**

Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri də Akademik Milli Dram Teatrıdır. Bu teatrın şöhrəti bütün dünyaya yayılmışdır. Teatrın əsas inkişafı 1920-ci ildən sonra baş vermişdir.

Bu teatrda respublikamızın ən qabaqcıl səhnə xadimləri çalışırdılar. Mirzağa Əliyev, Sidqi Ruhulla, Hacağa Abbasov, Abbasmirzə Şərifzadə, Ülvi Rəcəb, Panfiliya Tanailidi, İsmayıl Hidayətzadə, Əzizə Məmmədova, Rza Təhmasib, Mustafa Mərdanov, Ağahüseyn Cavadov, Ağasadıq Gəraybəyli, Rza Əfqanlı, Möhsün Sənani, Mərziyə Davudova, Əli Qurbanov, Sona Hacıyeva kimi sənətkarlar öz ecazkar ifaları ilə tamaşaçıların ruhunu oxşayırdılar. Teatra daha sonralar Ələsgər Ələkbərov, Barat Şəkinskaya, Fatma Qədri, İsmayıl Dağıstanlı, Məmmədəli Vəlixanlı, Əjdər Sultanov, İsmayıl Osmanlı, Məhluqə Sadıqova, Sofa Bəsirzadə, Hökumə Qurbanova, Leyla Bədirbəyli, Nəcibə Məlikova, Ağadadaş Qurbanov kimi yüksək səviyyəyə malik olan görkəmli aktyorlarda qədəm qoydular. Onlar dünyanın ən məşhur teatrlarının ən-ənələrini öz ifaları ilə tamaşaçılara göstərirdilər. O dövrdə kollektivin ən ümdə arzusu hər dövrün güzgüsü olan repertuar yaratmaq idi.

İlk dəfə yəni 1873-cü il mart ayının 10-da teatr pərdələrini Nəciblər klubunda M. F. Axundovun (M.F.Axundzadə) "Lənkəran xanın vəziri" komediyası ilə açmışdır. Əsərdə M. F. Axundov özbaşnalığı tənqid atəşinə tutmuş, qadın azadlığı, azad sevgi haqqında fikirlər irəli sürmüşdür.

Bunda sonra teatr inkişaf etmiş və 1920-ci ildən başlayaraq yaradıcılığının kulminasiya nöqtəsinə çatmışdır. Bu illərdə C. Cabbarlının və H. Cavidin əsərlərindən başqa "Hacı Qara", "Don Juan", "Həyatın dibində", "Müfəttiş", "Qaçaqlar" və s. əsərlər tamaşaya qoyulmuş, teatrın böhrandan çıxmasına xeyli kömək etmişlər.

Əlbəttə o dövrdən söhbət düşəndə teatrın inkişafında Cəfər Cabbarlının xidmətlərini qeyd etməmək mümkün deyil. O, teatr üçün həm pyes yazır, həm əsər tərcümə edir, həm rollara iştirakçı tapır və həm də pyeslərə quruluş verirdi. Belə bir zamanda Cəfər Cabbarlını ən çox narahat edən qadın rollarını kişilərin ifa etməsi idi. O, dövrdə yəni 20-ci illərdə Əzizə xanım Məmmədova çarşabını atıb, qızı Sona xanım Hacıyeva ilə birlikdə teatra gəlir. Teatrda olan boşluğu müəyyən qədər doldurur. Sonra Mərziyə Davudova gəlir və mürəkkəb qadın obrazları yaradır.

Otuzuncu illərin ortalarında artıq C. Cabbarlı rəhmətə getmişdir. Azərbaycan qızları səhnəyə axışır. Lakin bu xoş günü böyük dramaturq görə bilmir. Bu illərdə yəni 1940-cı ilə qədər teatra Barat Şəkinskaya (1935), Məhluqə Sadıqova və Hökümə Qurbanova (1936), Sofa Bəsirzadə, Nəcibə Məlikova, Mirvari Novruzova, Əminə Sultanova (Nağıyeva), Hökumə İsmayılova (Qasımova), Böyükxanım Axundova, Qüdsiyyə Qafarova, Rüxsarə Ağayeva (1938) kimi gənc qüvvələr gəlir. Onu da qeyd edək ki, 20-ci illərdə teatra ilk azərbaycanlı aktrisalar gəldi: Əzizə Məmmədova, Sona Hacıyeva. Barat Şəkinskaya Azərbaycan teatr tarixində üçüncü azərbaycanlı aktrisadır ki, səhnəyə qədəm qoyur və baş rolların ifaçısı kimi özünə geniş şöhrət qazanır.

Barat xanım Şəkinskayanın paytaxt teatrına gələndə 21 yaşı var idi. Artıq teatrda yaşlı və orta nəsilin aktyorları çalışırdılar. M. A. Əliyev, S. Ruhulla, A. M. Şərifzadə, Ü. Rəcəb, P. Tanailidi,

Ə. Məmmədova, İ. Hidayətzadə, A. S. Gəraybəyli, M. Davudova və başqa böyük sənət bahadırları ilə tərəf müqabili olmaqla gənc aktrisanın yaradıcılıq məsuliyyəti artırırdı.

B. Şəkinskaya o dövrləri belə xatırlayırdı; "1935-ci il sentyabr ayının 1-də mən Əzizbəyov adına Azərbaycan Dram Teatrına daxil oldum. Teatrın direktoru Hacıbaba Nəzərli idi. Köhnə tamaşalardan "Sevil"də Gülüşü oynamalı idim. Təzə tamaşa da hazırlayırdılar. Qurban Musayevin "Qızıl çeşmə" pyesində Gülünsər rolunda məni yoxlamaq istədilər. Ülvi Rəcəb qardaşımı oynayırdı. İlk rolum xoşuna gəldi. "Sevil"də Adil İsgəndərovun məsləhəti ilə (o, teatra Moskvadan diplom tamaşası hazırlamağa gəlmişdi) Gülüş rolunu mənimlə Aleksandr Aleksanaroviç Tuqanov hazırladı".

B. Şəkinskaya hələ 1932-ci ildə Gəncədə Adil İsgəndərovun həvəskarlarla hazırladığı "Sevil"də Gülüşü ifa etdiyi üçün bu teatrda da ilk dəfə bu obraz ilə tamaşaçı qarşısında çıxış etdi.

B. Şəkinskaya "Sevil" pyesindəki Gülüş obrazını 1935-ci ilin oktyabrında ifa etdi. Tamaşanın rejissoru A. A. Tuqanov idi.

Barat xanımdan əvvəi teatrın Yeva Olenskaya kimi yaxşı Gülüşü var idi. Adil İsgəndərovun fikrincə B. Şəkinskaya Gülüşü daha yaxşı ifa edirdi. Məşq prosesində Rza Əfqanlı Barat xanıma çox kömək etmişdir. Beləliklə, Barat xanım ilk dəfə olaraq paytaxt teatrının səhnəsində Gülüş rolunda çıxış etdi. Aktrisanın ifasında Gülüş müasir həyata açıq baxan qız idi. O, qardaşı arvadı Sevili özü ilə birlikdə yeni həyata aparmaq istəyirdi. Onu öz səviyyəsinə yüksəltməyə çalışırdı. Lakin Sevil onun sözlərinə əhəmiyyət vermirdi. Ona görə də Gülüş-Şəkinskayanın tez-tez işlətdiyi "Yazıq Sevil! Sən nə qədər yazıqsan. Ax, Sevil, sən doğrudanda yazıqsan" və s. bu kimi dediyi sözlər ilə Gülüş-Şəkinskaya Sevili qəflət yuxusundan oyatmaq istəyirdi. Lakin ...

Aktrisanın bu ilk müvəffəqiyyətindən yadda qalan ən yaxşı səhnələrdən biri də Gülüş atasını qonaqlara təqdim etdirmə səhnəsidir. Bu səhnədə tamaşaçı gənc aktrisa olan Barat xanımın gələcəkdə böyük sənətkar olacağına inanırdı. Həmin səhnənin gərgin yerində Balaş-Əfqanlı, Gülüş-Şəkinskayaya "-Gülüş, dilini kəs!

Mən sənin dilini burub, boynuvun sapından çıxararam". Burada böyük sənətkar Rza Əfqanlı Gülüş əvəzinə səhvən Barat deyib. Lakin nə tamaşaçılar, nə də aktyor yoldaşarı bunu onun üzünə vurmadılar.

B. Şəkinskaya Gülüşün söylədikləri monoloqların, dialoqların hamısında öz fitri istedadını tamaşaçılara göstərmişdir: "-Gücsüz bir qadını dustaqda saxlayıb qapıları onun üzərinə qapamaq, onun günüsünü evə gətirib, ona güldürmək, mənim atama yaramaz ölü paltarı geyindirib heyvan kimi ağzını qapamaq və dilini bağlamaq, sərsəm bir meymun kimi, cansız bir marionetka kimi barmaq ucunda oynatmaq! Yox, artıq mən sənin üçün dəli Gülüş deyiləm, mən indi bayquş qəhqəhəsiyəm ki, bütün həyat uzunu sənin qulaqlarında partlayacağam". Bu sözləri deyib iti adımlarla səhnəni tərk edən Gülüş-Şəkinskaya Azərbaycan qızına xas olan mərdliyi tamaşaçıya açıq, aydın göstərirdi.

Aktrisa xatirələrində yazır; "Səsim Tuqanovun xoşuna gəlmişdi. Amma nöqsanlarım var idi. Sözlərin axırını yeməyim onu əsəbləşdirirdi. O, çatışmazlıqlarıma heç vaxt biganə qalmırdı. Gülüşü, sonra da Gülümsəri babat oynadım. Özüm də, Adil də, yaxşı bilirdik ki, bu rolu Gəncədə qat-qat yaxşı oynamışdım. Kollektivə təzə daxil olmaq, Mərziyə xanım, Sidqi Ruhulla, Rza Əfqanlı ilə üzüzə gəlmək... Onlarla səhnədə tək qalmaq... Əlbəttə, sıxılırdım, utanırdım, nəhayət, çəkinirdim".

Şübhəsiz ki, bu sözlər Barat Şəkinskayanın təvəzökarlığına sübutdur. Ulduz kimi Azərbaycan səhnəsində parlayan bu misilsiz sənətkar yenə də öz sənətindən, yüzlərlə mürəkkəb xarakterli qadın obrazlarından razı qalmırdı. Bu vaxt mənim yadıma xalqımızın müqəddəs bir kəlamı düşür: "Ağac bar gətirdikcə başını aşağı əyər".

Həmin ildə (1935) Azərbaycan səhnəsində bir rejissor kimi Adil İsgəndırov müasir mövzudan bəhs edən və həm də özünün diplom tamaşası kimi A. Korneyçukun "Polad Qartal" ("Platon Kreçet") pyesinə quruluş verdi. O, balaca Şəfiqə (Maya) roluna 22 yaşlı Baratı seçdi. Amma əsər Mustafa Mərdanov və Ülvi Rəcəb tərəfindən tərcümə və təbdil olunduğuna görə onlar buna razılıq vermədilər. Çünki ilk adımlar olduğu üçün ona inanmırdılar. Şəfiqə rolu-

nu o dövrdə uşaq rollarının kamil ifaçısı sayılan Cavahir Hüseynova ilə yanaşı B. Şəkinskayayada tapşırdılar.

Məşq prosesində Barat xanıma ümid artdı. 1936-cı il yanvar ayının 3-də "Polad Qartal" əsərinin ilk tamaşalarını B. Şəkinskaya ifa etdi. Bu obraz ilə Barat xanım uşaq rollarının ifaçısı ola biləcəyini sübut etdi.

"Polad Qartal" tamaşasındakı Şəfiqə obrazı keçmiş Sovetlər İttifaqına səs salmışdır. Bu rolu kimlər ifa edibsə, hamı tamaşaya ona görə gəlirdilər. Şəfiqə tamaşanın ancaq ikinci pərdəsində idi. Aktrisa bu rolu o qədər gözəl və səmimi ifa edirdi ki, tamaşaçılar onu sürəkli alqışlarla qarşılayırdılar. Ona görə rejissor Adil İsgəndərovun təklifi ilə Şəfiqə obrazına söz əlavə edib B. Şəkinskayanı sonuncu pərdəyədə saldılar. O vaxtdan yəni 1936-cı ildən 1954-cü ilə kimi düz on səkkiz il bütün uşaq rollarını Barat xanım ifa etdi.



*B.Şəkinskaya – Şəfiqə rolunda*

Adilə İsmayılova "Azərbaycan qadınları səhnədə" (Bakı-1977) adlı kitabında yazır ki; "Az vaxt içərisində Şəkinskaya çox istedadlı və ümidverici bir aktrisa kimi tanınır. 1936-cı il də B. Şəkinskaya M. Əzizbəyov adına Aəzrbaycan Dövlət Dram Teatra dəvət edilir. Burada onun ilk rolu A. Korneyçukun "Polad Qartal" əsərindəki Şəfiqə obrazı olur. Bu obraz onu tamaşaçılara sevdirir".

B. Şəkinskaya xatirələrində yazır ki; ""Polad Qartal"ın ilk tamaşası günü baş rejissor Tuqanov otağa gəlib məni təbrik elədi. Dedi ki, Meterlinqin "Göy quş" adlı gözəl bir əsəri var. Orda çox

gözəl iki uşaq rolu seçmişəm. Sabah pyesi verim oxu... İndi mən sənnən işləmək istəyirəm”.

1936-cı il may ayının 28-də M. F. Axundovun “Aldanmış kəvakib” povestinin əsasında qələmə alınmış M. Cananın “Şahnamə” əsəri Sabit Rəhmanın tərcüməsində İsmayıl Hidayətzadənin quruluşunda tamaşaçılara təqdim olundu. Bu əsərə bəzi qadın və kişi obrazları əlavə olunmuşdur. Bu obrazların içərisində İşvəli qadın obrazı var idi ki, onu da Barat xanım ifa edirdi. B. Şəkinskayanın yaratdığı obraz adından göründüyü kimi, işvəli və ədalı idi. Aktrisanın bu işvəsi onun danışığına da sirayət etmişdir.

1936-cı il oktyabr ayının 28-də görkəmli Belçika yazıçısı, Nobel mükafatı laureatı Moris Meterlinqin 1905-ci ildə fransız dilində yazdığı “Goy quş” əsəri İsmayıl Hidayətzadənin tərcüməsində və A. A. Tuqanovun quruluşunda tamaşaya qoyuldu. Bu tamaşada Tiltil adlı oğlan uşağının rolunu B. Şəkinskaya ifa edirdi. Aktrisa oğlan uşağına məxsus danışıq və hərəkət seçmişdir. Tiltilin bacısı Mitil rolunu Cavahir Bayramova oynayırdı.



*“Göy quş” tamaşasından səhnə.*
*Sağdan: Tiltil – B.Şəkinskaya,*
*Nənə – N.Lizina*

B. Şəkinskaya xatirələrində qeyd edir ki; “O, vaxtlar bulvarda tək-tük yurdsuz uşaqlar görünürdü. Mən onlardan bir neçəsi ilə tanış oldum, bu

sirri təkcə Tuqanov bilir və mənə kömək edirdi. Az çox onlardan öyrənirdim. Evdə isə təkcə dörd yaşlı qızım var idi, heç oğlandan fərqlənmirdi...

Tamaşada belə bir səhnə var idi. Mən yemək stolunun üstünə çıxıb, qonşu binanın pəncərəsindən varlı balalarının zəngin bəzənmiş yolkasına, bayram stolundakı yeməklərə həsrətlə baxıb, monoloq söyləməliydim. Hər şey çox yaxşı gedirdi. Amma stola çıxanda, hərəkətlərim oğlan uşağının hərəkətlərinə oxşamırdı. O vaxt qızım Solmazın dörd yaşı var idi. Bir gün A. A. Tuqanov mənə tapşırdı ki, sabah qızını özünlə bərabər məşqə gətir.

Səhər saat on birdə məşq başlandı. Tuqanov Solmazı çağırıb ona bir necə dəfə hündür yemək stoluna çıxmağı tapşırdı, ona da elə bir hay gərək idi. Məndə diqqətlə onun bütün hərəkətlərini izləyirdim. Beləliklə, balaca uşağın hündür yerə necə çıxmağını öyrəndim. Sonra yavaş-yavaş məndə də alınmağa başladı.

Tamaşa çox gözəl getdi, iştirak edənlər hamısı böyük müvəffəqiyyət qazandı, adları uzun müddət dildən-dilə düşdü. Tamaşa isə teatr tarixində yaxşı tamaşalar sırasına yazıldı".

Beləliklə, B. Şəkinskaya oğlan uşağı olan Tiltil obrazını böyük müvəffəqiyyətlə yaratdı. Onun ifa etdiyi Tiltil teatrın qələbəsi idi.

Qüdrətli sənətkar heç vaxt oynadığı rol üçün xarakter cizgilər tapmağa çətinlik çəkmirdi, həmişə tamaşaçını düşündürməyə çalışırdı. Onun bir aktrisa kimi yaradıcılıq imkanları çox geniş idi. Bu misilsiz sənətkar hər obrazı özünə məxsus sənətkarlıqla ifa etmiş və ona nöqsan tutulmasına yol verməmişdir.

1937-ci ildə Azərbaycan teatr tarixində ən nadir hadisələrdən biri baş verdi. Teatr böyük ingilis dramaturqu Vilyam Şekspirə yenidən müraciət etdi.

Bir yanan çıraq kimi əsərləri ilə dünya səhnələrini isidən, dahi Şekspiri dörd yüz ildən artıqdır ki, Qərb və Şərq sevə-sevə oxuyur və öyrənir. Şekspir yaradıcılığı dünya teatrının ən parlaq zirvəsidir. Onun qələmə aldığı müxtəlif xarakterli, əzəmətli obrazlar əsrlər keçdikcə öz təravətini və bədii gücünü itirməyəcək.

Sözün həqiqi mənasında xalq üçün yazıb-yaradan bu dahi dramaturq bütün dövrlərdə hər millət üçün əziz olmuşdur. Dünyanın bütün mədəni xalqları Şekspir irsinə dərin hörmət bəsləyirlər. Onun əsərləri dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş və bütün xalqların sərvətinə çevrilmişdir.

Bir əvəzsiz dramaturq, şəxsiyyət və mütəfəkkir kimi mürəkkəb inkişaf yolu keçən Şekspirin ən mükəmməl əsərlərindən biri də "Romeo və Cülyetta" faciəsidir. Qədim italyan əfsanəsindən götürülmüş bu əsər 1937-ci il yanvar ayının 14-də Əhməd Cavadın tərcüməsində A. A. Tuqanovun quruluşunda səhnəyə qoyulmuşdur. Həmin tamaşada B. Şəkinskaya Cülyetta rolunu ifa edirdi. O, zaman 22 yaşlı Barat xanım bu obrazı çox böyük müvəffəqiyyətlə yaratmışdır.



*"Romeo və Cülyetta" tamaşasından səhnə.*
*Romeo – Ü.Rəcəb,*
*Cülyetta – B.Şəkinskaya*

Barat xanım xatirələrində yazır ki; "Hər aktyorun yaradıcılığında sevib, pərəstiş etdiyi bir yazıçı var. Mənim də qəlbimin ilk sözü Şekspir olmuşdur. Bu əziz müəllimimin əsərlərində ilk rolum "Romeo və Cülyetta" faciəsində Cülyetta rolu oldu. O, zaman hələ mənim 22 yaşım vardı. Mənim gəncliyimdən, təcrübəsizliyimdən qorxmayaraq teatr bu rolu mənə tapşırdı. Mənim ikinci bir xoşbəxtliyimdə onda idi ki, bu tamaşanın quruluşçu rejissoru, Şekspir yaradıcılığını çox yaxşı bilən A. A. Tuqanov idi.

"Romeo və Cülyetta" faciəsi təkcə dünənin deyil, o, həm bu günün, həm də sabahın faciəsidir. Dünya durduqca "Romeo və Cülyetta" faciəsi yaşayacaqdır. Dünya dramaturgiyasında yaranan nakam məhəbbət əfsanələrindəki gözəllər gözəli Cülyetta! Sən məhəbbət və səadət mücəssəməsisən. Sən xurafata boyun əymədin, öz saf məhəbbətinlə ona qalib gəldin".

B. Şəkinskaya Cülyetta obrazını çox yüksək aktyorluq bacarığı ilə yaratmışdır. O, Cülyettanı nağıl qəhrəmanı yox, canlı, dolğun bir insan kimi canlandırmışdır. İlk səhnədə atasına və anasına tabe olan Cülyetta-Şəkinskaya Romeo ilə görüşdükdən sonra mətinləşirdi, özünün həyat haqqında ürəyindən keçən fikirləri aşıq-aşkar söyləyirdi.

"Bakinski raboçi" qəzeti (01.01.1937) yazır ki; "Cavan aktrisa Barat, ilk dəfə belə məsul rolu, gözəl Gülyettanın surətini çılğın, möhkəm iradəli, qoçaq, eyni zamanda zərif, fədakar qızı gözəl cizgilərlə yaratdı. Ümumiyyətlə, Cülyetta siması tamaşaçıda dərin iz buraxır".

B. Şəkinskaya xatirələrində qeyd edir ki; "Bu, mənə verilən ilk qiymət idi. Cülyetta rolu səhnə sənətimin ilk carçısı olub. Ömrüm boyu mənimlə yanaşı yaşayıb".

H. Orucəli yazır ki; "Barat xanım Cülyettanı sonsuz sədaqətlə döyünən bir qəlb, atəşin etirazla, coşqun bir lirizmlə səciyyələndirirdi".

A. İsmayilova (1977) yazır ki; "Hələ 1937-ci ildə məşhur rejissor A. A. Tuqanov Baratın "Romeo və Cülyetta" tamaşasındakı ağıllı oyunu ilə əlaqədar onu daxili qüvvəyə, məlahətə, xarici zərifliyə və gözəlliyə malik olan, böyük ümidlər verən aktrisa adlandırmışdı.

Həqiqətən də cavan aktrisanın yaratdığı Cülyetta Şekspir dühasına layiq bir obraz idi. Cülyetta-Barat Şəkinskaya xaricən incə və gözəl, daxilən şən və gümrah, gözüaçıq, ətrafındakı hadisələri yaxşı başa düşən, öz taleyi uğrunda mübarizə etməyi bacaran bir qızdır".

C. Cəfərov "Azərbaycan Dram Teatrı" (1951) adlı kitabında yazır ki; "Üç Cülyetta-Barat, Fatma Qədri, S. Hacıyeva, xüsusən coşqun, iradəli, səmimi, zəif və nazlı Şekspir qəhrəmanına daha yaxın olan Barat".

Mustafa Mərdanov "50 il Azərbaycan səhnəsində" (1959) adlı kitabında yazır ki; "Cülyetta, Barat Şəkinskayanın ifasında həqiqi Cülyetta idi. Barat Şəkinskayanın Şekspir əsərlərində ilk dəfə Cülyetta kimi məsuliyyətli bir rolda çıxış etməsi, onun yaradıcılığında böyük və müsbət bir hadisə idi. B. Şəkinskayanın ifasında bu obraz öz xüsusiyyətlərini əsas etibarilə tapa bilmişdi. Aktrisa, Cülyetta obrazını orta əsrlərdə təsvir olunan bir nağıl qəhrəmanı kimi yox, real bir insan kimi səhnədə canlandırmışdı. Faciənin başlanğıcında, ata-anasına hər hər şeydə tabe olan bu qızı, Romeo ilə sevişdikdən sonra biz, böyük bir ürəyə malik və həyat barədə müstəqil fikir yürüdən bir insan kimi görürük. Barat Şəkinskaya Cülyettanın həyatındakı bu dönüşü böyük sənətkarlıqla verə bildi. B. Şəkinskaya, yaşadığı dövrün feodal ənənələri ilə mübarizə edə bilmək üçün öz Cülyettasını getdikcə mətinləşdirir, onu böyük qəhrəmanlıq zirvəsinə qaldırır, ancaq Cülyettanın qadın lətafətini, zərifliyini və incəliyini bir an belə olsun itirmir".

Bütün bu sözlər Barat xanımın bənzərsiz ifasına verilən qiymət idi. O, bunlara aludə olub arxayınlaşmadı, əksinə öz üzərində gərgin işləyib, neçə-neçə gecələri yuxusuz keçirtdi.

1937-ci il aprel ayının 28-də M. İbrahimovun "Həyat" pyesi A. İsgəndərovun quruluşunda tamaşaçılara təhvil verildi. Tamaşada Atlas rolunu Sona Hacıyeva ilə yanaşı B. Şəkinskayada ifa edirdi.

Müəllifin qələmindən çıxan sadə kəndli qızı "Yaşar" dramındakı Yaqutu xatırlayır. Yaqut öz həmkəndlisi Yaşarı sevdiyi kimi, Atlas da öz kəndində böyümüş Abbası sevir. Fərq odur ki, Atlasın məhəbbəti faciə ilə bitir. Atlas Abbasa qovuşa bilmir, onun pak

məhəbbəti yolun başlanğıcında qırılır. Abbasın həyatına düşmənlər tərəfindən son qoyulur. Atlas obrazının əsas xüsusiyyəti öz sevgisinin Abbasdan sonrakı kədərli aqibətidir.

B. Şəkinskayanın lirik planda ifa etdiyi Atlas sevgilisinin ölümündən sonra kədərli həyat sürən, ümidləri qırılan bir insanın kədərli həyatını yaratmağa nail oldu. Tamaşa boyu Atlas-Şəkinskaya sevgilisinin arzularını doğrultmaq üçün mübarizə apararaq nümunəvi işçi olurdu.

1937-ci il noyabr ayının 3-də C. Cabbarlının “1905-ci ildə” əsəri İ. Hidayətzadənin quruluşunda tamaşaya qoyulur və Sona Hacıyeva ilə Barat Şəkinskaya Sona rolunu ifa edirlər.

B. Şəkinskaya Sonanı incə ştrixlərlə tamaşaçılara təqdim edirdi. Sona-Şəkinskayanı zorla ərə vermək istəyirlər, o isə Baxşını (bu rolu Süleyman Tağızadə ifa edirdi-İ.A.) sevir. Aktrisa öz qəhrəmanının günahsız olduğunu düzgün təqdim edə bilirdi. Mehriban, qayğısız qız olan Sona-Şəkinskaya məhəbbətinin qəmli aqibətini duyduqca fəryad qoparırdı. Lakin buna baxmayaraq Sona-Şəkinskaya Baxşıdan ayrılır. Barat xanım Baxşıdan ayrılıq səhnəsini böyük sənətkarlıqla ifa edirdi. O, yarımçıq məhəbbətin faciəsini tamaşaçılara düzgün göstərə bilirdi.



*B.Şəkinskaya – Pəri rolunda*

1938-ci il fevral ayının 16-da Ələsgər Şərifovun quruluşunda Ə. Haqverdiyevin “Pəri cadu” əsəri tamaşaçılara təqdim olundu. Tamaşada Barat xanımın ifa etdiyi Pəri yadda qalan səhnə qəhrəmanı idi. B. Şəkinskaya Pərini gözəl, cazibəli eyni zamanda qəddar və amansız kimi tamaşaçılara təqdim edirdi. Onun ifasında Pəri Azərbaycan səhnəsində ifa olunan heç bir

Pərilərə bənzəmirdi. Barat xanımın Pərisi düşündürücü, cılğın və yaraşıqlı idi.

Həmin il mart ayının 26-da A. İsgəndərovun quruluşunda Cabbar Məcnunbəyovun "Yanar dərə" pyesi tamaşaya qoyuldu və Bənövşə obrazını Barat Şəkinskaya ifa etdi. Dramaturji cəhətdən elədə yüksək səviyyədə olmayan bu pyesdə Barat xanım Bənövşəni yaradıcılıq süzgəcindən keçirmiş, obrazı quruluqdan xilas etmiş, ona cazibədarlıq və həyatilik vermişdir.

1938-ci il may ayının 27-də teatr böyük alman dramaturqu Fridrix Şillerin hüquqsuz xalqla zadəganlar arasında kəskin ziddiyyətlərdən bəhs edən "Mərk və məhəbbət" faciəsini Nigar Rəfibəylinin tərcüməsində, Fyodor Sariyanın quruluşunda tamaşaya qoydu. Həmin tamaşada B. Şəkinskaya Luiza rolunu ifa etdi.

Barat xanımın Luizası sadə, yumşaq qəlbli, təmkinli bir insan idi. Aktrisa Luizanın məhəbbətini son dərəcə böyük sənətkarlıqla ifa etmiş və onu tamaşaçılara örnək etməyə çalışmışdır. B. Şəkinskaya öz qəhrəmanının mənəviyyatındakı saflığı, məsumluğu bütün incəliklərlə açıb göstərməyə nail olmuşdur. Aktrisa Luizanı elə yüksək səviyyədə ifa etmişdir ki, onun oyunu uzun müddət tamaşaçı yaddaşından silinməmişdir.

1938-ci ildə Akademik Milli Dram Teatrının ən əlamətdar günlərdən biri baş verdi. Xalq arasında gözəl şair kimi hörmət qazanmış Səməd Vurğun ilk mənzum dramı olan "Vaqif" pyesini qələmə aldı. "Vaqif" müəllifin qüdrətli qələmindən çıxmış ən kamil əsərlərdən biridir. Bu mənzum dramın ilk tamaşası 1938-ci il oktyabr ayının 5-də göstərildi. Demək olar ki, həmin gün bütün Azərbaycan xalğının bayramı idi. Adil İsgəndərovun quruluşunda tamaşaçılara göstərilən "Vaqif" mənzum dramında B. Şəkinskaya gürcü qızı Tamara, sonralar Gülnar (1952) və 1961-ci ildə isə Xuraman rollarını ifa edib.

Tamaşanın primerası müvəffəqiyyətlə keçdi. Həmin tamaşada Azərbaycan səhnəsinin fəxri, SSRİ xalq artisti Ələsgər Ələkbərov-Vaqif; Azərbaycan teatrını yaradanlardan biri, SSRİ xalq artisti Sidqi Ruhulla-Qacar; xalq artistlərindən Fatma Qədri-Xuraman; Əli Qurba-

nov-Vidadi; Rza Əfqanlı-Eldar; Sona Hacıyeva-Gülnar və s. rolları ifa edirdilər. Bu tamaşada B. Şəkinskaya Tamara rolunda çıxış etdi.

Aktrisanın ifasında Gürcü qızı Tamara öz mərdliyi ilə kişilərdən fərqlənmirdi. Biz tamaşa vaxtı Tamara ilə beşinci şəkildə tanış oluruq. İran hökmdarı Ağa Məhəmməd şah Qacar tərəfindən əsr alınan gürcü qızı Tamara-Şəkinskayanın kədərli halda mahnı oxuması tamaşaçıları sarsıdırdı. Əsərdə Tamara epizodik roldur. Lakin Barat xanım böyük rus aktyoru, rejissoru, teatr nəzəriyyəçisi, SSRİ xalq artisti K. S. Stanislavskinin dediyi kimi "rolun böyüyü-kiçiyi yoxdur, aktyorun var" sözlərinə əsaslanaraq bu obrazı tamaşaçı yaddaşına həkk edə bilmişdir.



*B.Şəkinskaya – Tamara rolunda*

Barat xanım xatirələrində yazır; "1939-cu ildə Əzizbəyov adına Dövlət Dram Teatrında işlədiyim vaxt, çox çətinliklə anamı Səməd Vurğunun "Vaqif" pyesinin tamaşasına apardım. Tamaşada gürcü qızı Tamaranı mən oynayırdım.

Evə qayıtdıq. Anamın qanı qara idi. Soruşdum:

-Hə, ana, nə oldu, yenə xoşuna gəlmədim?

Dedi ki, yox! Fatma Qədri, Sona xanım yar-yaraşıqlı, Qarabağ paltarında... baxanda adam fərəhlənir. Amma sən? Əlinə tüfəng alıb, düşmüsən kişilərin dalınca".

1938-ci il də Mirzə İbrahimov "Həyat" pyesindən sonra İspaniyada baş verən hadisələr əsasında "Madrid" pyesini yazıb, tamamladı. Bu əsərdə hadisələr 1935-1936-cı illərdə İspaniyada cərəyan edirdi.

1938-ci il noyabr ayının 29-da Rza Təhmasibin quruluşunda "Madrid" tamaşası ilk dəfə göstərildi. Bu tamaşada Barat xanım Aida obrazını son dərəcə gözəl ifa etdi. C. Cəfərov yazır ki; "... romantik təbiətli Aidanın ideya yüksəlişini inandırıcı şəkildə göstərən Barat Şəkinskaya idi".


*B.Şəkinskaya – Aida rolunda*

A. İsmayılova (1977) yazır ki; "Öz səadətini xalqın səadətinə bağışlamış, ağıllı, cəsur, ispan qızı Aida B. Şəkinskayanın ifasında sayıq bir vətənpərvər, vətənin düşmənlərinə qarşı amansız bir döyüşçü idi. Aida-B. Şəkinskaya üçün vətən də, xalq da müqəddəsdi. Bu rol üzərində işlərkən aktrisa öz tamaşaçılarına vətənpərvərlik hisslərini aşılamaq, gəncləri vətənin şərəfini qorumaq üçün səfərbər etmək məqsədi daşıyırdı". Bu tamaşada aktrisanın yaratdığı Aida üzün müddət tamaşaçı qəlbində dərin iz buraxmışdı.

V. Hacıoğlu ("Ədəbiyyat qəzeti", 27.10.1938) B. Şəkinskayanın ifasın yüksək qiymət verərək yazır ki; "... böyük məsuliyyəti, Karlosa olan məhəbbətini vətənə olan məhəbbətlə birləşdirib vətən uğrunda adi bir döyüşçü kimi qorxmadan çarpışmasındadır".

Barat Şəkinskaya səhnədə bir sıra dərin məzmunlu obrazlar yaradan sənətkar olmaqdan başqa, kollektivədə böyük qayğı göstərən, onların müvəffəqiyyətinə sevinən bir insan idi.

Aktrisa yaradıcılığında ciddi axtarışlar apardığı bir dövrdə, camaat arasında çaxnaşma başlandı. Represiyanın sədası teatra da gəlib çıxdı. Hər yerdə olduğu kimi müqəddəs məbədgah sayılan teatrda da "xalq düşmənləri"ni axtarırdılar və nəhayət "tapdılarda".

# IV FƏSİL

## AKTRİSA REPRESSİYA İLLƏRİNDƏ

Faciələrlə bol olan 1937-1938-ci illər XX əsrdə xüsusi mərhələ təşkil edir. Bu illərdə xalqın düşünən beyinlərini şəxsiyyətə pərəstişin qurbanı etdilər. Hər yerdə olduğu kimi teatrda da “xalq düşmənləri”ni axtarırdılar...

Mən teatrda baş vermiş repressiyanı nə qədər məzmunlu qələmə alsam Barat Şəkinskayanın yazdığı kimi ifadə etməyə aciz olaram. Ona görə də aktrisanın 1989-cu il sentyabr ayının 15-də “Ədəbiyyat və incəsənət” qəzetində nəşr olunmuş müsahibəsinin bəzi yerlərini burda verməyi lazım bilirəm.

“Əvvəl tanınmış inqilabçıları, siyasi xadimləri həbs etməyə başladılar. Onların arasında şəxsən mənim tanıdığım adamlar da az deyildi. İncəsənət işçiləri idarəsinin rəisi Ruhulla Axundov, Bakıdakı dram teatrının direktoru Əli Kərimov da həbs olunanlar arasında idi. Hamının bir-birinə baxışından bir ifadə oxunurdu: Döğurdanmı onlar xalq düşmənidirlər? Şəxsən mənim yaxşı tanıdığım Hüseyn Cavid və məktəb müəllimim Əhməd Cavadı da tutdular (Ə. Cavadın tərcüməsində Kirovabad (indiki Gəncə-İ.A.) teatrında “Otello” tamaşasında Dezdemona rolunda məşq etmişdim). Getdikcə şübhə hissi də artmağa başlayırdı.

... Bir gün “Pəri cadu”nun məşqi gedirdi. Mən Pəri polunda, Abbas Mirzə Şərifzadə Qurban, Panfiliya Tanailidi Cadugər rolunda çıxış edirdi. Məşq zamanı turuppa müdiri Fərəc Süheyli gəlib bildirdi ki, sabah böyük salonda iclas olacaq. Vacib məsələ var. Mən bu məsələni evdə danışanda Şəmsi dedi ki, bu heç yaxşı işə oxşamır (o vaxt Şəmsi Bədəlbəyli ilə Barat Şəkinskaya yeni ailə həyatı qurmuşdular). Allah camaatı xətadan uzaq eləsin.

Səhəri gün saat 10-da iclas başladı. Əli Kərimovun yerinə Süleyman Rüstəm teatra direktor təyin olunmuşdur. Direktor müavini Səid Rüstəmovu çıxardıb, milliyyətcə başqa millətdən olan Muradov adlı bir nəfəri direktor müavini qoymuşdular. Qəddar bir adam idi. İçlası o açıb sözü partkom Abdullayevə verdi. Abbas Mirzə Şərifzadəni iclasın sədri secdilər. Amma rəngi-rufu ağappaq idi və onun çıxışına qədər heç kim, heç nə bilmirdi.

Abbasmirzə bildirdi ki, bizim aramızda xalq düşmənləri var. Namuslu sovet vətəndaşları kimi onları ifşa etmək hamımızın vətəndaşlıq borcudur. Kim kimin haqqında nə bilir, kimdən sovet hökuməti əleyhinə söz eşidib, desin. Hamı məəttəl qaldı. Bildirdilər ki, heç kim, heç nə əleyhinə söz eşitməyib.

... Başladılar Ülvi Rəcəbdən. Ülvinin evində kimlər olub? O, evində türk valları çaldırıb. Türk ədəbiyyatını və türk musiqisini təbliğ edib. Heç kim, heç nə başa düşmədi.

O zaman teatrımızda Cavahir Hüseynova adlı aktrisa vardı. Cəsarətli qız idi. Süleyman Rüstəmlə birlikdə bir çox səhnə ustasının həbsdən qurtarılmasında onun da zəhməti az olmadı. Kollektivin içərisindən yalnız o, ayağa qalxıb:

-Nə Ülvi, Ülvi salmısınız. Ülvi bizim ən namuslu aktyorlarımızdandır, -dedi. Elə bu an direktor müavini Muradovun-“Utur”-deyə səsi eşidildi. Cavahir də borclu qalmayıb, ona sərt cavab verdi. Ülvi acıqlı şəkildə salonu tərk etdi.

Mən, Sona Hacıyeva, o zaman teatrda qrimçi işləyən Əliağa Dadaşov bir-birimizə baxıb, onun arxasınca qaçdıq. Bulvarda Ülviyə çatdıq. O bizi görüb-qaçın mənim üstümdə sizə söz gələr. Yoxsa elə bilirsiniz özümü dənizə atacağam? Mən elə iradəsiz adam deyiləm. Özüm haqqımı qoruyacağam. Adicə olaraq o sözləri eşitmək istəmirəm,-dedi.

Geri qayıtdıq. İclas davam etdi. Abbasmirzə ancaq söz verirdi. Özü bir kəlmə də danışmırdı. O gün axşam Ülvini tutdular. Bir gün sonra işə gələndə isə gördük ki, Abbasmirzə də yoxdur. Dedilər ki, maskalanıb sədrlik edirmiş.

Sonra da yeni iclas-Abbasmirzə Şərifzadənin ifşası başlandı. Mərziyə Davudovaya söz verdilər. Sonra başqa aktyorları sorğu-sual etdilər. Məndən soruşdular ki, "Romeo və Cülyetta"da məşq edəndə sənə xarici aktyorlar haqqında bir söz deməyib? Dedim ki, nəinki xarici aktyorları, heç Şekspiri tanımıram. Bir də Şərifzadə böyük sənətkardır, mən gənc aktrisa. Onunla oturub söhbət etməyə utanırdım...

-Çox qəribə insan idi (Panfiliya Tanailidi-İ.A.). Şəxsən mənə arxa olub. Onun "ifşası" üçün indiki nəslə gülünc görünən bəhanə tapdılar. Hələ Ülvi Rəcəb və Abbasmirzə Şərifzadə tutulmamışdan əvvəl Panfiliya məşqə bir qutu İran papirosu gətirdi. Dedi ki, Göyərşin xanım verib (Göyərçin xanım professional səhnəyə çıxan ilk azərbaycanlı qadındır. SSRİ xalq artisti Mirzağa Əliyevin inqilabdan əvvəl həyat yoldaşı olub. Sonrakı taleyi elə gətirib ki, İran vətəndaşı olan yüksək vəzifəli bir adama ərə gedib və İrana köçüb. Həmin siqareti də İrandan Polşaya gedərkən yolüstü Bakıda P. Tanailidiyə bağışlayıb). Siqareti hamıya paylayıb dedi ki, gün o gün olsun ki, Təbrizə yollar açılsın. Bizim də bir "bazarımız"-qastrola getməyə yerimiz olsun, yoxsa ki, Biləcəridən oyana keçə bilmirik.

Yeri gəlmişkən deyim ki, Tanailidi Göyərçin xanımla yaxın idi. Hələ inqilabdan əvvəl bir yerdə çıxış edib, qastrol səfərində olublar.

Ülvi Rəcəb, Abbasmirzə Şərifzadə tutulandan sonra Panfiliya ətrafında söz-söhbət gəzməyə başladı. Bir gün dedilər ki, onun "mühakiməsi"dir. Onu cəmi iki artist, onlarda şəxsi münasibətlərinə görə, "günah"landırmağa başladılar. Biriylə ailə münaqişəsində idi, digərinin isə onun rollarında gözü vardı. Dedilər ki, guya azərbaycanlıları gözü götürmür. Xarici malları tərifləyir (Yuxarıdakı, adı çəkilən siqareti nəzərə tuturdular). Bir də Abbasmirzə Şərifzadəyə qardaşından göndərilən məktubu o, Göyərçin xanımdan alıb gətirib.

Ümumiyyətlə, bu iclasların rəyasət heyətində oturanlarla salonda oturanlar arasında "müharibə" gedirdi. Amma kim idi bu müharibələrə baxan. Kamilov adlı aktyor var vardı. Həmişə rəyasət

heyətinin tərəfini saxlayırdı. Cavahir də çalışırdı ki, aktyorları müdafiə etsin. Xüsusilə də Tanailidini.

Onun kimi böyük sənətkar az-az tapılar. “Almaz”da Fatmanisə roluna möhür vurmuşdu. Ondan sonra bu rolu oynayanların əksəriyyəti onu təkrar edirdi. Çırt çubuq çəkməyini görəydiniz. “Yaşar”da Şərəbanı rolu da ondan geri qalmırdı. Mənimlə “Romeo və Cülyetta”da çıxış edib. O zaman mən Çülyetta rolunu oynayırdım, o isə dayə rolunu. Onun yumorostik, zarafatcıl dayəsi həmin tamaşada mənə atamdan, anamdan yaxın idi. Ondan sonra həmin tamaşa zəiflədi. Mənim üçün də Cülyettanı oynamaq çətinləşdi. Çünki həmin dayəni mən görmürdüm.

Şəmsi teatrdan çıxarılanda Panfiliya haqqında heç bir söhbət getmirdi. İçəri şəhərdə bizimlə qonşuluqda yaşayırdı. Hər axşam heç kim görməsin deyə, pəncərədən içəri Şəmsi üçün papiros atırdı.

Şəmsinin qardaşı Sərvər Universitetdə oxuyurdu. Mühazirəçilərdən biri Trotskini tənqid edəndə, sual verib ki, deyin, onun səhvləri nədən ibarətdir? Elə bu suala görə onu tutdular. Şəmsi də oldu “xalq düşməni”nin qardaşı.

Fatma Qədrinin isə o vaxt ərini tutmuşdular. Daha doğrusu, neçə il idi ki, o, ərindən boşanmışdı (onun keçmiş əri Əsəd Axundov mənim dayım idi. Təhlükəsizlik komitəsində, yüksək vəzifədə işləyirdi).

Yaxşı yadımdadır. O zaman bu sənətkarların “ifşa”sı ilə əlaqədar iclasda Şəmsi haqqında bir də dedilər ki, onun xaricdə qohumu var. Axı onun ana tərəfi Qacarlardan idi.

Mirzağa Əliyev bizə həmişə zarafatca deyərdi ki, mənim qarnımda Nikolay piyi var. Bir də inqilabdan qabaq baş vermiş bir hadisəni danışardı. O vaxt hardasa qastrolda olarkən hava soyuq olduğundan tamaşadan qabaq rekvizitdə olan zabit paltarını əyninə geyir (bu əhvalat 1906-cı ildə Sabunçuda baş verib. M. A. Əliyev “Xor-xor” tamaşası üçün hazırlanmış zabit paltarını əyninə geyib). Elə bu zaman qorodovoy gəlib bildirir ki, policmeysterin əmri ilə tamaşa təxirə salınır. Bu zaman Mirzağa Əliyev əynindəki zabit paltarının çini polismeysterin çinindən yüksək olduğundan, özünü

həqiqi zabit kimi qələmə verərək, qorodovoyun üstünə qışqırır. Bildirir ki, onun göstərişi ilə polismeysterin əmri ləğv olunur. Qorodovoyun özünə isə göstəriş verir ki, binanın qarşısında nizam-intizama göz gəzdirsin. Dediyim Kamalov adlı aktyor hər iki dəlildən Mirzağanın əleyhinə istifadə etdi. Çıxışında göstərdi ki, o zabit paltarı geyməsi, qarnında Nikolay piyi olması ilə öyünür.

Möhsün Sənanini isə onda günahlandırırdılar ki, xarici konsulun qonaqlığında masabəyi olub. Yadımdadır, Fatma Qədri hətta iclasda dedi ki, axı, mənim keçmiş ərim indi ailə qurub. Onun qanuni həyat yoldaşı Tamara adlı bir qadındır. Amma kim idi onların bu sözlərinə baxan.

Biz Şəmsi ilə maddi cəhətdən o qədər əziyyət çəkmirdik. Qohumlarım bizə xəlvəti kömək edirdilər. Çətinlik başqa cəhətdən idi. Şəmsi o biri qardaşları qorusun deyə ata evi ilə əlaqəni kəsmişdi. Teatrda ab-hava dəyişmişdi. Bəziləri mənə aşıq-aşkar-biz xalq düşməninin arvadı ilə işləmirik,-deyə söz atırdılar. Mən də borclu qalmırdım. Yenə köməyimə Süleyman Rüstəm çatırdı. Çağırıb təsəlli verib deyirdi ki, yalvarıram, heç kimə cavab vermə.

Fatma Qədri və Mirzağa Əliyevin vəziyyəti daha ağır idi. Yadımdadır, həmin vaxtlar Şəmsi ilə kitab pasajına daxil olmaq istəyirdik. Uzaqda Fatma Qədrini gördüm. Şekspirin əsərini məhcərə qoyub, müştəri gözləyirdi. Tez geri döndük ki, bizi görüb utanmasın. Hansını deyəsən, heç bilmirəm... Rejissor da “Pəri cadu”da rolu burnumdan tökürdü. Hər dəqiqə ehkam vurub deyirdi ki, bəlkə o rolu sən oynadın?

Həmin dövrdə zamandan istifadə edib öz şəxsi intiqamını alanlar, xırda hisslərlə yaşayanlar da az deyildi. Yenə günlərin bir günü Cavahir mənə dedi ki, Şəmsini tutacaqlar. Sən demə onunla pis münasibətdə olanlar belə bir saxta məktub düzəltmişlər ki, guya “Yeni yol” qəzetinin keçmiş əməkdaşı, o zaman “xalq düşməni” kimi həbs olunan İsmayıl Abdullayev Şəmsiyə məktub yazmış, onu və yoldaşlarını möhkəm olmağa çağırmışdır. Hətta xüsusi maddədən-yazı silən məhluldan istifadə olunmuşdur.

Şəmsini qurtarmaqçün yollar axtarmağa başladıq. S. Rüstəm də işə qoşuldu.

O zaman opera teatrında Xristafor Martınoviç Arutyunov adlı direktor müavini işləyirdi. Qirqoryanla da münasibətləri yaxşı idi. Operada "Şah İsmayıl"ın tamaşalarının birində xəbər tutduq ki, Qirqoryan tamaşaya baxacaq. Süleyman Rüstəm bütün əhvalatı, teatrdan qovulan işçilərin günahsız olmalarını Arutyunova danışmışdı. Şəmsi üçün düzəldilmiş məktub isə ağ yalan idi. Özü də ayrı-ayrı adamlar tərəfindən təşkil olunmuşdu.

Qriqoryan razı olmazdı ki, onun görəcəyi işləri başqaları yerinə yetirsin.

Nə isə o axşam Qriqoryanla həm Arutyunov, həm də Süleyman Rüstəm baxmayaraq ki, o zaman belə söhbət özü də risk idi, xeyli söhbət etdilər. Bir necə gündən sonra Şəmsi də, Mirzağa Əliyev də, Fatma Qədri də, Möhsün Sənani də teatra bərpa olundu".

Göründüyü kimi bütün bu faciələr teatrın divarları arasında qalmadı, tez bir zamanda xalq arasında yayıldı. Tamaşaçı Abbasmirzə Şərifzadənin-Hamletini, Elxanını, Səyavuşunu; Ülvi Rəcəbin-Romeosunu, Otellosunu, Aqşinini; Panfiliya Tanailidinin-Fatmanisəsini, Şərabanısını, dayəsini bir daha görə bilmədi. Nə idi bunun səbəbi? Sapı özümüzdən olan baltalar.

Aktyor yoldaşları isə onların böyük sənətini öz ifaları ilə tamaşaçılara göstərirdilər. Bəs Barat xanım Şəkinskaya necə... Bu faciəli illərdən sonra o, səhnədə nə sağını, nə solunu, nə də arxasını gördü. O, Abbasmirzənin ağıllı məsləhətlərini eşitmədi, səhnədə öz sevgilisi üçün canından keçən Romeo-Ülvi Rəcəbin böyük məhəbbətini duymadı, doğma ana kimi qayğı göstərən Panfiliya Tanailidinin nəvazişini hiss etmədi. Lakin buna baxmayaraq Barat Şəkinskaya ruhdan düşmədi, vurğunu olduğu sənətində tapdanmış cığırla getmədi, özünə yeni yol açdı və neçə-neçə aktrisalarıda öz arxasınca apardı.

# V FƏSİL

## AKTRİSA YARADICILIQ ZİRVƏSİNDƏ

*Barat Şəkinskaya teatr sənətində bir epoxadır.*

***fəlsəfə doktoru*** **İmran Axundov**

B. Şəkinskayanın yaradıcılığında Qərbi Avropa dramaturgiyası mühüm rol oynamışdır. O, bu mükəmməl əsərlərdə müxtəlif səpgili qadın obrazları yaratmış və tamaşaçıların zövqünü oxşamışdır.

1939-cu il aprel ayının 17-də teatr Məşhur fransız yazıçısı Onore de Balzakın "Ögey ana" əsərini Mikayıl Rəfilinin tərcüməsində A.A. Tuqanovun quruluşunda tamaşaya qoydu. Bu tamaşada kiçik yaşlı oğlan olan Napoleon (Napoleon Bonapartın uşaqlıq dövrü) obrazını B. Şəkinskaya ifa etdi. Bu Barat xanımın Tiltildən ("Göy quş") sonra ikinci oğlan rolu idi. Beləliklə, B. Şəkinskaya Azərbaycan teatr tarixinə ilk travist (oğlan və kişi rollarını ifa edən aktrisa) aktrisa kimi daxil oldu.



*B.Şəkinskaya – Napoleon rolunda*

Aktrisanın ifasında Napoleon dəcəl, çevik, son dərəcə çılğın bir uşaq idi. İyirmi dörd yaşlı yetkin bir aktrisanın oğlan uşağını yüksək məharətlə ifa etməsi B.Şəkinskayadan son dərəcə böyük is-

tedad və gərgin əmək tələb edirdi. Azərbaycan səhnəsində canlanma yaradan bu tamaşa Barat xanımın ən böyük uğurlarından biri idi.

1939-cu il dekabr ayının 30-da Səməd Vurğunun ikinci mənzum dramı olan “Xanlar” A. İsgəndərovun quruluşunda tamaşaya qoyuldu. Bu tamaşada B. Şəkinskaya Muxdar bəyin ögey qızı, Xanların sevgilisi Mehriban rolunu ifa edirdi. Aktrisanın ifasında Mehriban obrazı incə, səmimi bir qız idi. Tamaşaçı B. Şəkinskayanın ifasında Mehribanın təmiz məhəbbətinə inanırdı. Tamaşanın birinci şəklində Barat xanım, Xanlar-Ələsgər Ələkbərova, Qızyetər-Mərziyə Davudovaya layiqli tərəfmüqabili olmuşdur. B. Şəkinskayanın Mehribanı sevgilisi Xanlarla görüş səhnələrində son dərəcə təbii və inandırıcı idi.

M.Hüseyn “Xanlar” tamaşası haqqındakı məqaləsində Barat Şəkinskaya və Sona Hacıyevanın ifa etdiyi Mehriban rolu haqqında yazır ki; “Mehriban rolunda Baratla Sonanı da qeyd etmək lazımdır. Hər ikisi rolunu düzgün anlamış və düzgün də ifa edir. Sonanın ümumi nöqsanı (müəyyən dərəcədə quruluğu) burada da özünü göstərməkdədir. Barat son monoloqunu böyük bir həyacanla ifa edir. Ümumiyyətlə həm Sonada, həm də Baratda bu gözəl qız obrazı müvəffəqiyyətlidir”.

Barat xanım Mehriban obrazını ifa etməklə Azərbaycan qızlarının ümumiləşdirmiş surətini yaratmışdır.

B. Şəkinskaya 1939-1940-cı illərdə Məcid Zeynalovun quruluşunda M. Hüseynin “Şöhrət” pyesində Dürdanə (14.04.1939), Ə. Şərifovun quruluşunda Ə.Haqverdiyevin “Pəri cadu” faciəsində Pəri (27.05.1940), İ. Hidayətzadənin quruluşunda S. Rüstəmin “Qaçaq Nəbi” mənzum dramında Çimnaz (26.09.1940) rollarını ifa etmişdir.

1940-cı il oktyabr ayının 10-da Ə. Şərifovun quruluşunda M. H. Təhmasibin “Bahar” pyesi tamaşaçılara təqdim olundu. Bu tamaşada B. Şəkinskaya Bahar rolunu ifa etdi. Aktrisa gənc azərbaycanlı qızını, bəstəkar Baharı özünə məxsus sənətkarlıqla ifa edirdi.

B. Şəkinskayanın ifasında Bahar sadə, mehriban, nəcib, qayğıkeş və təvazökar idi. Barat xanımın Baharı qayğılarla əhatə olunmuş mehriban, ismətli bir qızdır. Bahar-Şəkinskaya yaratmaq,

zəhmətə qatlaşmaq və bu zəhmətdən böyük zövq almaq onun üçün istirahətə çevrilmişdir. O, Baharın sonrakı həyatını yəni kor olduğu səhnələri çox böyük sənətlkarlıqla ifa edirdi. Bahat-Şəkinskaya kor olduqdan sonra da yaradıcılıqdan soyumur, əksinə özü üçün yeni yollar axtarmağa çalışırdı.

Son dərəcə orijinal sənətkar olan Barat Şəkinskaya faciə və müasir pyeslərdə obrazlar yaratmaqla yanaşı, komediya əsərlərində də yaddaşlara həkk olunan komik rollar yaratmışdır.

Aktrisa ifa etdiyi rol üçün cizgilər tapmağa çətinlik çəkmirdi, öz ifasında şit hərəkətlərə yol vermirdi, əksinə oynadığı komik obraz ilə tamaşaçını düşündürməyə çalışırdı.

Bu baxımdan 1941-ci il yanvar ayının 23-də A. İsgəndərovla, Ş.Bədəlbəylinin quruluşunda səhnəyə qoyulan S. Rəhmanın "Xoşbəxtlər" komediyası maraqlıdır.



*"Xoşbəxtlər" tamaşasından səhnə. Sağdan: Gülər – B.Şəkinskaya, İnci – SSRİ xalq artisti H.Qurbanova*

S. Rəhmanın "Toy"dan sonra ikinci komediyası olan "Xoşbəxtlər"də B. Şəkinskaya Gülər obrazını ifa etmişdir. Aktrisa bu tamaşada Mirzağa Əliyev, Mustafa Mərdanov, Möhsün Sənani kimi böyük sənətkarlarla tərəf müqabili olmuş və onun ifa etdiyi Gülər bu aktyorların yanında kölgədə qalmamışdır. Barat xanım Gülər obrazı ilə tamaşaçıların yaddaşında dərin iz buraxmışdır.

M. Hüseyn yazır ki; "Gənc aktrisalardan Barat (Gülər), Hökümə (İnci), Əminə (Maral) öz rollarını əvvəldən axıra qədər

böyük bacarıqla oynayırlar. Baratın, Hökümənin və Əminənin aktyor sənəti sahəsində belə sürətlə boy atmasında, köhnə teatr ştamplarına qarşı inadla vuruşan və aktyorların istedadından maksimum istifadə etməyi bacaran Adil İsgəndərovun böyük xidməti olmuşdur. "Xoşbəxtlər" komediyasında gənc qadınların lirik və məlahətli obrazlarını yaradan Barat və Hökümə əvvəlki rollarına nisbətən çox inkişaf etmişlər".

C. Cəfərov "Azərbaycan Dram Teatrı" (1959) adlı kitabında yazır ki; "Baratın oynağı Gülər cürətli və qətiyyətlidir. O, özünün qüvvətli olduğunu bilir və buna sevinir; hətta bəzən özünü həqiqətdə olduğundan daha qüvvətli bir qadın kimi göstərməyə meyl edir. O, ciddi və amiranə danışır, daxilən peşman olub əzab çəkən və ağlayan Gülər-Barat zahirdə özünü sarsılmaz göstərir ki, bu da incə, lirik, mülayim gülüşə səbəb olur...



*B.Şəkinskaya – Kordeliya rolunda*

Aktrisalardan H. Qurbanova (İnci) və B. Şəkinskaya (Gülər) qabarıq fərdi xüsusiyyətləri ilə fərqlənən, lakin xarakterləri etibarı ilə bir-birinə yaxın olan iki gənc azərbaycanlı qadının surətində incə və səmimi duyğuların gözəlliyini ifa edirlər".

M. Mərdanov (1959) yazır ki; "Barat Şəkinskaya Gülər obrazını böyük ustalıqla yaratmışdır".

B. Şəkinskaya Gülərin daxili aləmini düzgün açmış və bənzərsiz ifası ilə tamaşaçıları sevindirmişdir.

Müharibə başlanmazdan əvvəl teatr 1941-ci ilin aprel ayının 24-də V. Şekspirin qüdrətli qələmindən çıxmış M. İbrahimovun tərcümə etdiyi "Kral Lir" faciəsini Aleksey Qripiç tamaşaya qoydu. Cəmi on

dəfədən bir az artıq oynanılan bu tamaşada Lir rolunu SSRİ xalq artistləri Sidqi Ruhulla və Ələsgər Ələkbərov, Lirin kiçik qızı Kordeliya obrazını Barat xanım ifa edirdi.

B. Şəkinskaya xatirələrində yazır ki; "Böyük alimimiz Mustafa Topçubaşov bu tamaşanın bir gecəsini belə ötürməmişdi. Tapşırmışdır ki, "Kral Lir"in bütün tamaşalarına onun ailəsi üçün bir loja saxlanılsın. O, bu tamaşa haqqında heyranlıqla danışardı. Təəssüf ki, müharibə başlandı (bu tamaşanı 1941-ci il aprelin 24-dən müharibə başlayan günə qədər 13 dəfə oynadıq). Bununla da tamaşanın ömrü qurtardı... Onu repertuardan çıxartmaq üçün min bir qısqanclıq, sənət qısqanclığı göstərdilər: "Tamaşa gec qurtarır", "Belə ağır gündə bu əsərin yeri yoxdur"... və s."

Cülyettadan sonra B. Şəkinskaya Şekspirin ikinci qəhrəmanını-Kordeliyanı ifa etdi. Lirin üçüncü qızı olan Kordeliya Barat xanımın obrazlar qalereyasının ən parlaq incilərindəndir. Aktrisa Kordeliyanın sədaqətini, nəcibliyini, mehribanlığını çox gözəl əks etdirmişdir.

M. Rəfili "Bakinski raboçi" qəzetində (21.05.1941) yazır ki; "Tamaşanın müvəffəqiyyətli surətlərindən biri Barat xanımın ifa etdiyi Kordeliya roludur. O, rolun daxili aləmin, gəncliyin, səmimiyyətin, fədakarlığın, övlad məhəbbətin çox incəliklə açıb".

C. Cəfərov "Kral Lir" tamaşasındakı Sidqi Ruhulla və Barat Şəkinskayanın ifa etdiyi obrazlar haqqında yazırdı; "Lirin Kordeliya ilə görüşdüyü səhnə ən qüvvətli və həyacanlandırıcı səhnələrdən biri idi. Sidqi və Barat bu səhnəni dərin məna və ifadə qüvvəsi ilə oynayırlar".

A. Kazımov "Gənc işçi" qəzetində (24.04.1941) qeyd edir ki; "... Barat nisbətən gənc qüvvədir. Bir neçə il bundan əvvəl Cülyetta rolunda səhnəmizdə çıxış edən bu gənc artistkanın inkaşafında da Şekspir obrazlarının böyük təsiri olmuşdur. İndi isə Barat, Şekspirin yaratmış olduğu qadın obrazlarının ən görkəmlilərindən biri olan ağıllı, qürurlu və məlahətli Kordeliya rolunda çıxış edir".

M. S. Əfəndiyev "Kommunist" qəzetində (16.05.1941) yazır ki; "Saf qəlbli, zərif və hərəkətlərində cəsarətli Kordeliya rolunu

oynayan ... Barat hər tamaşadan-tamaşaya artan bir sənətkar olduğunu bir daha sübut etdi. Barat, Kordeliyanın mürəkkəb xarakterini qarşımızda çox dərin, sakit və qəşəng aşkar edə bildi”.



*“Kral Lir” tamaşasından səhnə.*
*Lir – SSRİ xalq artisti S.Ruhulla,*
*Kordeliya – B.Şəkinskaya,*

Atasını dərin məhəbbətlə sevən Kordeliya-Barat xanım onun bütün acı sözlərinə dözürdü və həmişə ona kömək etmək istəyirdi. Tamaşanın axırlarında Lir xəstə olur. Kordeliya-Şəkinskaya ona göstərdiyi nəvazişi, qayğını tamaşaçı uzun zaman unuda bilmirdi.

Bütün bu deyilənlərdən sonra belə qənaətə gəlmək olar ki, Kordeliya obrazı Barat Şəkinskayanın dünya dramaturqlarının əsrlərində sevə-sevə yaratdığı obrazlar içərisində ən yüksək zirvəyə çatmış sənət nümunəsidir.

Görkəmli səhnə ustası olan B. Şəkinskayanın yaradıcılıq imkanları böyük idi. Onun sənətinin geniş diapazona malik olması ifa etdiyi obrazlardan aydın görünürdü. Bu bənzərsiz sənətkar hər bir

rolu ən xırda detalına kimi elə açırdı ki, ona inanmamaq mümkün olmurdu.

B. Şəkinskaya keçmiş və müasir mövzularda müxtəlif xarakterli obrazlar yaratmışdır. Aktrisa 1941-1945-ci illərdə M. Hüseynin tərcümə etdiyi, Səftər Turabovun tamaşaya qoyduğu Konstantin Simovun "Vətən oğlu" ("Bizim şəhərli oğlan") tamaşasında Varya (27.09.1941), R. Təhmasibin quruluş verdiyi M. İbrahimovun "Madrid" tamaşasında (A. İsgəndərov tərəfindən bərpa və yenidən işləndi) Aida (24.01.1942), M. H. Təhmasibin Ə. Şərifovun quruluşunda tamaşaya qoyduğu "Aslan yatağı" pyesində Lena (28.03.1942), Zeynal Xəlilin S. Turabovun səhnəyə qoyduğu "İntiqam" mənzum dramında Nataşa (16.05.1942), A. İsgəndərovun quruluşunda M. İbrahimovun "Məhəbbət" dramında Hürü (31.10.1942), S. Turabovun quruluşunda C. Cabbarlının "Almaz" pyesində Almaz (10.01.1943) rollarda çıxış etmişdir.

K. Siminovun "Vətən oğlu" tamaşasındakı B. Şəkinskayanın ifa etdiyi Varya obrazı haqqında "Ədəbiyyat və incəsənət qəzeti (01.10.1941) yazır ki; "Varya rolunda Barat Şəkinskaya özünü çoxtərəfli talanta malik olan bir aktrisa kimi göstərdi. Barat şıltaqlığında mahir olduğu qədər, lirik səhnələrdə də olduqca təbii, səmimi və valehedicidir".

1942-ci il mayın 16-da, müharibənin ağır günlərində Z. Xəlilin "İntiqam" mənzum dramı tamaşaya qoyuldu. Quruluşçu rejissor Səftər Turabov bu tamaşada B. Şəkinskayanı Sidqi Ruhulla ilə tərəf müqabili etmişdir. Aktrisa özü bu haqda belə yazır; "1942-ci ildə Sidqi Ruhulla ilə biz Zeynal Xəlilin "İntiqam" pyesini işləməyə başladıq. Pyes Vətən müharibəsində, Ukrayna partizanlarından bir qrupu haqqında mənzum dastan idi. O, Taras, mənsə onun qızı Nataşa rollarını məşq edirdik... Sidqi Ruhulla ilə oynadığın "İntiqam" tamaşasındakı hər səhnənin mənim üçün böyük əhəmiyyəti vardır. Bir hadisə heç yadımdan çıxmaz:

Quruluşçu rejissor Səftər Turabovun tamaşada belə bir səhnə mizanı var idi. Faşistlər ata-bala bizi quyunun çarxına bağlayıb çəkməli idilər. Əsl çarxa Sidqi Ruhullanı bağladılar. Mən isə

yalandan dartınmalı idim, guya məni də bağlayıb çəkirlər. Razılaşmadım. Axı, Sidqi müəllim hara, mən hara? Mübahisə, inciklik, heç bir şey məni yumşaltmadı, axırda tənəffüs elan etdilər. Qayıdıb mən deyən kimi məşq etdim. İş qurtarandan sonra Sidqi müəllim məni öpüb dedi:-Sağ ol, qızım. Sənətdə heç vaxt güzəştə getmə! Adət edərsən...”

B. Şəkinskaya Nataşanın özünəməxsus təbiliyini real vəziyyətdə tamaşaçıya çatdırırdı. Aktrisanın ifasında Nataşa müharibədən sonra azad gələcəyə böyük inamla baxan rus qızı idi:

*Mənim də qəlbimdə çoxdur arzular,*
*Hər vuran ürəyin bir dünyası var.*
*Düzdür, qabaqdadır ömrün ləzzəti.*

Nataşa-Şəkinskaya Saşanı böyük bir eşq ilə sevir və bu ayrılığa dözə bilmirdi:

*Elə danışmağa yaxşı dilin var,*
*Diddi ürəyimi, yedi intizar!*

Barat xanım səhnədə Nataşanı ifa edərkən bizim yol gözləyən gəlinlərin ürəyinə təskinlik verərək, onların dərdini unutdurmağa çalışırdı.

Tamaşanın ən maraqlı yerlərindən biri də Nataşa-Şəkinskayanın Taras-Sidqi Ruhulla ilə olan səhnəsi idi. Bu səhnədə Taras ilə Nataşa hündür bir ağacın budağından sallanmış iki kəndirin altında dayanırdılar. Nataşa-Şəkinskaya bu səhnəni elə oynayırdı ki, S. Ruhulla kimi böyük sənətkarın yanında onun ifası gölgədə qalmırdı və tamaşaçılar tərəfindən alqışlarla qarşılanırdı.

Beləliklə, aktrisanın yaratdığı Nataşa obrazı unudulmaz obrazları içərisində özünə layiqli yer tutdu və tamaşaçılar tərəfində yüksək qiymətləndirildi.

1943-cü il yanvar ayının 10-da teatr C. Cabbarlının “Almaz” əsərini S. Turabovun quruluşunda tamaşaçılara yenidən təqdim etdi. Almazın kamil ifaçısı kimi ad qazanmış Sona Hacıyevadan sonra bu obrazı ifa etmək Barat xanımdan böyük məsuliyyət tələb edirdi. Bu tamaşada iki Almaz ifa edən aktrisa var idi. Barat Şəkinskaya və ona dublyor Sona Hacıyeva. Barat xanım Almazı az oynadı,

təxminən üç ay. B. Şəkinskayanın Almazı təhsil görmüş, kəndə qayıtmış müəllimə idi. Kəndəki köhnə mühit və adətlər onu narahat edirdi. O, kənddə tərəqqinin tərəfdarı idi. Bu da orda yaşayan köhnə fikirli insanları qane etmirdi. Almaz-Şəkinskaya arzularının həyata keçməyi üçün mübarizə aparırdı. Buna görədə Almaz ciddi maneələrlə qarşılaşırdı. Barat xanımın ifasında Almaz mərd, yolundan dönməyən, mübarizəni sona qədər aparmağı bacaran əsl Azərbaycan qızı idi.

Barat xanımla söhbət edərkən adama elə gəlirdi ki, o, aktrisa olmaq üçün dünyaya gəlmişdir. O, fəaliyyət göstərdiyi illərdə müxtəlif teatrlarda çalışmış və öz həmkarlarına əlindən gələni əsirgəməmişdir.

***

1943-1944-ci illərdə Akademik Milli Dram Teatrının bəzi aktyorlarını tamaşa oynamaq üçün Gəncəyə göndərmişdilər. Gəncə teatrının və xüsusilə Mehdi Məmmədovun təkidi ilə Barat Şəkinskayanı iki illik həmin teatra apardılar. Çünki bunun tamaşaçı axınana böyük təsiri ola bilərdi.

B. Şəkinskaya Gəncə teatrına gələndə repertuardakı bəzi tamaşalarda (M. Məmmədovun quruluşunda S. Vurğunun "Vaqif" mənzum dramında Xuraman, M. H. Təhmasibin "Bahar" pyesində Bahar; Həsən Ağayevin quruluşunda M. İbrahimovun "Məhəbbət" dramında Hürü, S. Vurğunun "Fərhad və Şirin" mənzum dramında Şirin) bir neçə əsas rolları hazırlayıb yaradıcı heyətə daxil oldu. Teatrın qastrolu zamanı A. Şirvanzadənin "Namus"əsərində Süsən və C. Cabbarlının "Yaşar" pyesində Yaqutu tez bir zamanda ifa etdi.

B. Şəkinskaya 1943-1944-cü illərdə Gəncə teatrında Mehdi Məmmədovun quruluşunda Lope de Veqanın "Nə yarıdan doyur, nə əldən qoyur" ("Bağban iti") komediyasında Diana; M. Hüseynin "Nizami" əsərində Afaq; R. Təhmasibin quruluşunda R. Rzanın "Vəfa" pyesində İntizar, Ülkər; M. Məmmədovun quruluşunda M. Hüseyn və İ. Əfəndiyevin "İntizar" dramında Gülyaz; Arkadi

Qaydarın “Timur və onun komandası” əsərində Timur; N. Filippovanın “Partizan Kostya”sında Kostya; H. Ağayevin quruluşunda M. F. Axundovun “Hacı Qara” komediyasında Sona xanım rollarını ifa etdi.

1943-cü il may ayının 22-də B. Şəkinskaya Lope de Veqanın “Bağban iti” pyesində Diana rolunu tamaşaçılara təqdim etdi. C. Cəfərov Mehdi Məmmədov haqqında yazdığı “Rejissor sənəti” (1969) kitabında çox gözəl qeyd edir ki, “Barat Kirovabadda (İndiki Gəncə-İ.A.) işləyəndə teatr Lope de Veqanın “Bağban iti” pyesi üzərində işləyirdi. Tamaşaların birində məlum oldu ki, aktrisa Solmaz xəstələnib. Onda Baratı-Diananı baş rolu oynamağa çağırdılar. Əsərin mətninin yarısı Diananın idi. Mehdi özü ona sufliyorluq etməli oldu. Baratın hazırlıqsız oynadığı bu rol hamının təcübünə səbəb oldu. Bə o bu çətin rolu çox gözəl oynadı. Çünki bu rol Baratın cəldlik, çeviklik və temperamentinə çox yaxın idi. Və Barat, Solmaz xanımla bərabər bu rolun ifaçısı oldu”.

1943-cü il Gəncə teatrının yaradıcılıq illərindən biri idi. Müxtəlif əsərlərlə tamaşaçıları sevindirən tamaşalar arasında M. Hüseynin “Nizami” pyesinin səhnədə göstərilməsi tamaşaçı axınına səbəb olmuşdur.

Qəribədir ki, paytaxt teatrından təxminən bir il sonra Gəncə teatrı “Nizami”əsərinə mürüciət etmişdilər. Barat Şəkinskaya Gəncə teatrında Nizaminın ömür-gün yoldaşı Afaqı ifa etdi.

İ. Kərimov yazır ki; “Həmin dövrün ən yaxşı tamaşalarından olan “Nizami”də (rejissor M. Məmmədov, rəssam S. Hacıyev) məhəbbət, vətənə, xalq səadətinə bağlılıq üzvi vəhdətdə canlandırılmışdır. Bütün tamaşa boyu bu iki xətt bir-birini tamamlayır, əsərin ideya-emosional məzmununu qüvvətləndirirdi. Möhkəm ansamblda çıxış edən aktyorların, xüsusilə Əşrəf Yusifzadə (Nizami), Barat Şəkinskaya (Afaq) və Səməd Tağızadənin (Şirvanşah) ifası çox təsirli idi”.

Tamaşanın ilk səhnələrində Afaq-Şəkinskaya adama elə gəlir ki, bütün qayğılardan azaddır. Lakin sonrakı səhnələrdə Afaqın

xəzərlərlə döyüş səhnəsində Barat xanım azərbaycanlı qızına məxsus mərdliyi tamaşaçıya göstərirdi.

Aktrisanın ifasında Afaq Nizamini böyük məhəbbətlə sevən bir insandır:

“-Yox, yox sənin öz piyalən zəhərlə də dolu olsa, mən onu şərbət kimi içərəm”.

Beləliklə, B. Şəkinskayanın ifasında Afaq mehriban insan, qardaşını dünyalar qədər istəyən başı və Nizamini hədsiz məhəbbətlə sevən vafalı qadın idi.

1943-cü il noyabr ayının 21-də R. Təhmasibin quruluşunda tamaşaya qoyulan R. Rzanın “Vəfa” pyesində B.Şəkinskayanın ifa etdiyi İntizar maraqlı bir obraz idi.

A. İsmayılova (1977) yazır ki; “... Barat Şəkinskayanın ən müvəffəqiyyətli rollarından biri R. Rzanın “Vəfa” əsərinin tamaşasında İntizardır. Quruluşçu rejissor Rza Təhmasib tamaşanın müvəffəqiyyətində Barat xanımın əməyinə böyük qiymət verirdi. İstedadlı aktrisa bir sənətkar kimi öz yaradıcılıq imkanlarından və realist teatr xadimlərinin gözəl ənənələrindən həmişə bacarıqla istifadə etmişdir”.

1944-cü ildə Gəncə teatrında H. Ağayevin quruluşunda M. F. Axundovun “Hacı Qara” komediyası səhnəyə qoyuldu. Bu tamaşada Barat xanım baş rollardan birini, Heydər bəyin sevgilisi olan Sona xanımı ifa edirdi.

B. Şəkinskayanın ifasında Sona obrazı mehriban, istiqanlı və ağıllı qız idi. Sona-Şəkinskaya üçün cəh-cəlal, var-dövlət mənasız idi. Aktrisanın Sonası ancaq sevmək və sevilmək istəyirdi. Artıq görkəmli sənətkar kimi yüksəlmiş Barat Şəkinskaya müəllifin fikrinə sadiq qalaraq ifa etdiyi Sonanı bacarıqlı bir qız kimi tamaşaçılara sevdirmişdir.

Barat Şəkinskaya bu illərdə Şəmkir Dövlət Dram Teatrında da vaxtaşırı çıxışlar etmiş, “Vaqif”, “Namus”, “Məhəbbət”, “Xoşbəxtlər”, “Aydın”, “Oqtay Eloğlu” tamaşalarında Xuraman, Süsən, Hürü, Gülər, Gültəkin, Firəngiz obrazları ilə tamaşaçıları sevindirmişdir.

A. İsmayılova (1977) yazır ki; "O, (B. Şəkinskaya-İ. A.) obrazların daxili aləmini, xarakterik xüsusiyyətlərini dərindən öyrənərək, rejissorların göstərişlərini və təcrübəli aktyor yoldaşlarının məsləhətlərini diqqətlə dinləyib, onları öz fəaliyyətində tətbiq etməyi bacarmışdır".

Vaxtı tamam olduqdan sonra B. Şəkinskaya Mehdi Məmmədovla birlikdə doğma kollektivinə Akademik Milli Dram Teatrına qayıdır. Bir neçə il paytaxt tamaşaçılarını intizarda qoyan bu mahir sənətkar tamaşaçılarını öz məftunedici ifası ilə yenidən sevindirir.

***

Geniş yaradıcılıq imkanına malik olan Barat Şəkinskaya heç bir ifaçını təkrar etmirdi. Aktrisa yaratdığı obrazların daxili aləmini, psixoloji vəziyyətlərini düzgün dərk edir və böyük sənətkarlıqla tamaşaçılara göstərirdi. Bu baxımdan aktrisanın 1943-cü il oktyabr ayının 1-də Əliheydər Ələkbərovun quruluşunda tamaşaçılara təqdim olunan S. S. Axundovun "Eşq və intiqam" faciəsindəki Qəmər obrazı maraqlıdır (Barat xanım Qəməri Gəncədən qayıtdıqdan sonra 1945-ci ildə ifa etmişdir). Tamaşaçı ilk dəfə Qəmər-Şəkinskayanı görəndə elə bilirdi ki, o, bütün qayğılardan azaddır. Aktrisa Qəməri lirik planda ifa edirdi. Qəmər-Barat xanım qardaşı Çingizə sadiq bacı idi. Tamaşanın final səhnəsində Çingiz dəli kim komadan çıxır (Çingiz rolunu, səhnəmizin böyük sənətkarı, xalq artisti Əjdər Sultanov ifa edirdi). Orada Çingizin Qəmər-Şəkinskaya ilə dialoqu son dərəcə səmimi təsir bağışlayırdı.

1946-cı il aprel ayının 20-də Akademik Milli Dram Teatrı Mehdi Məmmədovun quruluşunda V. Şekspirin "On ikinci gecə" (tərcümə edəni M. İbrahimov) komediyasını tamaşaçılara təqdim etdi. Şekspir ifaçıları kimi geniş şöhrət qazanmış Azərbaycan teatrı bu tamaşada da yaddaşlara həkk olan obrazlar yaratdılar. Həmin tamaşada Barat xanım ən mürəkkəb rollardan birini Violanı (Sezario) ifa edirdi.

B. Şəkinskayanın ifasında Viola A. A. Tuqanovun dili ilə desək xüsusi ilə fərqlənirdi. Görkəmli sənətkar Violanı, saf məhəbbətlə sevən şən bir qız surətini böyük məharətlə yaratmışdır. Viola-Şəkinskaya Orsinoya olan təmiz məhəbbətini sənətkarlıqla səhnədə canlandırmışdır.

Əziz Şərif "Kommunist" qəzetində (24.04.1946) yazır ki; "Tamaşada iştirak edən aktyorlara gəlincə biz Barat Şəkinskayanı xüsusi qeyd etməliyik. Onun ifa etdiyi Biola əsərin canını təşkil edir və gənc aktrisamız bu simanı böyük məharət və həyacanla yaradır. Onun yerişi, hərəkətləri, səsi, bütün ifadə vasitələri məqsədə uyğun və ən yüksək tərifə layiqdir".

Y. Əzimzadə və Z. Nemətov "Azərbaycan gəncləri" qəzetində (25.04.1946) B. Şəkinskayanın bənzərsiz ifası haqqında yazırlar ki; "Əsərdə ən görkəmli, çətin və baş rollardan birini ifa edən ... Barat Şəkinskayanın oyununu xüsusi ilə qeyd etmək lazımdır. Barat, üzərinə düşən ağır və mürəkkəb vəzifəni yaradıcılığına məxsus həssas bir incəlik və ustalıqla yerinə yetirir. Onun Sezario adı ilə oğlan paltarı geymiş Violası keçən illərdə oynadığı Cülyetta və Kordeliya surətlərindən tamamilə fərqlənir. Baratın yaratdığı Viola-bu mələk xasiyyətli, cəsarətli qızın yüksək bədii surəti tamaşaçılarımızın xatirində uzun müddət yaşayacaq".

A. A. Tuqanov "Ədəbiyyat qəzeti"ndə (01.05.1946.) nəşr olunmuş "Yüksək mədəniyyətli tamaşa" adlı məqaləsində yazırdı; "Bu tamaşada Viola obrazını yaratmaq ... Barat Şəkinskayanın öhdəsinə düşmüşdür. Barat, Şekspirin əsərlərində birinci dəfə çıxış etmir. O, "Romeo və Cülyetta"da Cülyettanın unudulmaz obrazını yaratmışdır və "Kral Lir"də Kordeliya rolunu ifa etmişdir.

Barat Şəkinskaya "On ikinci gecə" komediyasında və istedadının bizə məlum olmayan daha yeni cəhətlərini açıb göstərə bildi. Barat, həm qız və həm də oğlan rolu xüsusiyyətlərini daşıyan Viola-Sezario obrazını tamaşanın əvvəlindən axırınadək ustalıqla ifa edir".

Ə. Şərif "İzvestiya" qəzetində (19.05.1946) "Şekspir komediyası Azərbaycan səhnəsində" adlı məqaləsində yazır ki; "B. Şəkinskaya çox rəngarəng səhnə obrazı yaradıb. Şəkinskayanın çox

çevik, temperamentliyi onun tək oğlan donuna girdiyi səhnələrdə deyil, o öz hissləri, dərdi və fikirləri ilə tək-tənha, üzbəüz qalan səhnələrdə də özünü biruzə verir.



*B.Şəkinskaya – Viola (Sezario) rolunda*

Viola-Şəkinskaya çox böyük müvəffəqiyyət qazanıb. B. Şəkinskaya ifasında bu rol, sözün əsl mənasında Şekspir obrazıdı”.

Akademik Milli Dram Teatrı 75 illik yubileyi ilə əlaqədar olaraq 1948-ci il avqust 20-dən-sentyabrın 5-nə qədər Moskva şəhərində qastrol səfərində oldular. Teatr qastrol müddətində altı tamaşa nümayiş elətdirdi ki, bunların içərisində “On ikinci gecə” komediyası da var idi.

M. Morozovun fikirlərini T. Yusifbəyli “Şekspir Əzizbəyov adına teatrın səhnəsində” (1964) adlı monoqrafiyasına daxil edərək göstərir ki; “Özünə məxsus Şekspir surətini yaradan Barat Şəkinskaya fövqəladə müvəffəqiyyət qazanan Viola... sizin yaxşı “Violanız” var! Bu barədə heç bir şübhə ola bilməz! Mən dünyada çox “Viola”lar görmüşəm. Sizin Viola gördüklərim Violaların ən yaxşısıdır”.

M. Mərdanov (1959) yazır ki; “Barat Şəkinskaya Violanın Orsinioya olan məhəbbətini incə cizgilərlə səhnədə canlandırdı. Onun Violası haqqında “İzvestiya”qəzeti belə yazırdı:

“Şekspir komediyası üzərində aparılan səmərəli iş nəticəsində yeni xüsusiyyətlər nümayiş etdirildi. Violla rolunun ifaçısı B. Şəkinskayanı xüsusi qeyd etmək lazımdır. Tamaşaçı onu Cülyetta və Kordeliya kimi rollardan yaxşı tanıyır. Hələ 10 il bundan əvvəl onun yaratdığı Cülyetta obrazı tamaşaçılarda unudulmaz bir təsir

buraxmışdır. Bu dəfə əsil Şekspir obrazı olan Viola canlı, məlahətli, romantik bir varlıqdır” ”.

Beləliklə, Azərbaycan səhnəsinin fəxri sayılan bu görkəmli sənətkar, öz misilsiz ifası ilə tamaşaçı qəlbinə rövnəq vermiş və ifa etdiyi Viola indi də yaşlı nəsil tamaşaçıların yaddaşından silinməmişdir.



*SSRİ xalq artisti S.Obraztsov və B.Şəkinskaya*

1947-1948-ci illərdə B. Şəkinskaya Ənvər Məmmədxanlının “Şərqin səhəri” pyesində Dilarə (rej. A. İsgəndərov., 07.11.1947); A. Fadeyevin “Gənc qvardiya” romanı əsasında Qleb Qrakovun səhnələşdirdiyi eyni adlı əsərdə Lyubov Şevtsova (tərcümə T. Əyyubov, rej. M. Məmmədov., 04.04.1948); Ə. Haqverdiyevin “Pəri cadu” tamaşasında Pəri (üçüncü dəfə ifa etdi, rej. Ə. Şərifov., 07.05.1948); İ. Əfəndiyevin “Bahar suları” dramında Turac (rej. A. İsgəndərov., 11.12.1948) rollarını ifa etdi.

1948-ci ildə Ə. Məmmədxanlının “Şərqin səhəri” tamaşasında səkkiz nəfər Stalin mükafatına layiq görüldü (bu mükafat sonralar SSRİ dövlət mükafatı adlandı-İ.A.). Adil İsgəndərov (rejissor), Nüsrət Fətullayev (rəssam), aktyorlardan Mirzağa Əliyev (Nəcəf bəy), Sidqi Ruhulla (Ağalarov), Mərziyə Davudova (Gülzar), Kazım Ziya (General Tomson), Rza Əfqanlı (Fərhad), İsmayıl Dağıstanlı (Kirov).

Barat Şəkinskaya da bu mükafata layiq görülməli idi. Lakin müəyyən səbəblərə görə ona o dövrün ən yüksək mükafatı verilmədi. Onun səbəbini mən bilirəm. Barat xanım özü mənə danışıb.

Sadəcə burda yazmağa lüzum görmürəm. Deyirdi ki, Dilarə mənim ən yaxşı rollarımdan biridir.

Mən Barat xanım haqqında kitab yazarkən, araşdırma nəticəsində "Şərqin səhəri" tamaşası haqqında rəylər əlimə keçdi. İki rəydə Barat xanımın ifa etdiyi Dilarə obrazına mənfi qiymət verilmişdir. Şübhəsiz ki, bu rəylər kiminsə diqtəsi ilə yazılmışdır. Mən o, rəyləri Barat xanıma oxudum. O da mənə təkid elədi ki, həmin rəyləri kitaba daxil edim. Mən də daxil etdim. Barat xanım rəhmətə gedəndən sonra həmin iki rəyi kitabdan çıxartdım. Düz ya səhv etmişəm deyə bilmərəm...

C. Cəfərov (1951) yazır ki; "Artistka Barat milyoner qızı Dilarə rolunda, burjua aləminin mənəvi eybəcərliyini və pozğunluğunu yaxşı göstərir. O, şöhrətpərəst, boş və xudbin bir qızdır. Sadə, səmimi və dərin sevgi duyğusu ona yabançıdır. Onun Bəhruzla (artist Ə. Sultanov) olan münasibəti boş bir əyləncə, şıltaqlıq və oyundur. Atası ilə bərabər xaricə qaçdıqları səhnədə Dilarə özünü tamamilə ifşa edir".

B. Şəkinskaya Azərbaycan və Qərbi Avropa dramaturqlarının əsərlərində baş rolları ifa etməklə yanaşı rus dramaturgiyasında da mükəmməl obrazlar yaradıb. Bu baxımdan aktrisa A. Fadeyevin romanı əsasında hazırlanmış "Gənc qvardiya" əsərindəki Lyubov Şevtsova son dərəcə maraqlıdır. İlk dəfə 1948-ci ildə aprel ayının 4-də göstərilən bu tamaşada gənclik və qəhrəmanlıqdan bəhs olunurdu.

B. Şəkinskaya "Azərbaycan gəncləri" qəzetində (09.04.1948) "Lyubov Şevtsova mənim ifamda" adlı məqaləsində yazır ki; ""Gənc qvardiya" pyesində Lyubov Şevtsova rolunu ifa etmək şərəfi mənə qismət olmuşdur. Lyubov Şevtsova gənc qvardiya təşkilatının yaradıcılarından biridir. O, ən qorxulu anlarda belə cəsarətlə hərəkət edir. Almanların arxasında gizli işləmək üçün müvəffəqiyyətli üsullar tapır.

Mən bu surət üzərində böyük bir ilham və maraqla çalışmışam və çox sevdiyim bu rolu xüsusi bir tərzdə yaratmağa səy etmişəm.

Lyubov Şevtsova rolunu müvəffəqiyyətlə yaratmaq çətin bir işdir. Bu işdə mənə gənc qvardiyaçıların əziz xatirəsi ilham vermişdir.

Mən bu surətdə gənclərin mərd simasını yaratmağa səy etmişəm".

Onu qeyd edim ki, Mehdi Məmmədovun quruluşunda tamaşaya qoyulan "Gənc qvardiya" əsəri on səkkiz günün içində hazırlanıb, tamaşaçılara təhvil verilmişdir. Bu tamaşa haqqında C. Cəfərov yazır ki; "Gənc qvardiyaçıları oynayan oktyorların hamısı cavan deyildi. Amma rejissor Mehdi Məmmədov deyir ki, bu aktyorların ifasında yaş öz əhəmiyyətini itirir. Xüsusən Barat-Lyubov Şevtsova rolunda".

N. Babayev yazır ki; "Lyuba Şevtsova rolunu ... Barat Şəkinskaya ifa edir. O, vətəni sonsuz məhəbbətlə sevən, şən Lyubanın mürəkkəb surətini doğurdan da böyük məharətlə yaradır".

C. Məmmədov "Azərbaycan gəncləri" qəzetində (09.04.1948) yazır ki; " Lyubov Şevtsova rolunu ifa edən Barat Şəkinskaya daha çox diqqətə layiqdir".

Akademik M. Arif "Kommunist" qəzetində (12.05.1948) yazır ki, "Aktrisa Barat Şəkinskaya Lyubov Şevtsova rolunda özünü nə qədər azad aparır. O, sanki bütün, varlığı ilə bu, hər şeyə qarışan, hər yerdə öz vətəndaşlıq borcunu ödəməyə çalışan, öz vətənpərvərlik məqsədi uğrunda hər cür təhlükəyə gedən cəsur mətin və fədakar qızın ruhuna girmişdir. Ağır işgəncələrdən sonra ölümcül hala gələn Lyuba yenə də öz qürurunu sındırmır".

Görkəmli aktrisa B. Şəkinskaya Lyubov Şevtsovanın sadəliyi, mehribanlığı ilə tamaşaçıda ifa etdiyi obraza qarçı böyük rəğbət qazandırmışdır. O, əldə etdiyi nailiyyətlərə arxayınlaşmadı, öz bənzərsiz ifası ilə tamaşaçıların qəlbini daim riqqətə gətirdi.

B. Şəkinskaya 1949-1952-ci illərdə V. Şekspirin "Otello" faciəsində Dezdemana (tərcümə C. Cabbarlı, rej. A. İsgəndərov, 06.05.1949); Lope de Veqanın "Rəqs müəllimi" əsrində Florela (tərcümə R. Rza, rej. M. Məmmədov, 31.07.1949); S. Vurğunun "Xanlar" mənzum dramında Mehriban (rej. A. İsgəndərov, 21.12.1949); C. Məcnunbəyovun "Böyük məhəbbət" pyesində Tər-

lan (rej. Ə. Ələkbərov, 12.05.1950); V. Lavrenyovun "Amerikanın səsi" əsərində Mariell (tərcümə Ə. Məmmədxanlı, rej. Ə. Ələkbərov, 14.12.1950); C. Cabbarlının "Od gəlini" faciəsində Solmaz (rej. Ə. Şərifov, 20.03.1951); M. H. Təhmasıbın "Çiçəklənən arzular" pyesində Həqiqət (rej. M. Məmmədov, 13.06. 1951); H. Muxtarovun "Ailə namusu" əsərində Yazgül (tərcümə M. İbrahimov, rej. T. Kazımov, 30.10.1951); S. Vurğunun "Vaqif" mənzum dramında Gülnar (rej. A. İsgəndərov, bərpa., 1951); K. Haldoninin "Mehmanxana sahibəsi" komediyasında Mirandolina (tərcümə S. Rəhman, rej. M. Məmmədov, 11.09.1952); S. Vurğunun "Fərhad və Şirin" mənzum dramında Şirin (rej. A. İsgəndərov, 07.10.1952); C. Cabbarlının "Solğun çiçəklər" əsərində Sara (rej. Ə. Ələkbərov, bərpa).



*B.Şəkinskaya – Dezdemona rolunda*

Barat Şəkinskayanın mahir sənətkar kimi yetişməyində, sənətinin bütün incəliklərinə yiyələnməsində, misilsiz aktrisa kimi püxtələşməsində Şekspir dramaturgiyası mühüm rol oynamışdır. Şekspirin "Romeo və Cülyetta" faciəsində Cülyetta, "Kral Lir" faciəsində Kordeliya, "On ikinci gecə" komediyasında Viola rollarını ifa edən bu görkəmli sənətkar "Otello" faciəsində Dezdemonanı ifa etdi. Böyük sənətkarlıqla yaratdığı Dezdemona obrazı ilə tamaşaçıların rəğbətini qazandı.

B. Şəkinskaya xatirələrində ("Azərbaycan jurnalı" №5, 1974) yazır ki; "Adil İsgəndərov, Ələsgər, Əfqanlı və mən demək olar ki, öz axtarışlarımızda eyni nəticəyə gəldik. Pyesin yeni, müasir səslənməsinə birlikdə xidmət etdik. Ələsgər həm də gözəl səsi, daxili ehtirası, boy-buxunu, gözəl görünüşü

ilə qələbə çaldı. Onun Otellosu sovet səhnəsinin yeni qələsi oldu. Mənə elə gəlir ki, Ələsgər kimi rəngarəng sənətkar heç olmayıb”.

Aktrisa Dezdemona rolu haqqında “Kommunist” qəzetində (23.04.1964) çap olunmuş “Dörd parlaq inci” adlı məqaləsində yazır; “Bu dörd incinin üçünün Azərbaycan səhnəsində ilk ifaçısı olduğum üçün özümü xoşbəxt sayıram. Dezdemonanı məndən qabaq Mərziyə Davudova, Sona Hacıyeva, Yeva Olenskaya oynamışlar. Bu üç sənətkarın köməyi ilə məndə özümə məxsus, öz yaradıcılığıma xas olan cizgilərə bu obrazı yaratmağa çalışmışam. Hər aktyorun öz yaradıcılığına yaxın olan, sevib pərəstiş etdiyi dramaturqu vardır. Mənim də qəlbimin ilk sehirkarı Şekspirdir”.

B. Şəkinskaya Dezdemonanı yüksək peşəkarlıqa yaradırdı. Şekspir əsərlərində lazımi qədər təcrübə əldə etmiş bu qüdrətli sənətkar obrazı bədii səviyyəyə qaldıra bildi.

M. Hüseyn “Azərbaycan gəncləri” qəzetində (22.05.1949) yazır ki; “Dezdemona rolunda Barat Şəkinskayanın müvəffəqiyyəti səhnəmizin ən yaxşı qələbələrindən biri sayıla bilər. Kordeliyadan (“Kral Lir”də) sonra bu planda Baratın nə qədər səmimi və lirik tonlar tapdığını görməmək olmaz. Xüsusən Qara Qarayevin yazdığı gözəl musiqilə həmahəng olaraq nəğmə oxuduğu səhnədə Barat öz ifasını həqiqi poetik səviyyəyə qaldırır. O, nəğmə oxumaqdan daha çox ürəyinə daman faciəsinin yaxınlaşdığını xəfif və incə ştrixlərlə göstərir”.

Aktrisa Dezdemona obrazı ilə Şekspir dramaturgiyasının ən kamil ifaçısı olduğunu göstərdi. Aktrisanın yaratdığı bu mükəmməl obrazı tamaşaçılar uzun müddət unutmadılar.

C. Cəfərov “Əzizbəyov adına Azərbaycan Dram Teatrının 75 illiyi” (1949) adlı kitabında yazır ki; “Aktrisa Barat Dezdemonanı ilk dəfə oynayır. Bu çətin bir vəzifə idi. Lakin aktrisanın istedadı yaradıcılığa şüurlu münasibəti və Şekspir rollarını oynamaq təcrübəsi bu vəzifənin öhdəsindən müvəffəqiyyətlə gələ bilməsinə kömək etdi.

Barat öz qəhrəmanını hər iki ruhi vəziyyətdə dərindən duyaraq və sevərək oynayır. O kədərli ikən də, məsud ikən də “mələk

kimi təmiz", "təbiət kimi pak", "kövərçin kimi nazlı" və uşaq kimi həm məsum, həm də şıltaqdır. Barat-Dezdemona da belədir. Onun məhəbbəti böyük bir mənəvi qüvvədir. O, öz varlığı ilə Otellonun mühitini nurlandırır; Dezdemona o qədər gözəl, zəkalı və təmizdir ki, Otello onu sadəcə sevmir, ona müqəddəs bir varlıq, yüksək bir ideal kimi pərəstiş edir. Otellonun "mənim gövərçinim" və eyni zamanda "mənim müharib gözəlim" sözləri Barat-Dezdemonaya çox yaraşır. Gövərçin və müharib! Bu parodoks deyildir, həqiqətdir, çünki "körpə" Dezdemona öz eşqində sabit və qəhrəmancasına fədakardır".



*"Otello" tamaşasından səhnə.*
*Otello – SSRİ xalq artisti Ə.Ələkbərov,*
*Dezdemona – B.Şəkinskaya*

Barat xanımın Dezdemonası şən idi, yumşaq qəlbli idi. Aktrisanın qəhrəmanı Otellonu ürəkdən sevən, ərinin varlığı ilə nəfəs alan bir qadın idi. Aktrisanın Dezdemonasında tamaşaçı onun böyük eşqinə nə qədər məftun olurdusa, faciəsinə bir o qədər kədərlənirdi.

Əli Sultanlı "Kommunist" qəzetində (15.05.1949) yazır; "Şekspirin ən çox sevdiyi surətlərdən biri olan Dezdemonanı bütün varlığı ilə vermək çətindir. Lakin Şəkinskaya bu rolun öhdəsindən

məharətlə gəlmişdir. O, Dezdemonanın həm sevgidə əldə etdiyi qələbə hissini... səadəti, həm də anlaşılmaz faciə qarşısında çəkdyi son iztirabları düzgün verir. Onun boyu, qrimi, geyimi məsum bir qızın xasiyyətinə çox uyğundur".

Z. Xəlil "Ədəbiyyat qəzeti"ndə (15.06.1949) yazır ki; "Barat Şəkinskaya Dezdemona rolunda bir daha göstərdi ki, o, doğrudan da səhnəmizdə Şekspirin qadın surətlərinin talantlı ifacılarındandır. Dezdemonanın-Baratın odlu bir ehrirasla sevən, sadiq, məsum qadın surəti uzun zaman yaddan çıxmayacaqdır".

"Otello" faciəsinin ən təsirli yerlərindən biri də son səhnə idi. Məxmərlə bəzənmiş otaq da Dezdemona şirin röyalara qərq olmuşdur. Otello (Ə.Ələkbərov) əlində şam gəlir, qapıları bağlayır, pillələri enib, "budur səbəb, budur səbəb!" sözləri ilə başlanan məşhur monoloqu söyləyirdi. Dezdemona-Şəkinskaya yuxudan oyanırdı, "kim var orada?" sözlərini elə həyacanla deyir ki, tamaşaçı ölüm dəqiqələrinin yaxınlaşdığını o dəqiqə hiss edirdi. Bu səhnədə Dezdemona-Şəkinskaya özünü müdafiə etmirdi. Sadəcə olaraq həqiqəti deyirdi, əri Otellonun gözünə dik baxırdı. Çünki o, günahsız idi. Onun hər hansı bir kəlməsi Otello da şübhəni daha da artırırdı. Gərgin dialoqlarla gedən bu səhnəni həm Ələsgər Ələkbərov, həm də Barat Şəkinskaya əlçatmaz bir səviyyədə yaratmışdılar.



*B.Şəkinskaya – Florela rolunda*

M. Ovçinnikov yazır ki; "Ələsgər Ələkbərova layiqli Dezdemona Barat Şəkinskayadır. B. Şəkinskayanın Dezdemonası mübariz, cəsarətli, qətiyyətlidir. Bu isə surətə yeni orijinal baxışdır".

Beləliklə, Dezdemona obrazı B. Şəkinskayanın böyük sənətkarlıqla yaratdığı unudulmaz obrazlıarı içərisində ən yüksək zirvəni fəth etmiş mükəmməl sənət nümunəsi idi.



*“Rəqs müəllimi” tamaşasından səhnə. Florela – B.Şəkinskaya, Aldemaro – Ə.Sultanov*

Tamaşadan-tamaşaya, roldan-rola püxtələşən bu bənzərsiz sənətkar görkəmli ispan dramaturqu Lope de Veqanın 1949-cu il iyul ayının 31-də M. Məmmədovun quruluşunda tamaşaya qoyulan “Rəqs müəllimi” (tərcümə R.Rza) komediyasında yoxsullaşmış zadəgan nəslindən olan, həm mahir rəqqas, ehtiraslı aşiq və cəngavər Aldemaronun sevgilisi Florela obrazını özünə məxsus sənətkarlıqla ifa etdi.

Aktrisa xatirələrində yazır ki; “Yadımdadır, biz Lope de Veqanın “Rəqs müəllimi” pyesini hazırlayırdıq. Leninqraddan rəqs müəllimi dəvət etmişdik. O bizimlə gündə 2-3 saat məşqul olurdu. Əjdərin 18, mənim 11 rəqs nömrəmiz var idi. Əjdərin xoreoqrafiya sənəti ilə tanışlığı olduğu üçün bu vaxt ona kifayət edirdi. O, öz boş vaxtlarından istifadə edib, mənimlə əlavə məşqul olurdu. Nəticə də çox gözəl oldu. Biz klassik ispan rəqslərini professional rəqqaslar kimi ifa etdik. Florella mənim çox sevdiyim rollardan oldu”.

M. Hüseyn “Kommunist” qəzetində (12.08.1949) yazır ki; “Florela rolunda Barat Şəkinskayanın məharətini ayrıca göstərmək lazımdır. Aldemaro ilə Florela “Rəqs müəllimi” komediyasının və ümumiyyətlə müəllifin bu mühit içərisində gördüyü əsas müsbət adamlardır. Onlar səhnəyə çıxdığı zaman elə bil ətraf işıqlanır. Saxtakarların bütün çirkin sifətləri daha aydın görünməyə başlayır.

Bu, əlbəttə, iki rəngin-qara ilə ağın kontrastı demək deyil. Hər iki gənc bu mühitin məhsuludur. Lakin bunlar hər adamda başqalarından nə ilə seçilməli, hərəkətlərində səmimiyyət və şuxluq göstərməlidirlər... Xüsusən öz sevgilisi ilə intim söhbətlər zamanı tez-tez "rəqsə başlayaraq" dediyi səhnələrdə təbii və sadə oyunu ilə tamaşaçıda gülüş doğurması və özünə qarşı səmimiyyət oyatması aktrisanın müvəffəqiyyətli cəhətidir".

Dünya səhnəsinin zəngin obrazlarından sayılan Florela Barat xanımın ifasında özünə əbədi məskən salmışdır.

B. Şəkinsaya xarakterik aktrisa idi. O, faciə, komediya və müasir pyesləri ifa etdikdə belə öz yaradıcılıq təravətini itirmirdi, hər dəfə tamaşaçılar tərəfindən rəğbətlə qarşılanırdı. Əlbəttə "Rəqs müəllimi" komediyasındakı Floreladan sonra C. Məcnunbəyovun "Böyük məhəbbət" pyesindəki kəndli qızı Tərlan tamam əks insanlardır. Lakin Barat xanımın ifasında hər iki obraz tamaşaçıya sevilirdi və sənətkarın böyüklüyünə heyran qalınırdı.



*B.Şəkinskaya – Tərlan rolunda*

R. Şahvələd "Kommunist" qəzetində (24.06.1950) yazır ki; "Kənddən Daşkəsənə gələnlərin içərisində sadə kəndli qızı Tərlan da (Barat Şəkinskaya) vardır. Müəllif, rejissor və başlıca olaraq aktrisanın özü bu rolu çox maraqlı mizanda qurmuş və hər səhnədə dəyişən, artan, inkişaf edən bir vəziyyətdə tamaşaçılara çatdırmışlar. Aktrisanın əsas müvəffəqiyyəti ondan ibarətdir ki, bu rol bu vaxta kimi səhnəmizdə gördüyümüz surətlərin heç birinə bənzəmir. Ruhən Turaca ("Bahar suları") yaxın olsa da burada tamamilə başqa bir keyfiyyət vardır. Şəkinskayanın

surət üçün seçdiyi ifadə, danışıq tərzi səmimi və orijinaldır. Onun hətta şən gülüşlərində belə bir sadəlik, şirinlik və məziyyət vardır".

B. Şəkinskaya üçün kəndli qızı Tərlan obrazını yaratmaq o dərəcədə çətin deyildir. Klassik əsərlərdə son dərəcə mürəkkəb obrazlar yaradan bu mahir sənətkar Tərlanı da yüksək səviyyədə ifa etmişdir.

1951-ci ildə S. Vurğunun "Vaqif" mənzun dramında Barat xanım Vaqifin gəlini Gülnar obrazını yaratdı. Aktrisa bu rolu ifa edən günü belə xatırlayır: "-Bir gün məlum oldu ki, Gülnarı ("Vaqif"də) oynayan aktrisaların ikisi də xəstədir. Adil İsgəndərov məni təcili teatra çağırdı və rolu mənə verdi. Bu şərtlə rolu götürdüm ki, Ələsgər Ələkbərov mən səhnəyə çıxana qədər heç bir şey bilməsin. Adil əlacsız qalıb, razı oldu. Xülasə, axşam mənə gəlin paltarı geyindirib, üzümə qırmızı duvaq salıb, qolumdan tutub səhnəyə çıxartdılar. Gətirib orta pilləkəndə dayandırdılar. Vaqif (Ə. Ələkbərov) mənə yanaşıb "A qızım, üzündən götür duvağı, qoy açıq görünsün ayın qabağı..." deyib duvağı üzümdən götürdü... Mat qaldı. Bu kimdir? Həm çaşdı, həm hirsləndi. Özünü ələ alıb səhnəni birtəhər oynadı. Sonra tufan qopdu... Amma mən çaşıb qalmışdım, bu kişiyə nə oldu? O bəyəm Gülnarə birdən-birə görmüşdü? Ona nə, kimdi? Gülnarı Əlibəy özü seçib almışdır. Başqa kişi onu necə görə bilərdi?"

Gülnar rolunu B. Şəkinskayadan əvvəl Sona Hacıyeva böyük sənətkarlıqla ifa etmişdir. Əlbəttə Sona xanımdan sonra tələbkar tamaşaçıların qarşısında Gülnar rolunu ifa etmək aktrisadan böyük bacarıq, gərgin zəhmət tələb edirdi. Lakin buna baxmayaraq Barat xanım heç kimin oyunun təkrar etmədi, səhnədə öz Gülnarını yaratdı.

B. Şəkinskayanın ifasında Gülnar nəzəri cəlb edən azərbaycanlı qızı idi. Tamaşaçı ilk görüşdən Gülnar-Şəkinskayanı utancaq, qayğısız görürdü. Tamaşaçılar Gülnarla ikinci şəkildə görüşürlər, dördüncü şəkildə isə əməlli-başlı tanış olurlar. Gülnar-Şəkinskaya şair Vaqifin gəlini olması ilə fəxr edirdi. O, bu ocağın namusunu göz bəbəyi kimi qoruyurdu. Tamaşa boyu Gülnar-Şəkinskaya anası

Əminə xala ilə görüş səhnəsində çox şən görünürdü. Gəlin gəldiyi evin müqəddəsliyindən anası üçün danışan Gülnar-Şəkinskaya Xuramanın xəyanətinə gözyuma bilmirdi. Utandığından Vaqifin üzünə dik baxa bilməyən Gülnar-Şəkinskaya hıçqırıqlar içində Xuramanın xəyanət etdiyini Vaqifə bildirirdi. Bütün bunları aktrisa elə yüksək peşəkarlıqla ifa edirdi ki, tamaşaçılar onun təmiz əqidəsinə baş əyməyə bilmirdi. Sonra tamaşaçılar Gülnarla doqquzuncu şəkildə, zindan səhnəsində rastlaşırdı. O, zindana salınmış Vaqif və Əlibəyə yemək gətirməsi, ağlaya-ağlaya " Alın, ac qalmayın"-dediyi sözlər son dərəcə təbii və inandırıcı idi. Gülnar-Şəkinskaya Vaqifin yazdığı məktubu gizlədib, meşədə özünə məskən salmış Eldara çatdırması olduqca təbii idi. Barat xanım Gülnarın xarakterini dəqiq göstərməyə nail olmuşdur.

Beləliklə, B. Şəkinskaya Səməd Vurğunun qüdrətli qələmindən çıxmış "Vaqif" pyesindəki Gülnar obrazına gözəl səhnə həyatı vermiş, bu cəsarətli qızı xalqın yaddaşına həkk etmişdir.
1952-ci il sentyabr ayının 11-də M. Məmmədovun quruluşunda Karlo Holdoninin "Mehmanxana sahibəsi" komediyası S. Rəhmanın tərcüməsində tamaşaya qoyuldu. Bu tamaşadakı Mirandolina obrazı B. Şəkinskayanın sevə-sevə yaratdığı səhnə qəhrəmanlarından biri oldu.

Aktrisanın yaratdığı Mirandolina komik obrazdır. Görkəmli rejissor Mehdi Məmmədov tərəfindən ən xırda detalına qədər işlənmiş bu tamaşanın müvəffəqiyyətlə çıxmasında Barat xanımın Mirandolinası əvəzsiz idi.

B. Şəkinskaya xatirələrində yazır; "Holdoninin "Mehmanxana sahibəsi" tamaşasında belə bir səhnə var idi. Qadınlara nifrət edən Kavaleri (bunu Möhsün oynayırdı) ram etmək üçün Mirandolina min kələk işlədir. Həmin səhnədə söhbət əsnasında guya Mirandolinanın ürəyi gedir. Kavaler su dalınca qaçır. O gedəndən sonra qızın bir monoloqu var, onu söyləyib tələcik yerə uzanır və Kavaler əlində su qayıdır. Məşqlərin birində Möhsün tələcik gəlib ayar tərəfdə oturdu və suyu mənə içirmək istəyəndə ayağıma baxıb heyrətləndi. Təəccüblə, guya başımı axtarırmış kimi o yan-bu yana

baxırdı. Axırı ki, başımı "tapıb" suyu mənə içirdi. Səhnə alqışlarla qarşılandı".

B. Şəkinskayanın yaratdığı Mirandolina şıltaq idi, tamaşaçıya elə gəlirdi ki, o, qayğılardan azaddır.



*B.Şəkinskaya – Mirandolina rolunda*

C. Cəfərov "Rejissor sənəti" (1969) kitabında qeyd edir ki; "Baratın yaratdığı bütün qadın surətlərində bir əsas xətt keçir. Qadın taleyi, öz xoşbəxtliyini axtaran, bu xoşbəxtlik uğrunda, öz taleyi uğrunda mübarizə xətti. Və bu mübarizədə onun qəhrəmanları üz-üzə durur. Yəqin elə buna görə də Baratın oynadığı komik rollarda belə bir qadın kədəri dramatik nota keçir və bu da aktrisanın yaratdığı surətin həyatiliyini sübut edir...

Məsələ Baratın yaratdığı çətin, rəngarəng obrazda deyil, onun özünün şəxsiyyətinin bu rola yaxınlığıdır. Bu sözləri böyük sənətkar Babanova haqqında da demək olar. Onları yaxınlaşdıran, doğmalaşdıran bir sənətkarlıq var.

Barat bu rolun içində başqalaşa bilir. Mehdi bu oxşayışı onunla Mirzağa Əliyev arasında görür.

Barat uşaqları, yaşlıları, qızları, oğlanları oynayır, eyni zamanda bu surətləri psixoloji rənglərlə, boyalarla, hərəkət və mimikayla oynayır. Təkcə "Mehmanxana sahibəsi"nə baxsan bu çizgilərin hamısına rast gəlirsən".

B. Şəkinskaya səhnədə canlandırdığı müxtəlif xarakterli obrazların hər biri bitkin sənət nümunələridir.

Bu baxımdan B. Şəkinskayanın S. Vurğunun "Fərhad və Şirin" əsərindəki Şirin obrazı son dərəcə maraqlıdır.

Böyük Bətən müharibəsinin qızğın bir dövründə xalq şari Səməd Vurğun üçüncü mənzum dramı olan “Fərhad və Şirin” pyesini teatra təqdim etdi. Tamaşanın quruluşçu rejissoru Adil İsgəndərovun rol bölgüsündə Fərhadı-Ələsgər Ələkbərov və Rza Əfqanlıya, Şirini-Mərziyə Davudova və Fatma Qədriyə, Xosrovu-Əjdər Sultanov və Ağasadıq Gəraybəyliyə, Azər babanı-Əli Qurbanova tapşırmışdır.

1941-ci il noyabr ayının 6-da “Fərhad və Şirin” tamaşası ilk dəfə nümayiş olundu və tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

On bir il keçəndən sonra 1952-ci il oktyabr ayının 7-də B. Şəkinskaya səhnədə öz Şirinini yaratdı, özü də hazırlıqsız.



*B.Şəkinskaya – Şirin rolunda*

Aktrisa özü qeyd edir ki; “Moskvadan Azərbaycan teatrına gəlmiş rejissor Tarxanov S. Vurğunun “Fərhad və Şirin” tamaşasına baxaraq demişdir ki, hər iki Şirin-Fatma Qədri də, Mərziyə Davudova da bu rola yaşlarına görə uyğun gəlmirlər.

-Bizdə gənc Şirin də var-deyə rejissor Adil İsgəndərov onu inandırdı.

Heç ağlıma da gətirməzdi ki, bu mürəkkəb obrazı üç günün içində yaratmağa müvəffəq olacağam. İş elə gətirdi ki, o, mənim yaradıcılıq taleyimdə ən uğurlu obrazlarımdan biri oldu...”

B. Şəkinskaya xatirələrində yazır ki; “Bu rol mənə sonradan verilmiş və Xosrovla olan şəkilləri Gəraybəyli ilə məşq eləmişdim. Xosrovun əsas məqsədi nəyin bahasına olursa-olsun Azərbaycanı İrana qatmaqdı. İlk görüşdə onun sevgisinə, şəxsən mən inanmırdın. Gəraybəyli, bu səhnədə (Şirinlə ilk görüş səhnəsi) öz qələbəsindən

zövq alır, təmtəraqla səhnəyə gəlirdi. Ona qarşı çox soyuq olmağı qət etdim! Hətta əsərin səkkizinci şəklində Fitnə ilə söhbətdə həm Xosrovu, həm Fərhadı sevməyim haqqındakı:

*Fitnə-Bəlkə ikisini birdən sevəsən?*
*Şirin-Onları üz-üzə qoymuşdur zaman;*
*Kimin sinəsində böyüksə urək;*
*Onun məhəbbəti qalib gələcək!..*

-sözlərini pozdum. Əlbəttə, bu sözləri pozmaqla haqlı olduğuma həm Səməd Vurğunu, həm də Adil İsgəndərovu inandırmışdım.



*"Fərhad və Şirin" tamaşasından səhnə.*
*Fərhad – SSRİ xalq artisti Ə.Ələkbərov,*
*Şirin – B.Şəkinskaya*

Lakin bir neçə tamaşadan sonra Xosrovu Əjdər Sultanov oynayanda başa düşdüm ki, Səməd Vurğun o sözləri niyə yazıbmış?! Və bir qədər incidim ki, mənə Əjdərlə məşq verməmiş niyə səhnəyə baraxdılar. Əjdər səhnəyə çıxanda ilk baxışda ikimizdə sehirləndik. Onun gözlərində yalnız məhəbbət, həsrət gördüm. Baxışları qəlbimə sancıldı. Ürəyim çox sürətlə döyünməyə başladı. Nə edəcəyimi, nə deyəcəyimi unutdum. İçimdə hüzünlü bir fəryad qopdu. Bir az

qabaq onun arvadı Məryəmlə söhbətim olmasaydı, mən necə xoşbəxt ola bilərdim. Çünki o mənim ilk eşqim idi. Əfsus... Bax, beləcə, o rolu Gəraybəyli ilə başqa, Əjdərlə isə tamam başqa təfsirdə aparırdım”.

Azərbaycan səhnəsində müxtəlif səpgili, yüksək səviyyəli obrazlar yaradan Barat Şəkinskaya Şirinə öz baxışı ilə yanaşmışdır. Aktrisa Şirinin sevgisini, əzabını dərk edərək yaradırdı.

Tamaşaçı Şirin-Şəkinskaya ilə tamaşanın birinci şəklində rastlaşırdı və bu böyük amallı Azərbaycan qızını oxlu, kamanlı görürdü. Aktrisa səhnəyə gəlişində tamaşaçılara Fərhadı sevdiyini bildirirdi. Şirin-Şəkinskaya sevginin böyük nemət olduğunu duymaqla yanaşı, vətənini də hər şeydən üstün tutan ismətli bir qız idi.

Barat xanımın lirik planda yaratdığı Şirin təkcə pak qəlbli deyildir, eyni zamanda dərrakəli və qətiyyətli idi. Bütün bunları aktrisa bütün sənətkarlıqla tamaşaçılara çatdırırdı.

Fərhadı böyük məhəbbətlə sevən Şirin-Şəkinskaya Xosrovun sarayında yalqız oturduqda belə öz doğma vətənini kədərlə xatırlayırdı:

*Eldən uzaq düşdüm, vətəndən iraq,*
*Bir daş qəfəsdəyəm, ürəyim dustaq...*

Bu sözlər aktrisanın ifasında elə daxili ehtirasla deyilirdi ki, tamaşaçılar Şirinin dərdinə şərik olmaya bilmirdilər. Xosrovun arvadı Məryəmlə dialoqdan sonra Şirin-Şəkinskaya Xosrovun yalançı məhəbbətinə nifrət edərək:

*Ah, nələr var imiş dünyada, nələr,*
*İçimdə kimsəsiz bir quzu mələr...*
*Söylə, bir, hardasan, hardasan, Fərhad?*

-sözlərini həyacanla deyib, taqətsiz halda görünürdü. Sonra Xosrov səhnəyə daxil olurdu. Şirin-Şəkinskayanın Xosrovla apardığı dialoqlarda tamaşaçlar bir daha onun mətinliyini duyurdu. Şirin-Barat xanım Azərbaycanın İrana qarışa biləcəyini və bu işin böyük səhv olduğunu Xosrova açıq-aşkar deyirdi:

*Nə deyim... bu sizcə belədir, bəlkə.*
*Lakin düşünün ki, böyük bir ölkə*

*Yamaq ola bilməz heç bir torpağa,*
*Dağlar da daşlar da qalxar ayağa...*

Şirin-Şəkinskayanın Xosrovun sarayından getmək ən böyük arzusu idi. O, bu möhtəşəm sarayda özünə yer tapa bilmirdi, kədər onun bütün varlığına hakim kəsilirdir.

Aktrisanın ifasında Şirin sevgilisi Fərhadın İran sərhəddinə hücum çəkməsi eşidəndə bütün varlığı ilə sevinirdi:

*Onun qollarında yerin gücü var,*
*Yəqin anam vermiş bu hərbə qərar.*

Sonra tamaşaçılar Şirinlə yeddinci şəkildə rastlaşır. Barat xanımın Şirini yenə kədərlidir. O, artıq Xosrovun sarayında qaldığı üçün yox, anasını itirdiyi üçün kədərli idi:

*Onu son nəfəsdə görsəydim, barı!*
*Doyunca öpsəydim o dodaqları!..*
*Ana... ana deyib bir ağlasaydım,*
*Qəbrinə bir dəstə gül bağlasaydım!..*

Bu səhnəni aktrisa elə gözəl ifa edirdi ki, tamaşaçı ana-övlad məhəbbətinə qibtə etməyə bilmirdi. Bu səhnədə Şirin-Şəkinskaya həm layiqli övlad, həm də sevən aşiq kimi çıxış edirdi.

Şirin-Şəkinskaya sevgilisi Fərhadın Büsutun dağını yarmağa gedərkən ona verdiyi xeyr-dua indi də tamaşanı görən tamaşaçıların qulağında səslənir:

*Yazılsın adına min zəfər səsi,*
*Adınla fəxr etsin Odlar ölkəsi!*

Tamaşanın ilk səhnəsində şən, qayğısız Şirin-Şəkinskaya son səhnələrdə mübarizdir, mərddir. Şirin-Barat xanım Xosrova verdiyi son cavabda öz fikrini bir daha qətiyyətlə tamaşaçılara bildirirdi:

*Nə qədər canlıyam, nə qədər varam,*
*Ölsəm də qüvvətə təslim olmaram!*
*Bu gündən sevirəm, sevirəm onu,*
*Öz ana yurdumun igid oğlunu!*

Bu sözlər ilə Şirin-Şəkinskaya Azərbaycan qızılarının mərdliyini bir daha tamaşaçılara göstərirdi. Şirin-Barat xanım sevgilisi Fərhadın böyüklüyü, şöhrəti, igidliyi haqqında:

*Mən indi bildim ki, böyükdür Fərhad,*
*Onun şöhrətinə yaraşır bu ad!*
*Ömrüm də eşqim də halaldır ona-*
*Odlar ölkəsinin böyük oğluna!..*

-ehtirasla dediyi sözlər, pərdənin sürəkli alqışlar altında örtülməsinə səbəb olurdu.

Tamaşaçılar Şirin-Şəkinskaya ilə bir də finalda rastlaşırdı. Artıq Fərhad Şapurun (bu rolu SSRİ xalq artisti Sidqi Ruhulla ifa edirdi-İ.A.) sözlərinə inanaraq özünə qəsd etmişdir. Şirin-Barat xanım Fərhadı dağın yarılması münasibəti ilə təbrik edə bilmədi. Aktrisanın Şirini artıq Fərhadın cənazəsi önündə dayanmış, hıçqırıqlar icində son monoloqunu söyləyib, özünü xəncərlə öldürürdü. B. Şəkinskaya Şirinin faciəsini elə böyük ustalıqla ifa edirdi ki, tamaşaçılar onun böyük məhəbbətinə baş əyməyə bilmirdilər.

Şirin obrazı Barat Şəkinskayanın ifasında böyük sənətkarlıqla yaratmış səhnə qəhrəmanları içərisində öz bitkinliyi ilə yaddaşlarda həkk olunmuş sənət nümunəsi idi.

B. Şəkinskaya müxtəlif xarakterli obrazlar yaradarkən həmişə axtarışda olmağı, müşahidə etməyi bacaran sənətkar idi. Bu baxımdan onun T. Kazımovun quruluşunda 1953-cü il aprel ayının 4-də tamaşaya qoyulmuş M. F. Axundovun "Lənkəran xanın vəziri" komediyasında yaratdığı Ziba xanım obrazı daha maraqlıdır.

Ziba xanım-Şəkinskaya Lənkəran xanının vəziri olan Mirzə Həbibin birinci arvadıdır. O, ərinin bütün pis xasiyyətlərini cəsarətlə üzünə deyirdi.

Komediyanın birinci məclisində vəzir Mirzə Həbib (bu rolu xalq artisti Məmmədəli Vəlixanlı ifa edirdi-İ.A.) tacir Hacı Saleh ilə söhbət edirlər. Mirzə Həbib Hacı Salehin Rəştdə getdiyini bilib, istəyir ki, ikinci arvadı Şölə xanım üçün yaxası qızıl düyməli bir nimtənə tikdirib gətirsin. Ziba xanım-Şəkinskaya ərinin Hacı Salehə dediyi sözləri eşidir. Hacı gedən kimi Ziba xanım həyacanla içəri daxil olur. Tamaşaçının Ziba xanım-Şəkinskaya ilə ilk tanışlığı buradan başlayır.

M. Hüseyn yazır ki; “Qadın surətlərini yaradan aktrisalar içərisində Barat Şəkinskaya daha çox nəzəri cəlb edir. Biz Ziba xanımın belə koloritli surətini səhnədə ilk dəfə görürük. Barat Şəkinskaya ilk tamaşalarda buraxdığı nöqsanları (bədii surətdə heç bir şey artırmayan yerli ləhcə və sairəni) son tamaşalarda islah etmişdir ki, bu da obrazın daha qüvvətli cıxmasına səbəb olmuşdur”.

Komediyanın ikinci məclisində Ziba xanım-Şəkinskaya Teymur ağa ilə Şölə xanımın söhbətlərinə qulaq asmaq üçün pərdənin arxasında gizlənirdi. Şölə xanımla Teymur ağa söhbət edərkən Nisə xanım vəzirin gəldiyini onlara xəbər verirdi. Şölə xanım Teymur ağanı pərdənin arxasında gizlədirdi, vəzir gəlirdi. Söhbət zamanı vəzir pərdənin arxasından səs eşidir, gedib baxdıqda Ziba xanımla Teymur ağanı bir yerdə görürdü.

Bu səhnədə Ziba xanım-Şəkinskaya günahsız idi. O, təqsirsiz olduğunu vəzirə bildirmək üçün hər tamaşada ağlayırdı. Bir gün Rza Təhmasib tamaşaya baxanda görür ki, bu səhnədə Ziba xanım-Şəkinskaya həqiqətən ağlayır. Tamaşadan sonra R. Təhmasib Barat xanıma ərk ilə “-dəli olmusan, niyə ağlayırsan?”-deyə soruşur. “-Yanıram, günahsızam axı”-deyə Barat xanım cavab verir.

1953-cü il dekabr ayının 11-də A. İsgəndərovun quruluşunda tamaşaya qoyulan S. Rəhmanın “Nişanlı qız” komediyasında B. Şəkinskaya yelbeyin, modabaz Zərifə obrazını ifa edirdi.

Aktrisa səhnədə Zərifə obrazını ifa edərkən gülüşün cazibəsi, təsir qüvvəsi gözəl duyulurdu.

Zərifə katibədir. O tikinti idarəsində mühasib işləyən Mirzə Salmanın (bu rolu SSRİ xalq artisti, iki dəfə SSRİ dövlət mükafatı laureatı Mirzağa Əliyev ifa edirdi-İ.A.) qızıdır. Təchizat şöbəsinin müdiri Mindilli Zərifəyə eşq elan edir. Mindillinin keçmişdə bir necə arvadı olub ki, onlardan da biri həkim Qəmərdir.

Maraqlı mövzusu olan bu komediyada M. A. Əliyevdə, A. Gəraybəylidə, B. Şəkinskayada öz cəzibedici oyunları ilə tamaşaçıları ofsunlamışdılar, onları güldürməkdən başqa həm də düşündürürdülər.

C. Səfərov yazır ki; “Barat Şəkinskayanın Zərifəsi sevdalı və çılğın, şən, tez aludə olan qızdır”.

H. Şərifov yazır ki; “Yelbeyin, xəbərçi, söz gəzdirən, fikri-zikri moda ilə geyinməkdən ibarət olan, bütün bunlarla birlikdə ürəyi təmiz və səmimi Zərifə rolunda ... Barat Şəkinskaya təbii və daha inandırıcıdır. B. Şəkinskayanın oyununda uydurma və saxta hərəkətlər yoxdur”.



*“Nişanlı qız” tamaşasından səhnə.*
*Mirzə Salman – SSRİ xalq artisti M.A.Əliyev,*
*Zərifə – B.Şəkinskaya*

Zərifə-Şəkinskaya tamaşada atası Mirzə Salmana dərman vermə səhnəsi son dərəcə maraqlı idi. Aktrisa Zərifəni ilk səhnələrdə elə ifa edirdi ki, tamaşaçı onu dünyadan xəbərsiz bilirdi. Lakin o,

son səhnələrdə Mindillinin iç üzünü görür və ona “-Necə? Birinci və axırıncı sevgin? Bəs deyirdin evlənməmişəm?”-deyir. Sonra Zərifə-Şəkinskaya bir az ciddiləşirdi və Mindilliyə nifrət edirdi.

R. Şahvələd yazır ki; “Tamaşadakı əsas obrazlardan biri də Zərifədir. Söz gəzdirməkdən, xəbər yaymaqdan və yaxşı geyinib gəzməkdən başqa ayrı bir peşəsi olmayan Zərifə rolunda Barat Şəkinskaya orijinaldır. O, bu obraz üçün tipik boyalar tapmış və maraqlı ştrixlər seçmişdir”.

S. Şərifov yazır ki; “Pyesdə müvəffəqiyyətlə çıxış edən artistlərdən biri də ... Barat Şəkinskayadır. İstedadlı artistka tamaşada Zərifə rolunu ifa edir. Şəkinskaya-Zərifə bir çox institutlarda olan, lakin bunlardan heç birini bitirməyən, sadəlövhlüyü səbəbinə Mindilli kimi bir tipə aldanan, atası tərəfindən hədsiz sevilən bir qızdır. Mindillinin alçaqlığı Zərifənin gözlərini açır və o, mütləq təhsil almağı qərara alır”.

B. Şəkinskayanın ifa etdiyi Zərifə öz təbiiliyi ilə fərqlənən obraz olmaqla yanaşı, aktrisanın yaradıcılığında özünə möhkəm yer tutmuş və tamaşaçı yaddaşına həkk olunmuşdur.



*“Prokurorun qızı” tamaşasından səhnə.*
*Nil Nikitiç – R.Əfqanlı, Larisa – B.Şəkinskaya*

Yuxarıda qeyd etmişdim ki, B. Şəkinskaya uşaq rollarının mahir ifaçısıdır. O, Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsində ilk uşaq rolunu 1936-cı ilin yanvar ayında 22 yaşı olarkən A. Korneyçukun "Polad Qartal" tamaşasında Şəfiqə obrazını yaratmışdı. Üstündən 18 il keçəndən sonra 1954-cü il iyun ayının 10-da M. Məmmədovun tərcümə etdiyi və özünündə quruluş verdiyi Yuri Yanovskinin "Prokurorun qızı" əsərində Larisa obrazını yaratdı. Bu obraz B. Şəkinskayanın səhnədə beşinci, yəni sonuncu uşaq rolu idi.

Larisa obrazını Barat xanım səhnədə kifayyət qədər təcrübəsi olan bir dövdə yaratmışdr.



*"Prokurorun qızı" tamaşasından səhnə.*
*Soldan: Nil Nikitiç – R.Əfqanlı, Larisa – B.Şəkinskaya,*
*Kira Karlovna – F.Qədri*

Aktrisa xatirələrində yazır ki; "Bu obraz olduqca mürəkkəb və maraqlı obraz idi. Bu tamaşada Fatma Qədrinin yaratdığı ana obrazı, onun yaradıcılığında tamamilə yeni bir səhifə açdı, onu səhnədə tanımaq olmurdu.

Rza Əfqanlı isə şəhərin baş prokuroru Nil Nikitiç Çuyko obrazını özünə məxsus dərin psixoloji cizgilərlə işləmişdir.

Ana yalnız özü ilə, ata isə tamam dövlət işləri ilə məşğul olurdu. On beş yaşlı qızları tək başına qalır. Hətta məhkəmə qarşısında durmalı olur. Bu tamaşada Müxlis Cənizadə ilk dəfə özünü artıq aktyor adlandıra bilərdi.

Larisa mənim oynadığım ən böyük və ən çox sevdiyim, mürəkkəb uşaq rolu idi".

B. Şəkinskaya çox geniş yatadıcılıq imkanı olan aktrisa idi. O, səhnədə gah uşaq, gah sevgili, gah ana, gah da şahzadə olurdu. Bütün bunları aktrisa öz sənətkar qəlbi ilə isitmiş və hər obrazı ilə tamaşaçıları düşündürməyə çalışmışdır.

1953-cü il oktyabr ayının 9-da İ. Əfəndiyevin "Atayevlər ailəsində"pyesi T. Kazımovun quruluşunda tamaşaya qoyuldu və baş rollardan biri olan meşşan təbiətli Dilşad xanımı B. Şəkinskaya ifa etdi.

Aktrisa xatirələrində yazır ki: "İlyas Əfəndiyevin "Atayevlər ailəsində"ki, Dilşad xanım mənim və tamaşaçıların sevdiyi rol olmuşdur. Sözü həddindən artıq çox idi. İlyas müəllim bu surəti sevə-sevə yazmışdır, görünür dövrümüzün bu yaralı yeri müəllifimizə çox toxunmuşdur. İlyas müəllim cəmiyyətin yaralı yerin tapıb kəsmək, atmaq, islah etməkdə çox mahir yazıçıdır. Onun iti nəzərindən bu antipotlar, cəmiyyətə mane olan, əsəblərini korlayan, mələk paltarı geymiş ilanlar qaça bilmirlər.

Dilşad xanımda zahirən çox gözəl, mələk donu geymiş, guya hamının xeyirxahı, ərinin müti, sevgili xanımı əslində cəmiyyəti pozan, gənclərin həyatına zəhər qatan bu surəti məmnuniyyətlə oynamışam və onu yüz yox, on rolumdan biri hesab edirəm.

Bütün tamaşada mənim və tamaşaçıların ən çox sevdiyimiz səhnə telefonla prokror Hüseynovla danışan səhnə idi.

Bu rolda rəngarənglik, cildən-cildə girə bilmək üçün hər bir aktyorun qibtə edə biləcəyi material var idi. Dilşad xanım demək olar ki, tamaşanın əvvəlindən axırına qədər səhnədə olur. İndi gərək

elə məharət göstərəsən ki, səni dinləsinlər. Həm də birdən-birə sənə nifrət eləməsinlər.

Dilşad xanım rolunda mən özümü bəyənmişəm, yadıma düşəndə indi də xoşbəxt oluram.

Dilşad xanım üzərində işləyəndə çox qorxurdum. Görəsən məni başa düşəcəklərmi?.. Axı seçdiyim yol bir qədər sürüşkən idi. Mən bu riyakar qadına öz-özlüyümdə haqq qazandırır, bütün tamaşa boyu ürək ağrısı, göz yaşı ilə onu müdafiə edirdim”.

C. Cəfərov yazırdı ki; “Dilşad xanım-Barat, zəngin və əlvan boyalar palitrası ilə rəsm edirdi. Onun qəhrəmanı özünə, öz hərəkətlərinin düzgün və haqlı olduğuna inanırdı. Əgər o məhəbbət, şərəf və fədakarlıq kimi məfhumlarla saxtakarlıq, başqalarını aldatmağa çalışırdısa bu onun “rola girməsindən”, maskalanmasından”, “ikiüzlü” olmasından irəli gəlmirdi; o məqsədinə çatmaq və bu yolda hər cür maniə və müqaviməti aradan götürmək üçün o, bu cür vasitələri tamamilə təbii hesab edirdi! Dilşad xanımın ötkəm təbiətini aktrisa bəyənir və öz oyunu ilə inandırırdı ki, məhz belə bir qadın doğrudan da sadəlövh və namuslu bir əri çaşdıra bilər”.

B. Şəkinskayanın ifasında Dilşad xanım vətən xainləri ilə işgüzar adamlar arasında vəhdət təşkil edən bir qadındır. Və ona görə də tamaşanı maraqlı edən obrazlardan biri də B. Şəkinskayanın yaratdığı Dilşad xanım obrazı idi.

M. Hüseyn yazır ki; “Dilşad rolunda B. Şəkinskayanın nə qədər məharətlə oynadığı ilk epizodlardan görünməyə başlayır. Onun, xüsusən, zəhmli hərəkət etdiyi, kimi isə hədələdiyi, kimi isə ürək-dirək verdiyi səhnələrdə Dilşad-Barat həqiqi xarakter dərəcəsinə qalxır. İnanırsan ki, bu cür qadınlar, hətta ağıllı və bacarıqlı ərlərini də doğru yoldan sapdıraraq tora sala bilərlər. Doğrudan da Xosrov Atayevin faciəsi, əsas etibarilə, Dilşadın hiyləgərliyindən və tamahkarlığından irəli gəlmişdir. Xəbis adamlara bir növ başçılıq edin bu meşşan qadın əsərdə ifşa olunan Ağasəlimdən də Xuduşdan da, Şahsuvarovdan da təhlükəli adamdır. Çünki Dilşad öz çirkin əməllərini gizlətmək üçün məhəbbət və namus kimi müqəddəs məfhumları qorxulu bir maskaya çevirmişdir. O, ərinə sadiq olduğunu

söylərkən çox səmimi görünür. Deyəsən, Xosrov Atayevi aldadan da elə budur. Dilşad-Barat Şəkinskaya hər zaman sadiq və ardıcıldır, buna görə də o, çətin ifşa olunur. Aktrisanın ifasındakı ən yaxşı xüsusiyyət ondan ibarətdir ki, o, Dilşadı, öz hərəkətlərini doğru və qüsursuz hesab edən bir adam kimi oynayır. Şəkinskayanın yaratdığı obraz canlı və kaloritlidir. Tamaşaçı dərhal "həyatda elələri var" deyir və onun reallığına zərrə qədər də şübhə etmir".

Dilşad xanım-Şəkinskaya əri Xosrov Atayevlə (bu rolu ölməz sənətkarımız, respublikanın xalq artisti Əjdər Sultanov ifa edirdi.-İ.A.) söhbət edərkən mehriban, səmimi bir qadın idi. Əri onun sözünə qulaq asmayıb gedəndə, Dilşad-Şəkinskaya onun arxasınca qəzəbli nəzər salaraq "Ah... Siz Atayevlər!.." sözlərini elə kinayə ilə deyirdi ki, tamaşaçı onun qəlbində yatmış, "qara ilanı" görürdü.

A. İsmayılova (1977) yazır ki; "İ. Əfəndiyevin "Atayevlər ailəsində" pyesinin tamaşasında Barat xanımın oynadığı Dilşad rolu da onun yaradıcılığında görkəmli yer tutur. Ümumiyyətlə, aktrisanın böyük yaradıcılıq istedadı ona müxtəlif surətləri-lirik qəhrəmanları, təmiz, saf təbiətli şən insanları, eləcə də xəbis, pozğun cəmiyyətimizi tərk etməkdə olan yararsız tipləri eyni bacarıqla yaratmaq imkanı verir. Elə buna görə də onun ifasında mənəvi cəhətdən eybəcər, təbiətən pozğun, hər şeyə şəxsi mənfəət gözü ilə baxan Dilşad xanım uzun zaman yadda qalır".

Dilşad-Şəkinskaya namus nöqteyi nəzərindən Xosrov Atayevə ləkə gətirmirdi. O, xalq malına göz dikmiş Sadıqovu, Ağasəlimi, Xuduşu evinə gəlməsinə şərait yaradaraq böyük hörmət sahibi olan əri Xosrov Atayevi ləkələyirdi.

Q. Rəsulov yazır ki; "Bir sıra mürəkkəb xarakterli obrazlar yaradan B. Şəkinskaya Dilşad rolunda xüsusilə böyük məharət göstərir. Aktrisa məkirli bir qadının sözlə ifadə olunmayan gizli ehtiraslarını öz hərəkətlərilə bacarıqla aça bilir. B. Şəkinskayanın ifasında Dilşad xanım tipik meşşan qadın kimi get-gedə tamaşaçının nifrətini qazanır.

Aktrisa, pul və şöhrət düşkünü Dilşadın təbiətindəki xəbis cəhətləri çox inandırıcı şəkildə tamaşaçıya çatdırır".

H.Qasımov "Ədəbiyyat və incəsənət" qəzetində (23.10.1954) yazır ki; "Barat Şəkinskaya Dilşadın mənəvi eybəcərliyini, çirkin hərəkətlərini tamamilə ifşa edib, qamçılayır. Bu ifşa aktrisanın oyununda birdən-birə deyil, tədriclə inkişaf etdirilir. Dilşad xanım ilk səhnələrdə mehribandır. Lakin hadisələrin inkişafı onun iç üzünü açdıqca, bu obraz xudpəsəndliyi, tamahkarlığı, qəddarlığı daha aydın meydana çıxır. O istəyir ki, hər şey onun əlində olsun. Ona qarşı hörmətsizlik edənlərdən həmişə intiqam almağa çalışır".

Dilşad-Şəkinskaya özündən razı qadın idi. O istəmir ki, bir sözü iki olsun. Xüsusən Dilşad-Barat xanım telefonla prokuror Hüseynovla danışdıqdan sonra sözünün yerə düşdüyünü gördükdə dəstəyi hirslə yerə atır və qəzəblə "Gədələr! Elə bil ki, hamısı dilbir olublar" dediyi sözləri unutmaq çətindir.



*"Atayevlər ailəsində" tamaşasından səhnə. Xosrov Atayev – Ə.Sultanov, Dilşad – B.Şəkinskaya*

Ə. İsmayılov və A. Ağamirov yazırdılar ki; "Dilşad rolunu talantlı aktrisa Barat Şəkinskayanın ifa etməsi diqqətəlayiqdir. Dilşad dar və məhdud görüşlü, xudpəsənd bir qadındır. Onun şüuru köhnəlik qalıqları ilə xüsusi mülkiyyətçilik psixologiyası ilə korlanmışdır. Dilşad ailədə səadət və xoşbəxtliyin düşmənidir. Aktrisa böyük yaradıcılıq qüdrətilə ifa etdiyi bu rolu, tipik cəhətlərə fərdiləşdirərək dolğun və tamamlanmış xarakter səviyyəsinə

qaldırır. Dilşad obrazı Barat Şəkinskayanın yeni yaradıcılıq qələbəsidir".

"Atayevlər ailəsində" tamaşasındakı Dilşad-Şəkinsayanın ən müvəffəqiyyətli səhnələrindən biri də son səhnə idi. Bu səhnədə Dilşad-Barat xanım əri Xosrov Atayevlə sözləşirdi və tamaşaçı onun qəlbindəki çirkinliyi hiss edirdi. Tamaşaçlara elə gəlirdi ki, o, tamaşaya yox, real həyata baxır.

Aktrisa xatirələrində yazır: "Hərdən bütün oynadığım rolları yada salıb, fikirləşirəm ki, həmin rolları birdə təzədən oynasaydım necə oynayardım? O qədər təzə, yeni fikir gəlir ağlıma, özümü bağışlaya bilmirəm.

Amma Dişad xanımı fikirləşəndə görürəm ki, yox! Bundan artığına gücüm çatmazdı!"

Bu cəhətdən Barat Şəkinskayanın yaratdığı Dilşad obrazı öz dolğunluğu ilə diqqəti cəlb etmiş və teatr tarixində onun yerini möhkəmlətmişdir.

1955- ci il mart ayının 26-da B. Şəkinskaya M. Məmmədovun quruluşunda Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında Yetər obrazı ilə tamaşaçılar qarşısında çıxış etdi.

Ə. Əliyeva "Kommunist" qəzetində (27.04.1955.) yazır ki; "Qadın obrazları içərisində ev qulluqçusu Yetər xüsusi yer tutur. B. Şəkinskayanın gözəl oyunu tamaşadakı hadisələri tamamlamaqla sadə adamların böyük arzu və istəklərini xoşbəxt həyat haqqındakı düşüncələrini aydın bir şəkildə ifadə edir".

B. Şəkinskayanın ifasında Yetər bacarıqlı və cəld idi. O, öz xanımına (Dubər xanıma) sadiq qulluqçu idi. Xüsusən Hacı Qənbərə "-Mən sizdən təveqqe eləyirəm bu sözü bir dediniz bir də ağzınıza alıb, danışmayasınız. Mən ölənəcən Dilbər xanımın kəniziyəm, kənizi". -dediyi bu sözlərlə aktrisa Yetərin daxilindəki təmizliyi tamaşaçılara göstərirdi.

İ.Əfəndiyev "Ədəbiyyat və incəsənət" qəzetində (07.05.1955.) yazır ki, "İstedadlı aktrisa Barat Şəkinskaya Yetərin şən və nikbin xarakterini ustalıqla yaradır. Barat Şəkinskayanın bir aktrisa olaraq

ən başlıca məziyyəti ondan ibarətdir ki, onun yaratdığı surətlər heç zaman bir-birinə bənzəmir. Bu aktrisadakı istedadla bərabər zəngin həyat müşahidəsinin və sənətkarlıq mədəniyyətinin nəticəsidir. Yetər-Barat Şəkinskaya səhnədə sözsüz dayananda belə canlı və orijinaldır. Tacir mühitinin boğucu havası içində qarşısına çıxan çətinliklər, kimsəsiz, yoxsul bir qız olan Yetəri ruhdan salmır, qorxudub iradəsini sarsıda bilmir. Aktrisa Yetərin cavan kəndli Mahmuda olan sadə, təmiz hisslərini zəif və rəngarəng boyalarla yaradır. Onun hərəkətlərində incə, ılıq bir xalq yumoru duyulur. Yetər-Barat Şəkinskaya sadəliyi ilə bərabər ağıllı, qoçaq və qətiyyətlidir”.



*“Yağışdan çıxdıq, yağmura düşdük”*
*tamaşasından səhnə.*
*Hacı Qəmbər – M.Vəlixanlı, Yetər – B.Şəkinskaya*

A. İsmayılova (1977) yazır ki; “Barat Şəkinskayanın zəngin xarakterli səhnə obrazlarından biri də şən təbiətli, həyatı şirini-acısı ilə sevən, heç zaman ruhdan düşməyən, ağıllı və qoçaq Yetərdir. Bu rolda B. Şəkinskayanın yüksək ifaçılıq mədəniyyəti zəngin istedadı özünü daha aydın göstərir. Barat xanımın ifasında Yetər dünya

teatrı tarixində şöhrət tapmış, öz ağasından qat-qat ağıllı, zirək qulluqçu surətini xatırladırdı".

Son dərəcə istedadlı və yetkin bir aktrisa olan Barat Şəkinskaya geniş tamaşaçı kütləsinin məhəbbətini qazanmış böyük sənətkardır. Aktrisanın ifa etdiyi Yetər epizodik obraz olmasına baxmayaraq tamaşaçıları uzun müddət düşündürmüşdür. Çünki B. Şəkinsaya Yetərin xarakterini dərindən duymuş və onu sənətkar qəlbinin süzgəcindən keçirmişdir.

1955-ci il dekabr ayının 24-də C. Məcnunbəyovun "İldırım" əsəri Əliheydər Ələkbərovun quruluşunda tamaşaya qoyuldu və B. Şəkinskaya əsas rollardan birini İldırımın həyat yoldaşı olan Yeganəni ifa etdi.

Aktrisanın ifasında Yeganə əri İldırımın işlə əlaqədar başqa şəhərə getməsi ilə razılaşmayaraq "-Qadınını sevən kişi evində oturar. İldırım isə ildə bir dəfə qonaq gəlib yenə də gedir."-deyir.

Yeganə-Şəkinskaya ərinin tutduğu bu işlərlə razılaşmır. Ona görə Yeganə Calalın boş məhəbbətinə uyub, öz mehriban ailəsini dağıdır.

Tamaşada aktrisa Yeganənin daxili aləminə vararaq onun keçirdiyi iztirabları tamaşaçılara ustalıqla göstərirdi. Xüsusən Yeganə-Şəkinskayanın oğlu Poladla görüşdüyü səhnələr çox inandırıcı idi. Ana-övlad ayrılığını Yeganə-Şəkinskaya incə cizgilərlə tamaşaçıya göstərirdi. Onun yanğı ilə "-Gör neçə vaxtdır mən sənə laylay deməmişəm"-dediyi sözlərlə aktrisa Yeganənin faciəsi ilə tamaşaçıları kədərləndirirdi.

H. Abbaszadə "Həyatın ibrət dərsi" adlı məqaləsində yazır ki; "Yeganə obrazına əsərdə geniş yer verilmişdir. O, pyesdə cərəyan edən bütün hadisələrlə üzvü surətdə bağlıdır. Bunu nəzərə alaraq artistka Barat Şəkinskayanın üzərinə nə qədər böyük məsuliyyət düşdüyünü təsəvvürümüzə gətiririk. Yeganə-Barat ötəri məhəbbətə uyaraq istəkli ailəsini atandan sonra başına gələn qəzalar içərisində tədricən dəyişir. Şux davranışlı, iti baxışlı Yeganə etdiyi hərəkətin ağırlığı altında əzilir və dəyişir, peşiman olur, ancaq əli heç yerə çatmır, artıq gecdir. Heç kim onun bu kobud səhvinə bəraət

qazandırmır. Uzun ayrılıqdan sonra Yeganənin oğlu ilə görüşmə səhnəsində aktrisa, həyatında böyük səhv edən bir ananın faciəli vəziyyətini xüsusi bir qüvvə ilə tamaşaçılara çatdırır".



*"İldırım" tamaşasından səhnə.*
*Sağdan: Yeganə – B.Şəkinskaya, Lətifə – Ə.Məmmədova*

A. Babayev "Kommunist" qəzetində (15.01.1956) yazır ki; "Barat Yeganəni düşünən, duyan, sevən və nifrət edən, bir sözlə, bütün insani xüsusiyyətlərə malik olan bir qadın kimi oynayır. Onun səhvi də hisslərinin coşğunluğundan və Cəlal kimi adamların şirin dilinə inanmasından irəli gəlir...

Barat Şəkinskaya Yeganəni İldırıma və Cəlala olan münasibətini də maraqlı boyalarla göstərə bilir".

Respublika mətbuatında çap olunan yazılardan görünür ki, B. Şəkinskaya Yeganə obrazı ilə tamaşaçıların qəlbini bir daha fəth etmişdir. Onun Yeganəsi həyatın zərbələrindən əzilən zavallı bir qadın idi.

Ə. Ağayev "Ədəbiyyat və incəsənət" qəzetində (29.01.1956) yazır ki; " "İldırım" tamaşasında öz oyunu ilə ön plana çıxan və tamaşaçıların diqqətini cəlb edən ... Barat Şəkinskayadır. Yeganə

obrazı bu istedadlı aktrisanın indiyə qədər yaratmış olduğu bir çox yadda qalan, dəyərli obrazların sırasına daxil olacaqdır. Yeganənin faciəsini, onun ayrı-ayrı mərhələlərini çox böyük bir məharətlə yaradan aktrisa mümkün qədər həyati və təbii bir obraz yaratmağa nail olmuşdur. Doğrudur, Yeganənin öz ailəsindən və oğlundan uzaqlaşmasının psixoloji əsasları müəllif tərəfindən bir o qədər də tutarlı və inandırıcı verilmişdir. Yeganə İldırımdan ayrılmasına və öz ailəsini uşağını atıb başqasına məhəbbət bağlamasının səbəblərini izah edərkən deyir ki, o, (yəni İldırım) "Toyumuzdan bir neçə ay sonra çıxıb getdi. Cavan arvadını tək qoyub çöllərə düşdü". "Mən ona gələli gəlməyəli nə gün görmüşəm... Məni kurortlara aparıb, mənim üçün teatrlarda lojalar açdırıb, qonaqlıqlarda stolun baş tərəfində əyləşdirib? mən ona gələndə kasıb tələbənin biri idi, indi nədir? Adi mühəndic hansı dəftərdə adı var, onu kim tanıyır?"

... müəllifin verdiyi bu az materialın özündən çox ustalıqla istifadə edən Barat Şəkinskaya yaratdığı Yeganə obrazının ilk səhnələrdəki vəziyyətini inandırıcı bir şəkildə göstərməyə və əri getdikdən sonra bu qadında əmələ gəlmiş psixoloji dəyişikliyi mümkün qədər aydın boyalarla ifa etməyə nail olur. Lakin Barat-Yeganənin müvəffəqiyyətini təmin edən cəhət yalnız bu deyildir. Barat-Yeganənin inkişafındakı mürəkkəb və gərgin vəziyyətlər daha parlaq gözə çarpır. Barat-Yeganədə həm müvəqqəti, keçici hisslərə aludə olub aldanan bir qadının, həm balasından ayrılmış bir ananın iztirabları, həm də qadın kimi məhv olmuş, lakin insan kimi yaşamaq qabiliyyıtini itirmiş, son nəticə də öz taleyini bağlayan bir insanın mürəkkəb həyat yolu bütün incəlikləri ilə açılır.

Uşaqla ata və xüsusilə anın görüşməsi dramaturgiya və teatr üçün yeni bir şey deyildir. Əslində bu məsələnin bədii təsiri bir qədər də əsblərin gərginliyi və dolğun gözlərin tez boşalmasına arxalanır. Bu da məlumdur ki, ana ilə balanın görüşməsi hansı vəziyyətdə səhnədə göstərilir-göstərilsin, bu həmişə təsirli olur. Lakin Barat-Yeganənin analıq hissini, analıq məhəbbətini ifadə edən səhnələrdə nə isə bir arginallıq vardır. Hiss edirsən ki, Yeganənin qəlbinin ən dərin guşələrində gizli qalmış, İldırımın evində olarkən

çiçəklənə bilməmiş analıq hissləri məhz Baratın ifasında parlaq və təsirli verilir. Başqa bir aktrisa bu incəliyi başqa cür verə bilər. Lakin Baratı təkrar etmək olmaz. Barat-Yeganə öz ulduzunu öz əlilə söndürmüş bir xarakter kimi dama yadda qalır".

Beləliklə, C. Məcnunbəyovun "İldırım" tamaşasındakı dolğun Yeganə obrazı B. Şəkinskayanın müasir pyeslərdə yaratdığı surətlər içərisində özünə layiqli yer tutmuş, tamaşaçıları düşündürmüşdür.



*B.Şəkinskaya mədəniyyət xadimləri ilə*

1955-1970-ci illərdə Barat Şəkinskaya İ. Səfərlinin "Göz həkimi" əsərində Nina Nikolayevna (rej. Ə.Ələkbərov, 26.02.1955, aktrisa bu obrazı qısa müddətdə hazırladıqdan sonra, ikinci iştirakçı kimi ansambla daxil olub); R. Rzanın "Qardaşlar" pyesində Ləman xanım (rej. M. Məmmədov, 02.06.1956); S. Vurğunun "Vaqif" mənzum dramında Xuraman (rej. A. İsgəndərov, 1961, bərpa); S. Rəhmanın "Əliqulu evlənir" komediyasında Səadət (rej. M. Məmmədov, 09.03.1961); H. Seyidbəylinin "Bağlı Qapılar" əsərində Mənsurə (rej. Ə. Quliyev, 03. 06.1961); Ş. Qurbanov "Əcəb işə düşdük" komediyasında Əntiqə (rej. T. Kazımov, 02.12.1961); C.Məcnunbəyovun "Məhəbbətin hökmü" pyesində Zeynəb (rej. Ə. Şəriifov, 26.05.1962); Cavad Fəhmi Başqutun "Köç" əsərində

Səbahət (tərcümə M. Hüseyn, rej. Ə. Quliyev, 19.09.1964); A. Paronyanın "Bağdasar dayı" pyesinsə Anuş (tərcümə M. İbrahimov, rej. D. Malyan, 13.03. 1965); A. Ostrovskinin "Günahsız müqəssirlər"ində Kriçinina (tərcümə R. Təhmasib, rej. İ. Dağıstanlı, 12.02.1966); M. Qorkinin "Zıkovlar" əsərində Anna Markovna (tərcümə M. Rzaquluzadə, rej. Ə. Behbudov, 27.03.1968); S. Rəhmanın "Xoşbəxtlər" komediyasında Maral (rej. F. Sultanov, 08.03.1968); Raffaele Vivianinin "Çarəsiz dələduz"unda Donna Rozina (tərcümə T. Kazımov, rej. L. Məmmədbəyov, 29.03.1969); Branislav Nuşiçin "Nazirin xanımı" komediyasında Jivka (tərcümə T. Kazımov, rej. T. Kazımov və Ə. Şərifov, 19.09.1970) kimi bir-birindən fərqli zəngin qadın obrazları yaradıb.

1956-cı il də may ayının 12-də böyük Azərbaycan şairi Səməd Vurğunun 50 illik yubileyi Opera və Balet Teatrında təntənə ilə qeyd olundu. Həmin tədbirdə S. Vurqunun əsərlərindən parçalar oynanıldı. B. Şəkinskayada "Fərhad və Şirin" əsərində Şirini ifa etdi.

1957-1959-cu illərdə Ələsgər Ələkbərov, Barat Şəkinskaya, Əli Zeynalov teatrın rəhbərliyi ilə razılaşmadıqlarına görə teatrdan getdilər. Mehdi Məmmədov onlardan əvvəl teatrdan ayrılmışdır.

B. Şəkinskaya ilə Ə. Zeynalov teatrdan çıxmalarına baxmayaraq təskinliklərini radio, televiziya və kinoda tapmışdılıar.

Azərbaycan teatrının görkəmli sənətkarı olan Ələsgər Ələkbərov isə teatrsız yaşaya bilmirdi. Cox əziyyət çəkirdi.

1960-cı il oktyabr ayının 22-də Adil İsgəndərov teatrın direktoru və bədii rəhbəri vəzifəsindən uzaqlaşdırıldı (Adil İsgəndərovn bu vəzifədən uzaqlaşması Azərbaycan teatrına böyük zərbə oldu. Və bu zərbənin təsiri uzun müddət özünü göstərdi-İ.A.). Ələsgər Ələkbərov, Barat Şəkinskaya və Əli Zeynalov teatra qayıtdılar. Mehdi Məmmədov baş rejissor təyin olundu.

Ə. Ələkbərovla, B. Şəkinskaya böyük məsuliyyətlə işə başladılar (1960). İlk tamaşa S. Vurğunun "Vaqif" pyesi oldu. Vaqif rolunu səhnəmizin fəxri Ələsgər Ələkbərov, Xuraman rolunu Barat Şəkinskaya ifa etdilər (1961).

İlk dəfə bu tamaşada gürcü qızı Tamara (1938), Vaqifin gəlini Gülnar (1951) rolunda çıxış edən Barat xanım sonralar Xuraman (1961) obrazını da səhnədə canlandırdı.

Aktrisa xatirələrində yazır: "Həmin tamaşada üç rol oynamışam: Tamara, Gülnar, Xuraman. Bu tamaşa Ələsgər Ələkbərovun həyat və yaradıcılığında böyük hadisə oldu. Vaqif surətinin çox yaxşı ifaçıarı vardır. Amma Ələsgər elə bil Vaqifin özü idi. Aktyorlar, rəssamlar, heykəltəraşlar belə Vaqif obrazını yaratmaq istəyəndə Ələsgər Ələkbərovun təsirindən çıxa bilməyiblər".

B. Şəkinskaya bu obraz üzərində məşq etdikdən sonra Xuramanın uzun müddətli ifaçısı olmuşdur.

Fatma Qədridən sonra bu rolu tamaşaçıya sevdirmək o qədər də asan deyildir. Onun ifasında Xuraman ömrünü var-dövlət içində keçirmiş bir qadın idi. Aktrisanın Xuramanı saray həyatının qurbanı idi. Xuraman-Şəkinskaya əri Vaqifə xəyanət etdikdən sonra keçirdiyi əzabı, zülmü rəngarəng boyalarla tamaşaçlara çatdırırdı. Onun kədərinə ürək ağrısı ilə inanırdılar.

Barat Şəkinskaya Xuramanı uzun müddət Ələsgər Ələkbərov, Rza Əfqanlı və İsmayıl Dağıstanlı kimi sənətkarlarla ifa etmişdir.

1961-ci ildə B. Şəkinskaya iki qadın obrazı yaratdı. Bunlarda biri M. Məmmədovun quruluşunda S. Rəhmanın "Əliqulu evlənir" komediyasında Səadət (9 mart) və ikincisi Ə. Quliyevin quruluşunda H. Seyidbəylinin "Bağlı qapılar" pyesində Mənsurə (3 iyun) obrazları idi.

Xarakterləri müxtəlif olan bu qadınları B. Şəkinskaya əvəzsiz ifa edirdi. Aktrisa rayon maarif şöbəsinin müdiri Səadətin daxilindəki təmizliyi çatdırmaqla yanaşı, son dərəcə qəddar, var-dövlət, pul düşkünü Mənsurənin də iç üzünü tamaşaçılara göstərməyə müvəffəq olurdu.

Barat xanım öz xatirələrində yazır ki; "Mehdinin ilk tamaşası "Əliqulu evlənir" oldu (baş rejissor kimi-İ.A.). O, çox həvəslə işə girişmişdir. Mənim də babat rolum var idi, amma çox həvəslə işləyirdim. Tamaşa ümumiyyətlə böyük müvəffəqiyyət qazandı. Ən böyük müvəffəqiyyət isə Əliqulunu oynayan Ağasadıq Geraybəylinin

payına düşdü. 1961-ci il teatr mövsümü belə başladı. Sonra daha Mehdi ilə heç tamaşam olmadı. Həmin il oynadığım ilk ana obrazı Həsən Seyidbəylinin "Bağlı qapılar" pyesinin tamaşasındakı Mənsurə idi. Bu rol mənim sevimli rollarımdan oldu.

Yadımda qalan az çox yrəyimcə olan rolun C. Məcnunbəyovun 1962-ci ildə tamaşaya qoyulan "Məhəbbət hökmü" tamaşasındakı Zeynəb mənim ikinci ana rolum idi. Rolumdan çox razı idim. Əgər gələcəkdə imkan yaransa idi, mən artıq ana rollarının ifaçısı ola bilərdim. Mən buna inanırdım".

A. İsmayılova (1977) yazır ki; "Barat xanım qəddar və cinayətkar Mənsurənin pula, var-dövlətə hərisliyini, varlanmaq üçün möhtəkirliyə qurşanmasını ustalıqla əks etdirirdi. "Bağlı qapılar" tamaşası teatrın repertuarında uzun ömürlü olmasa da, Barat Şəkinskayanın yaratdığı Mənsurə obrazı ağıllı, düşünülmüş, ciddi yaradıcılıq məhsulu kimi diqqəti cəlb edir".

Aktrisa ifa etdiyi obrazın dolğunluğuna, bütövlüyünə xüsusi fikir verirdi və yaratdığı qəhrəmanına emosionallıq gətirirdi, tamaşaçılara sevdirirdi.

"Bağlı qapılar" tamaşası Barat xanımın səhətinə böyük ziyan vurdu. Tamaşanın adından məlum olan müəyyən mənada faciəli sözlər aktrisanın həyatında öz əksini tapdı.

"Bağlı qapılar" tamaşası üçün gündüz şəkillər çəkilirdi. Və bu ərəfədə səhnə də tutqun lampa yanıq olur. Barat Şəkinskaya ilə rəssam Nüsrət Fətullayevin üzü lampa ilə üz-üzə olduğundan hər ikisinin bir gözü yanır (sonralar hər ikisinin yanan gözü protez oldu).

Həmin axşam Ş. Qurbanovun "Əcəb işə düşdük" komediyası repertuarda olduğu üçün (bu tamaşada B. Şəkinskaya Əntiqə rolu ifa edirdi-İ.A.) onu xəstəxanaya aparmaq istəməyiblər ki, tamaşa pozular. Lakin şiddətli ağrılar hər şeyə qalib gəlmişdir...

Beləliklə, səhnəmizdə şam kimi yanan bu görkəmli sənətkar bədəninin ən ali orqanlarından biri olan gözü həqiqətən yanmışdır. Bəli, Barat xanım gözünün işığını teatrın işıqlanmasına, tamaşaçıların qəlbində teatr işığının yanmasına qurban vermişdir.

1961-ci il dekabr ayının 2-də T. Kazımovun quruluşunda Ş. Qurbanovun “Əcəb işə düşdük” komediyası tamaşaya qoyuldu, B. Şəkinskaya və L. Bədirbəyliyə Əntiqə rolu tapşırıldı.

Əsərdən məlumdur ki, Əntiqə tamaşanın ikinci pərdəsində görünürdü və ikinci dərəcəli rol sayılırdı. B. Şəkinskaya Əntiqəni məzəli ştrixlərlə yaradırdı. İlk görünüşdə Əntiqə-Şəkinskaya divanda uzanıb telfonla danışmasını, ərindən şikayəti ilə tamaşaçının üzündə təbəssüm yaradırdı. Tamaşaçı arzu edirdi ki, Əntiqə-Şəkinskaya səhnədə çox qalsın. Sonra Əntiqə-Barat xanımın Misirxanovla və əri Abış Surxayeviçlə məzəli söhbətləri uzun müddət tamaşaçıların təfəkküründən silinməmişdir.

B. Şəkinskaya ilə şəxsi söhbətlərimdən birində mənə dedi ki; “Süleyman Rüstəm tamaşaya mənim ifamda baxdıqdan sonra rejissordan xahiş edib ki, Əntiqə obrazına söz əlavə edib finala salsın. Mən buna razı olmadım. Çünki rolun kiçik olduğumdan evə tez gedirdim”.

B. Şəkinskaya Əntiqəni səhnədə püxtələşdiyi dövrdə yaratdı. Onun ifasında Əntiqə ərköyün idi. Əri Abış Surxayeviçə Əntiqə-Şəkinskaya “Abulya”-deyə müraciət etməsi tamaşaçıya xüsusi zövq verirdi.

T. Həsənov “Azərbaycan gəncləri” qəzetində (16.03.1962.) “Nikbin ruhlu komediya” adlı məqaləsində yazır ki; “Respublikanın xalq artisti Barat Şəkinskaya və Leyla Bədirbəyli həyatın mənasını başa düşməyən anasının məsləhəti ilə “cavana gedib yumruq yeməkdənsə, qocaya gedib quyruq yeyim” deyə Abışı özünə ər seçmiş bu yelbeyin qızın surətini ustalıqla yaradırlar. Onların davranışlarındakı qəribəlik, danışıq tərzlərindəki uşaqcasına sadəlik real və təbiidir”.

Aktrisa B. Şəkinskaya Əntiqə obrazını ifa etməklə tamaşaçılarda yüngüllüyə, yelbeyinliyə, burnundan uzağı görməməyə, hər şeyə səthi yanaşmağa qarşı ikrah hissi yaratmışdır.

Müxtəlif tamaşalarda zəngin xarakterlər yaradan Yaxın Şərqin ən görkəmli sənətkarlarından biri olan Barat Şəkinskaya 1966-cı ildə fevral ayının 12-də böyük rus dramaturqu A. N. Ostrovskinin

1884-cü ildə yazdığı "Günahsız müqəssirlər" pyesində Kruçinina obrazını məharətlə yaratdı.

Artıq səhnədə klassik sənətkar səviyyəsinə yüksələn Barat Şəkinskaya Kruçininanın daxili zənginliyini, böyük insanlığını ilhamla yaratmışdır. Aktrisanın sənətkarlığı nəticəsində yaranan Kruçinina daxili həyacana və daxili ehtirasa malik obraz idi. B. Şəkinskaya Kruçinina obrazı ilə ilk çıxışından tutmuş, finala qədər tamaşaçıları ofsunlayırdı, sənətkarlığın nə olduğunu məharətlə nümayiş etdirirdi.

B. Nəbiyev "Kommunist" qəzetində (19.03.1966) yazır ki; "Respublikanın xalq artisti Barat Şəkinskayanın ifası Octrovskinin ən qüvvətli qadın obrazlarından sayılan Kruçininaya məhz bu cür yaradıcı münasibətin parlaq təzahürüdür. Baratın ifasında biz fədakar, nəcib bir qadının, vaxtsız itirdiyi oğlunu ömrü boyu axtaran kədərli bir ananın, gözəl bir dramatik aktrisanın parlaq obrazını görürük. Yelena İvanovna Kruçinina həyatın hər cür amansız təzyiqlərinə baxmayaraq özünü əsla itirməyən, murovların gözlənilməz hücumlarına qarşı mətanətlə sinə gərən, insanı dəhşətə gətirən dərin psixoloji sarsıntı anlarında belə müvazinətini saxlayan, ətrafdakılara təsir edəcək qədər ucalan bir qadındır. İkinci pərdədə Neznamovun onun əlini, Kruçininanın isə Qiriqorinin başını köksünə sıxıb hərarətlə öpdüyü səhnə aktyor oyunu cəhətdən çox təsirlidir. Hələ ana-bala olduqlarını bilməyən bu iki nəfərin ünsiyyətindən ana şəfqəti yağır, övlad məhəbbətinin hərarəti duyulur".

Tamaşanın finalında Barat xanım Kruçininanı xüsusi bir şövq ilə oynayırdı. O, oğlu Neznamovla (bu rolu xalq artisti Lütfi Məmmədbəyov ifa edirdi-İ.A.) görüşərkən aktrisanın daxili həyacanı üzünün cizgilərindən hiss olunurdu.

Kruçinina-Şəkinskaya oğlunu tanıyıb "Odur, odur!"-deyərək səndələyib huşsuz divana yıxılmasını unutmaq çətin idi. Sonra özünə gələn Kruçinina-Şəkinskayanın qarşısında Neznamov diz çökərək: "Anacan! Ana! Ana!"-deyirdi və aktrisanın gözlərindən süzülən yaş Neznamovun yanaqlarını isladırdı. Kruçinina-Şəkinskaya "Bəli, bu odur... Qrişadır. Mənim Qrişamdır. Nə böyük səadət. Dünyada yaşamaq nə yaxşı imiş"-deyərək oğlu Neznamovun başını

sığallaması ilə tamaşaçılara analıq kimi müqəddəs, pak bir hissi aşılayırdı.

Bu obraz ilə B. Şəkinskaya sənətkarlığın nə olduğunu tamaşaçılara göstərmiş, öz qəhrəmanı üçün xarakter cizgilər tapmış və tamaşaçıları da öz misilsiz ifası ilə valeh etmişdir.

1969-cu il mart ayının 29-da L. Məmmədbəyovun quruluşunda Raffaele Vivianinin "Çarəsiz dələduz" komediyası tamaşaya qoyulur və B. Şəkinskayada Donna Rozina obrazı tapşırılırdı, aktrisada onu böyük müvəffəqiyyətlə ifa etdi.

Ə. Ağayev "Kommunist" qəzetində (20.04.1969) yazır ki; "Donna Rozina surətinin yaradıcısı ... Barat Şəkinskayanın oyunundakı gözəl və rəngarəng cizgilər tamaşanın bütün ruhuna uyğun, aktyorların özlərinin yaradıcılıq yolunda isə bir yenilikdir.

Barat xanım səhnəmiz də yaratmış olduğu bir-birindən gözəl və rəngarəng obrazlar silsiləsi yaxşı yadımızdadır. Bu qüdrətli sənətkarın yaradıcılıq xəzinəsində müxtəlif səpgidən olan hər yeni obraz üçün təzə bədii ifa və ifadə vasitələri həmişə boldur. Onun ifasında donna Rozina surəti də təzədir, yeni bir yaradıcılıq nailiyyətidir. Qadın qəlbinin mürəkkəb aləmini, analıq duyğularını və eyni zamanda xarakterin formalaşdığı ictimai şəraitlə əlaqəsini üzə çıxarmaq və tamaşaçılara çatdırmaq bacarığını Barat xanım donna Rozina surətində bir daha göstərmişdir".

İ. Kərimov "İlk dəfə Azərbaycan səhnəsində" adlı ("Bakı" qəzeti, 25.04.1969) məqaləsində yazır ki; "Donna Rozina rolunu respublikanın xalq artisti Barat Şəkinskaya bacarıqla yaradır. Onun qəlbində övladını dərin məhəbbətlə sevən, onun biabırçılığına dözə bilməyən bir ana ürəyi döyünür".

Kruçininadan sonra donna Rozina kimi dolğun ana obrazı yaradan B. Şəkinskaya ayrı millətlərdən olan bu anaları öz sənətkar qəlbində bəsləmiş və tamaşaçılara təqdim etmişdir.

1970-ci il sentyabr ayının 19-da Serb nasiri və dramaturqu Branislav Nuşiçin "Nazirin xanımı" komediyası T. Kazımovla Ə. Şərifovun quruluşunda tamaşaya qoyuldu və Barat Şəkinskaya

da Akademik Milli Dram Teatrının səhnəsində son rolu olan Jivka obrazını ifa etdi.

B. Nuşçinin "Nazirin xanımı" komediyasında ifa etdiyi Jivka obrazı ilə Barat xanım tamaşaçılara aktyor sənətinin incəliklərini bir daha nümayiş etdirdi.

B. Şəkinskayanın ifasında Jivka adi çinovnikin həyat yoldaşından nazir xanımına qədər "şöhrətli" həyat yolu keçən ədalı, meşşan bir qadın idi.



*"Nazirin xanımı" tamaşasından səhnə.*
*Vasya dayı – A.Gəraybəyli, Jivka – B.Şəkinskaya*

Barat Şəkinskaya xatirələrində yazır ki; "...B. Nuşçinin "Nazirin xanımı" tamaşasında Jivka, yəni nazirin xanımı hər dövr, hər cəmiyyət üçün səciyyəvidir. Bu qadının nə xüsusi vətəni, nə müəyyən yaşı var. Azğın, qudurğan adam hər vaxt, hər yerdə mövcuddur. Hətta mən Tofiq Kazımovdan çox xahiş elədim ki, bu əsəri müasirləşdirək. Razı olmadı. Heyif. Mövsümün axırı idi. Tamaşanı yayın ortalarında tələm-tələsik hazırladılar ki, 70 illk planına düşsün. İyul ayı baxış tamaşası verildi, tamaşa qəbul edildi, yeni mövsüm başlananda ala yarımçıq məşqdən sonra oynadıq".

N. Əbülfəzoğlu "Əsil" nazir xanımı" ("Ədəbiyyat və incəsənət" qəzeti, 14.11.1970) adlı məqaləsində aktrisanın fövqaladə

ifası haqqında yazırdı; “Barat Şəkinskayanın Jivkası tamaşada özünün dolğun səhnə həllini tapmışdır. Bu rol Barat xanımın yaradıcılığının yeni nailiyyəti kimi qiymətləndirilməlidir. Aktrisa obrazın daxili əlamətlərini tədricən biruzə verdiyinə görə keçirdiyi hiss və həyacanlar olduqca təbii çıxmışdır. Jivka-B. Şəkinskaya mənsəbpərəstdir. Bu da onu lovğalığa özündən başqa heç kəsi bəyənməməyə gətirib çıxarır. B. Şəkinskayanın ifasında Jivka “əsil” nazir xanımıdır. Nazir xanımının isə mütləq aşnası olmalıdır, o, papiros çəkməyi bacarmalıdır. Bir sözlə o, əylənməli və nəşələnməlidir. Jivka-B. Şəkinskaya Doktor Ninkoviçdən bu sözləri eşitdikcə sanki xumarlanır, özlüyündə buna həm bəraət qazandırır, həm də...

O, ətrafındakılara qarşı münasibətində həddindən artıq sərtdir. Bəzən bu sərtlik kobudluq dərəcəsinə çatır. Aktrisa sadaladığımız bu detalları ustalıqla tamaşaçılara çatdırır”.

X. Əlimirzəyev “Kommunist” qəzetində (18.11.1970) yazır ki; “Komediyada cərəyan edən bütün hadisələrin canı və məhvəri olan Jivka obrazını respublikamızın xalq artisti Barat Şəkinskaya oynayır. Aktyor başdan-ayağa şan-şöhrət xəstəliyinə tutulmuş bu obrazla bağlı olan ictimai ideyanı, onun əsərdəki mövqeyini, xarakterini, fərdi xüsusiyyətlərini yaxşı başa düşmüşdür. Tipin həm ictimai, həm də fərdi simasını hər tərəfli acmaq üçün inandırıcı orijinal boyalar tapmış, yadda qalan kaloritli bir obraz yaratmışdır. Böyük səhnə təcrübəsinə, zəngin hərəkət və ifadə vasitələrinə malik olan Barat xanımın maddi və ictimai vəziyyəti dəyişdikdən sonra Jivkanın xarakterində baş verən təbəddüaltı, çılğınlığı ustalıqla açır, ərinin vəzifəsindən addımbaşı istifadə edən bu qadının qudurğanlığını zahiri cəhətdən deyil, onun mənəvi aləmindən, komik məzmunundan çıxış edərək tamaşaçıya çatdırır. O bütün anlarda səhnə sənəti üçün vacib olan müvazinəti, bədii məntiqi, təbiiliyi pozmamağa, obrazın yaşına, xarakterinə, daxili imkanlarına, mənliyinə uyğun şəkildə hərəkət etməyə çalışır. Məqsədinə çatmaq üçün heç nədən çəkinməyən, ağılsız hərəkətlər edən, haldan-hala düşən Jivka-Barat xanım təkcə öz gülünc təbiətini deyil, həm də həsrətində olduğu şan-şöhrət aləminin, kübar cəmiyyətinin saxta, riyakar

qanunlarını ifşa edir, bu mühitin büsbütün çürük, iyrənc olduğunu açıb göstərir. Jivka obrazı haqqında danışarkən, onu da qeyd etmək lazımdır ki, bu qadın komediyada əsas tənqid və gülüş hədəfi olsa da, insani ləyaqətini, mənliyini tamamilə itirmiş, daxilən ölmüş bir fərd deyildir. Yüksək cəmiyyətə doğru irəliləyərkən bunun qəlbində kəskin mübarizə gedir. O öz namusundan, ismətindən, təmiz adından heç də asanlıqla əl çəkə bilmir. Obrazın bu xüsusiyyətini kübar qaydalarını öyrənmə sahəsində özünü daha qabarıq şəkildə göstərir. Kübar aləminin çirkin əxlaq normaları ilə üz-üzə gəldikdə o, tərəddüd edir, tez-tez ikiləşir, odla su arasında qalır. Bu, onun həyatının ən ziddiyyətli, ən böhranlı səhnəsidir".

Yarım əsrə yaxın bir müddətdə bir-birinə zidd olan azərbaycan, rus və qərbi-avropa dramaturqlarının əsərlərində qadın qəhrəmanlarını böyük şövq və yüksək sənətkarlıqla ifa edən əfsanəvi aktrisa Barat xanım Şəkinskayanın Akademik Milli Dram Teatrının səhnəsində son rolu olan Jivkanı səhnədə kamilləşdiyi bir dövrdə yaratdı, bənzərsiz ifası ilə tamaşaçılara zövq verdi.

Barat Şəkinskaya 1970-1971-ci illərdə H. Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrında çalışıb, fıtrı istedadı ilə kollektivin hüsni-rəğbətini qazanıb.

Aktrisa xarirələrində yazır ki; "70-ci illər Sumqayıt teatrının kollektivi hələ əlavə pul qazanmaq yerlərin tanımırdılar. Ona görə çox həvəs, məhəbbət ilə çalışır, heç yerə tələsmirdilər... Bu kollektivin yaşlı nəsli: Həsən Qara, Məmməd Cəfər, Manya xanım, başda da Əfqanlı var idi. Gənclər isə hamısı teatr institunun məzunları idi. Ağakişi Kazımov gənclərlə dil tapıb, maraqla işləyirdilər. Mən orada Əfqanlının cavanlarla çox ciddi məşğul olduğunu gördüm".

B. Şəkinskaya Sumqayıt Dövlət Musiqili Dram Teatrının səhnəsində Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsində Mələk xanım (rej. A. Kazımov, 16.05.1970); S. Rəhmanın "Toy" komediyasında Zalxa (rej. A. Kazımov, 07. 07.1970); A. Babayevin "Mənim məhəbbətim" əsərində Hicran (rej. A. Kazımov, 27.03.1971) rollarını ifa edib.

Barat xanım xatirələrində yazır ki; “1971-ci ilin avqust ayını onlarla yay qastrolunda, bir ayda 31 tamaşa oynadıq, bütün Muğanı gəzdik. Bu kollektivin Əfqanlıya və mənə etdikləri hörmət yaddan çıxa bilməz”.

Sumqayıt Dövlət Musiqili Dram Teatrında B. Şəkinskaya N. Vəzirovun “Müsibəti Fəxrəddin” faciəsindəki Mələk xanım obrazı epizodik rol olmasına baxmayaraq aktrisanın ifasında əsas perisonajlardan birinə çevrilmişdir.

A. Babayev “Ədəbiyyat və incəsənət” qəzetində (30.05.1970) “Zülmətdə nur” adlı məqaləsində yazır ki; “Barat xanım istəkli oğlu Fəxrəddinin ağ gününü arzulayan, lakin feodal çəkişmələrinin əsarətindən qurtara bilməyən bir ananın xarakterindəki ikiliyi, ürəyindəki böhranı məharətlə göstərə bilir”.

Aktrisa Mələk xanım obrazı ilə əsrimizin əvvəlində ki, ananın daxili aləmini sənətkarlıqla açırdı. Mələk xanım-Şəkinskaya səhnədə iki dəfə görünürdü. Bir ikinci məclisdə və bir də final səhnəsində. Final səhnəsində Barat xanımın ifasını yazmağa qələm acizdir. Oğlu Fəxrəddinin faciəsi müqabilində Mələk xanım-Şəkinskayanın ifası tamaşanın əsas təsiredici qüvvəsi idi.

“-Su vermək olmaz, Şahmar, Şahmar! Dur qəbirdən Heydər, dur qəbirdən özünü mənə yetir, Heydər. Heydər gəl, göz əziz balan nə gündədir? Nə halətdədir, Heydər! Uy, ciyərim yandı”.-deyib qəşş atməsi Mələk xanım-Şəkinskaynın ifasına tamaşaçılar baxdıqda günahsız oğul itirmiş ananın dərdinə ürəkdən acıyırdı və bu hadisənin səhnədə baş verdiyinə inanmırdı.

Mələk xanım-Şəkinskaya qəşş edib ayılandan sonra sərsəm sifətində “-Yanıram, vallah yanıram, billah üstümə su tökün başınıza dönüm!.. Heydər, Heydər... Gəl, gəl Şahmar qoyma, evimizə od düşüb! Ay aman, yandıq, yandım, yandım, yandım, allah!”-deyib hıçqırıqlar içində yenidən qəşş edib yıxılan, acı günlərində əri Heydəri köməyə çağıran Mələk xanım-Şəkinskaya oğlunun faciəsində yenə də ərini köməyə çağırırdı. Lakin...











*B.Şəkinskaya müxtəlif illərdə*

Oğlunun faciəsinə dərindən sarsılan bədbəxt ananı Barat Şəkinskaya Mələk xanım obrazı ilə yana-yana yaratmışdır.

1971-ci il mart ayını 27-də Barat xanım Sumqayıt teatrının səhnəsində A. Kazımovun quruluşunda A. Babayevin "Mənim məhəbbətim" pyesində Hicran obrazını ifa etdi.

R. Heydər "İlk məhəbbət kor olanda..." ("Azərbaycan gəncləri" qəzeti, 01.06.1971) adlı məqaləsində yazır; "Hicrana-(Barat Şəkinskayaya) illərdən bəri zəhmətini çəkdiyi, böyüyüb başa çatdırdığı Mirvarinin dilindən belə ağır sozlər eşitmək, əlbətdə çox ağırdır. Lakin Hicran təmkinini itirmir, ehtiyatla, səbrlə qızının taleyini izləməkdə davam edir, onu hər cür qəza-qədərdən, bədbəxtlikdən qorumağı özünə analıq borcu bilir.

Respublikanın xalq artisti Barat Şəkinskaya Hicranın bu alicənab təbiətini qayğıkeşliyini, ana məhəbbətini daxili hərarətlə, gərgin psixoloji vəziyyətlərlə açıb göstərməyə hail olmuşdur. Tamaşaçı onun ifasında gözəl, həsas ana təcəssümünü görür".

Bir-birinə bənzəməyən ana obrazlarını məharətlə yaradan Barat Şəkinskaya Hicranın daxili aləmini bacarıqla açmiş və onu Sumqayıt zəhmətkeşlərinə sevdirməyə müvəffəq olmuşdur.

Barat Şəkinskaya 1978-ci il mart ayının 1-də Akademik Milli Dram Teatrıdan təqaüdə çıxır. Teatr onun getməsinə razı olmasada aktrisa sözündən dönmür. Bir neçə dəfə rejissorlar onu yeni tamaşalara dəvət etdilər. Lakin Barat xanım qəti etiraz etdi.

Səhnə ilə vidalaşan Barat Şəkinskaya tamaşaçıların yaddaşına klassik səhnə xadimi kimi həkk olundu.

Aktrisa xatirələrində yazır; "Azərbaycan səhnəsinin ən görkəmli sənətkarları ilə işləmişəm. Sovet və dünya dramaturqlarının ən yaxşı əsərlərinin qəhrəmanı olmuşam. Partiya və hökümət mənim zəhmətimi qiymətləndirib. Hələ 1940-cı oldə 26 yaşında mənə respublikanın əməkdar artisti, 1949-cu ildə, 35 yaşımda Azərbaycanın xalq artisti fəxri adı verilmişdir.

Orden və medallar, fəxri fərmanlar almışam.

1974-cü ildə Azərbaycan teatrının 100 illiyi bayramında şəxsən mənim də əməyim qiymətləndirilmişdir. Uşaqlarımdan da razı-

yam. Hər kəs özünə mənim arzu etdiyim sənəti seçib...

İndi teatra gedirəm, kinoya baxıram. Hərdən də... necə deyərlər, könlüm istəyəndə radio və televiziya verlişlərində iştirak edirəm".



*Barat Şəkinskaya və kitabın müəllifi İmran Axundov*
*(1995-ci il)*

Görkəmli səhnə ustası Barat xanım Şəkinskayanın fövqaladə aktyorluq məharəti onun müasiri olan tamaşaçıların indi də xatirindədir. Bizim müasir nəslə gəldikdə isə o dövrün klassik sənətkarlarının ifasını biz ancaq o vaxt çəkilmiş filmlərə baxdıqda xatırlayır və onların böyük sənətkarlığına heyranlıqla tamaşa edirik.

Barat Şəkinskaya o dövrün sənətkarlarından biri kimi teatrda ifa etdiyi yüzlərlə obrazların demək olar ki, heç biri lentə köçürülməyib. Nə yaxşı ki, milli kinomuz var. Barat xanım kimi o dövrün sənətkarının letin yaddaşına köçən barmaqla sayılan rollarını qiymətli xəzinə kimi saxlayır və gələcək nəsillərə göstərir, qürur hissi keçirirlər ki, bizim teatrımız və kinomuz elə sənətkarların çiyinlərində yüksəlib.

# VI FƏSİL

## AKTRİSA VƏ KİNO

XIX əsrin conu, XX əsrin əvvəllərində kinomatoqrafiyanın yaranması Rusiyanın Peterburq, Moskva və başqa şəhərlərdə də sürətlə inkişaf etməyə başladı.

Azərbaycan kinosu 1916-cı ildə "Neft və milyonlar səltənətində" və 1917-ci ildə "Arşın mal alan" filmlərini yaratdı.

1923-cü ildə ilk dəfə "Qız qalası" adlı tam metrajlı film çəkildi. Sonralar "Bayquş" (1924) uğursuz filmi ekranlara buraxılmadan dayandırıldı. Azərbaycanın görkəmli faciə aktyoru Abbasmirzə Şərifzadəni bu uğursuzluq həvəsdən salmadı və 1925-ci ildə çəkdiyi "Bismillah" filmi ekranlarda göstərildi.

Sonralar "Vulkan üzərində ev" (1927), "Gilan qızı"(1928), "Hacı Qara" (1929), "Sevil" (1929), "Lətif" (1930), "İsmət"(1934), "Məhəbbət oyunu" (1935), "Almaz"(1936), və s. filmlər tamaşaçıların sərəncamına verildi.

Bütün bu çəkilən filmlər elə bir vaxta çəkilib ki, tenika son dərəcə zəif inkişaf etmişdir və çəkilən filmlər səssiz idi.

1938-ci ildə V. Turin "Bakılılar" filmini və 1939-cu ildə Səməd Mərdanov "Kəndlilər" filmini çəkirlər. Bu çəkilmiş gözəl sənət nümunələri indi də ekranlarda nümayiş etdirlir və həyatdan köçmüş sənətkarları bir daha bizə xatırladır.

Milli kinomuzun inkişafı əllinci illərdən sonra öz tərəqqi dövrünü yaşamış, bir-birindən dərin mənalı ekran əsərləri yaranmışdır.

Şübhəsiz ki, Azərbaycan kinosunun yüksək inkişafında teatr aktyorlarınında rolu əvəzsizdir. İndi böyük aktyor nəslinin tanınması üçün kinomuza həmişə minnətdar olmalıyıq.

M. A. Əliyev, S. Ruhulla, A. Gəraybəyli, R. Əfqanlı, K. Ziya, P. Tanailidi, R.Təhmasib, M. Mərdanov, M. Sənani, Ə. Qurbanov,

A. Cavadov, M. Davudova, İ. Hidayətzadə, Ə. Ələkbərov, Ə. Məmmədova, S. Hacıyeva, İ. Dağıstanlı, H. Qurbanova, A. İsgəndərov, L. Bədirbəyli, İ. Osmanlı, A. D. Qurbanov, Ə. Zeynalov, Ə. Ağayev, M. Şeyxzamanov, M. Məmmədov, F. Fətullayev, S. Bəsirzadə, H. Salayev, N. Məlikova, Ə. Əliyeva, M. Dadaşov və başqa Akademik Milli Dram Teatrının bənzəriz sənətkarları Azərbaycan kinosunda son dərəcə təkrarsız, yaddaqalan, unikal obrazlar yaratmışlar.

Bu görkəmli sənətkarlarla çiyin-çiyinə işləmiş, xalq artisti Barat xanm Şəkinskayanında milli kinomuzdakı rolu göz qabağındadır.

Azərbaycan kinosunda müxtəlif xarakterli rollar yaratmış B. Şəkinskaya, hər ifa etdiyi obraza ürəyinin qanını vermişdir. Lakin aktrisa heç vaxt kinoya çəkilməyə can atmayıb. Bəlkə də marağı olsaydı onlarla film də qəhrəman qadın obrazları yaradardı, teatr da oldurğu kimi...

B. Şəkinskaya öz kino fəaliyyəti haqqında yazır ki; "Mən özümü kino aktyoru saymıram. Belə ki, məni kinoya çəkilməyə dəvət edən rejissorlara da həmişə demişəm ki, sifətcə azərbaycanlı qadınına az oxşadığım üşün bu mənə ekran obrazı yaratmağa mane olacaq. Bir də ki, teatr aktyoru üçün obrazın həyatı bir proses kimi davam edir, onun imkanı olur ki, obrazı əvvəldən axıra kimi yaşasın və bunu tamaşaçıyada çatdırsın. Lakin kino aktyoru bundan məhrumdur".

1955-ci ildə Barat Şəkinskayanın milli kinomuzda çəkildiyi ilk rolu "Görüş" (ssenari Ə. Qulubəyov və N. Pozina) filmindəki Şövkət obrazıdır. Bu film Tofiq Tağızadənin ilk işi idi. T. Tağızadə Barat xanımı ilk dəfə kinoya dəvət etdi və aktrisada onun etimadını doğrultdu.

B. Şəkinskayanın "Görüş" filmindəki yaratdığı Şövkət kolxozçudur. Şərəfli əməklə yaşamağı bacaran insandır. O, əri Şıxəlini zəhmətə, düzlüyə çağıran əsl azərbaycanlı qadınıdır.

Aktrisa ilə şəxsi söhbətlərimin birində mənə dedi ki, bu obraz elə xoşuma gəlmişdir ki, teatra da Şövkətin paltarında gəlirdim.

Məmməd Mərdanov və Nazim Sadıqov "Azərbaycan teatr aktyorları kinoda" (1966) adlı kitabında yazırlar ki; "Görüş filmindəki kolxozçu Şövkət-B. Şəkinskaya kəndin qabaqcıl və nəcib adamları ilə birlikdə, namus və şərəflə çalışan qadındır. O, ərinin onun hesabına dolanmasına adət etmişdir. Bu filmin birinci yarısında B. Şəkinskayanın sifətindəki gizli ironiya cizgiləri ilə arabir özünü büruzə verir. Həmişə sakit və təmkinli görünən-B. Şəkinskaya özündə nə isə bir ağırlıq və nigarançılıq hiss edir. Bu narahatlıq onun əri Şıxəlinin tənbəlliyindən üz verir. Şıxəli "ayrılıq" epizodunda nə qədər çığır-bığır salırsa, Şövkət-B. Şəkinskaya bir o qədər təmkinlidir. Şövkət-B. Şəkinskaya bu epizodlarda bir dəfə köks ötürür. Bunu aktrisa elə məharətlə ifa edir ki, tamaşaçı onun dərdinə qalır, nigarançılığa inanır. Budur, həmişə sakit görünən, ərinin itaətində olan Şövkət-Şəkinskaya qəti hücuma keçmişdir. O, ərinin düzəlməsinə, çayxanadan əl çəkməsinə, əmək sevməyən Əbülfəzdən ayrılmasına və işdən yapışmasına çalışır. Şövkət-Şəkinskaya artıq ərinin öz yoldaşları ilə görüşməsinə mane olur. Şövkət-B. Şəkinskaya ərinin qüvvətinə, iş bacarığına inanır. O, ərinə sadiqdir.



*Şövkət – B.Şəkinskaya,*
*Şıxəli – Ə.Ağayev*
*("Görüş" filmi)*

Bütün bunları B. Şəkinskaya çox inandırıcı, real, xırda hərəkət və detallarla səmimi gülüş doğura bilən ustalıqla həll edir.

Budur, yarış dostları-Özbəkistan kolxozçuları qonaq gəlmişlər. Kolxozda böyük şənlikdir. Şənlikdə əmək qabaqcıllarından biri olan Şövkət-B. Şəkinskayanı özbək kolxozçularından biri rəqsə dəvət edir. Şövkət-B. Şəkinsaya rəqsə qalxır, o, bundan da ərinin düzəlməsi üçün istifadə edir. Rəqsə bir o qədər də meyli olmayan Şövkət-B. Şəkinskaya həyətin o başından gələn ərinin nəzərləri altında elə bacarıqla süzür, elə oynayır ki, ərini sarsıdır, onu düşünməyə vadar edir və indi daha öz oğrun baxışlarını ondan çəkmir. Rəqs edir, baxışları ərinin-Şıxəlinin (akt. Ə. Ağayev) baxışları ilə toqquşanda isə sanki, onu yoxlayır və "səndən əl çəkə bilərəm, mənim ətrafımda şərəfli əmək adamları olmalıdır" deyir.-Bunlar Baratın ifasında olduqca səmimi və inandırıcıdır".

Azərbaycan kinosunda ilk dolğun obaz yaradan Barat xanım Şəkinskayanın ifası bu gün də öz təravətini saxlamışdır. Çünki, o, Şövkəti sevərək, ona öz qəlbinin hərarətini verərək yaratmışdır. Şövkət-Şəkinskayanı tamaşaçıya sevdirən onun bacarığı və zəhmətsevərliyindən başqa həm də gözəlliyi idi. Aktrisanın ifası, onun daxilində gizlənmiş temperament obazı incəliyinə qədər açmağa imkan yaradırdı.

Beləliklə, "Görüş" filmindəki Şövkət B. Şəkinskayanın ifasında Azərbaycan kinosunda yaranmış ən bitkin obrazlardan biridir.

1956-cı il də Azərbaycan milli kinomuzun ən gözəl sənət nümunələrindən biri olan dahi Üzeyir Hacıbəyovun 1910-cu ildə qələmə aldığı "O olmasın, bu olsun"("Məşədi İbad") komediyası görkəmli rejissor Hüseyn Seyidzadənin quruluşunda ekranlaşdırıldı və tamaşaçılara təqdim olundu.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov yazır ki; "Bu komediya təkcə Üzeyir Hacıbəyovun yaradıcılığında deyil, bütün Azərbaycan ədəbiyyatında ən yaxşı komediyalardan biri olmaqla həm məzmunu, ideyasının dərinliyi, ifşaçılıq qüvvəsi cəhətdən həm də bədii keyfiyyətləri ilə klassik səviyyəyə qalxır. Burada da müəllif zəmanəsi üçün səciyyəvi olan mütərəqqi və mürtəce qüvvələr arasındakı mübarizəni dramatik konfiliktin mərkəzinə qoymuşdur".

Məhz bu keyfiyyətlərinə görə Ü. Hacıbəyovun "O olmasın, bu olsun" komediyası əsrlər keçdikcə öz təravətini itirməyəcəkdir və onun üzərinə heç bir solğunluq tozu qonmayacaqdır.

"O olmasın, bu olsun" filminə Azərbaycan teatrının görkəmli aktyorlarının əksəri çəkilib. İstər birinci, ikinci və üçüncü dərəcəli rolları ifa edən aktyorların hamısı elə böyük sənətkarlıq göstəriblər ki, neçə on illiklər keçməsinə baxmayaraq filmə baxan tamaşaçılar o dövrün sənətkarlarını böyük ehtiramla yad edirlər.


*B.Şəkinskaya – Sənəm rolunda*

Azərbaycan kinosunun incisi olan bu nadir ekran əsərində Barat Şəkinskaya qulluqçu Sənəmi böyük sənətkarlıqla tamaşaçılara təqdim edirdi. Sənəm-Şəkinskayanın ifasında əvəzsiz idi. Aktrisa Sənəmi ifa edərkən hiss olunur ki, obrazın daxilinə düzgün nüfuz etmiş və qəhrəmanını hər adımda tamaşaçılara sevdirmişdir.

Sənəm müfsizləşmiş Rüstəm bəyin (bu rolu xalq artisti A. Gəraybəyli ifa edirdi-İ.A.) qulluqçusu idi. O, Rüstəm bəyin qızı Gülnazı balası kimi böyütmüşdür. Əsərdə Sənəm kimsəsizdir, o, sadəcə olaraq qulluqçudur. Lakin Üzeyir bəyin zəkasından və Barat xanımın ifasından yaranan Sənəm obrazını tamaşaçı istər-istəməz ana kimi görürdü. Çünki o, Gülnazı həqiqətən öz balası kimi böyütmüşdür. Bu əsasən Sənəmin Gülnazla birlikdə Məşədi İbadla görüş səhnəsində aydın görünürdü. İçəri daxil olanda Sənəm-Şəkinskaya Gülnazın əlindən tutur. Qorxur ki, qoca baqqal olan Məşədi İbad qızı onun əlindən alar.

Aktrisanın ifasında Sənəm həm də duzlu idi. Onun hər epizodu tamaşaçıların gülüşünə səbəb olurdu. Lakin bu adi gülüş deyildi,

inandırıcı, düşündürücü gülüş idi. Barat Şəkinskayanın sənətkar kimi böyüklüyü onda idi ki, yaratdığı bütün ekran obrazları tamaşacıları düşündürməyə, qəlbinin güzgüsünü onlara göstərməyə və bu güzgüdən hər bir insanın mənfi və müsbət çəhətini görməyə səsləyirdi.

M. Məmmədov və N. Sadıxov (1966) yazırlar ki; "Sənəm obrazı B. Şəkinskayanın yaradıcılığında kiçik, lakin dərin mənalı kino roludur. Sənəm-Barat Şəkinskaya hüquqsuz alınıb satılan bir insandır. Lakin bu insanın da öz hissi, adamlara münasibəti, pərvanə kimi başına dolanıb isnişdiyi adama hörməti vardır. Filmdə Rüstəm bəyin:

-Gülnaz bu evdən köçən kimi, sən də yığışıb rədd olub gedəsən-ibarəsindən sonra onsuz da Sənəmin qəlbinin dərinliklərində sığınıb qalan dərdi kövrəlir. Barat Şəkinskaya zülmət altında inləyən Azəri qadınlarının qəmli fikirlərini ümumiləşdirmə yolu ilə aparır. Bu epizodda Sənəm-B. Şəkinskaya təbii, səmimi və realdır.

Gülnazla Sərvərin görüş epizodlarından Sənəm-B. Şəkinskaya, onların səadətini arzulayan bir qadın kimi nəcib, pak və oynaqdır.

Filmin finala yaxın hissəsində Gülnaz qaçırılandan sonra Sənəmin-Şəkinskayanın qapı dalında çarşaba bürünüb hazır dayanaraq əmr gözləməsi və sonra Məşədi İbada ərə getmək üçün razılıq verməsi, əzilən yenə məzlum xalq, təhqir olunan da məzlum xalqdır-deyə aktyorun ifasında sanki, səslənəcək bütün obrazın leytmotivinə çevrilir.

Bu leytmotivdə, əzab və əziyyət içərisində çırpınan Şərq qadınlarının iniltili sədaları, böyük musiqiçinin təranəsinə qarışaraq obrazın daxilindən gələn "ah"la, razılıq əlaməti olaraq, cavab gözləyənlərə Sənəmin-B. Şəkinskayanın "hə, hə" deməsi sarsıdıcıdır. Burada, Baratın mimikası və başının tərpətməsi, istedadlı müğənninin (Ş. Ələkbərovanın) yanıqlı səsi kömək olur.

Xırdalıqlarla dolu sifət ifadələri, dəqiq və əvəz edilməz plastika, incə nüanslar B. Şəkinskayanın yaradıcılığına xas olan gözəl keyfiyyətlərdir".

Göründüyü kimi rejissor H. Seyidzadə Sənəm rolunu Barat xanıma tapşırmaqla milli kinomuzu mükəmməl qadın obrazı ilə zənginləşdirmişdir.

Aktrisa xatirələrində yazır ki; "Mən çox xoşbəxtəm ki, "O olmasın, bu olsun" kinokomediyasında çəkilmiş, dahi bəstəkarımızın əsərinin ekranlaşdırılmasında öz aktyor həmkarlarımla birgə yaxından iştirak edə bilmişəm. Əlbəttə mən ekran qəhrəmanlarımında səhnə obrazlarım qədər dolğun və yaddaqalan olmasını istəyirdim..."

Yazdığınız həqiqərdir Barat xanım! Kino da yaratdığınız Şövkət və Sənəm obrazları, teatrda tamaşaçıların qəlbini fəth etdiyiniz Cülyetta, Aida, Kordeliya, Viola, Dezdenona, Şirin, Mirondalina kimi daim yadda qalacaq və mədəniyyətimizin tarixində yerinizi hər an möhkəmlədəcəkdir.



*B.Şəkinskaya – Tükəzban rolunda*

1957-ci ildə H. Seyidbəylinin ssenarisi əsasında Lətif Səfərovun çəkdiyi "Qızmar günəş altında" filmi ekranlara buraxıldı. Rolun böyük və kiçik olması aktrisanı maraqlandırmırdı. Barat xanımı həmişə, tamaşaçıya yeni söz demək, yeni ruh vermək düşündürürdü. Və görkəmli sənətkar buna müvəffəq olurdu.

"Qızmar günəş altında" filmində B. Şəkinskaya kəndin savadsız hakminin bacısı və öz mənafeyini güdən kolxoz sədri Sərdarovun arvadını ifa edirdi.

Bu filmdə Barat xanımın yaratdığı obraz epizod idi. Lakin aktrisa dayaz düşüncəli, burnundan uzağı görməyən ucqar kənd qadının surətini yarada bildi. Filmdə aktrisanın oyun manerası, cəldliyi, obrazın daxilinə düzgün nüfuz etməsi tamaşaçıya böyük zövq verirdi və aktrisanın böyüklüyü teatr da olduğu kimi, kino da da təsdiqlənirdi.

Barat xanım 1958-ci ildə "Kölgələr sürünür" filmində katibə (ssenari Q. Musayev, rej. İ. Əfəndiyev); 1961-ci ildə "Qəribə əhvalat" qısametrajlı filmində Tükəzban (ssenari M. Allahverdiyev

və Y. Sadokovski, rej. Ş. Şeyxov); 1962-ci ildə "Telfonçu qız" filmində Zakirin anası (ssenari H. Seyidbəyli və İ. Annenski, rej. H. Seyidbəyli); 1978-ci ildə "Evin kişisi" filmində Yaşlı qadın (ssenari İ. Məlikzadə, rej. T. Tağızadə); 1980-cı ildə "Onun bəlalı sevgisi" filmində Nənə (ssenari B. Bayramov və İ. Strekov, rej. Z. Abbasov) kimi obrazlar yaratmışdır.

1962-ci ildə B. Şəkinskaya "Telfonçu qız" filmində Zakirin anası roluna çəkildi. Bu obraz ilə aktrisa öz səmimiliyi, Azərbaycan qadınına xas olan mədəniyyəti və sözün həqiqi mənasında mükəmməl bir ana obrazını tamaşaçılara təqdim etdi.



*B.Şəkinskaya – Nənə rolunda*

1980-ci ildə aktrisa "Onun bəlalı sevgisi" filmində son dərəcə ziyalı, ağıllı, tərcüməçi bir nənə obrazını yaratdı. B. Şəkinskayanın ifa etdiyi nənə üzündən nur yağan, geniş təfəkkürə malik olan qələm sahibi idi. Yaşının müəyyən dövrdə olmasına baxmayaraq Barat xanım ifa etdiyi bu ağ saçlı qadın Azərbaycan analarının ümümiləşdirilmiş obrazı idi.

B. Şəkinskaya üçün ifa etdiyi obazın hansı təbiətə malik olması əsas şərt deyildi. Cünki Aktrisa üçün roldan-rola girmək, hər dəqiqə müxtəlif hallara düşmək adi hal idi. Ona görə də teatrda olduğu kimi Barat xanımın ekran qəhrəmanlarıda bir-birlərindən kəskin fərqlənirdi.

Barat xanım Şəkinskaya kimi nadir istedad sahibi gərək kino yaradıcılığına daha cox diqqət yetirərdi. Çünki indi ki, nəsil böyük sənətkarın özünü, onun bənzərsiz ifasını məhz ekranda görür və qürur hissi keçirirlər ki, belə bir aktrisa məhz azərbaycanlıdır.

1999-cu il yanvar ayının 13-də Barat xanım 85 yaşında dünyasını dəyişdi. Mən bu acı xəbəri axşam televiziya vasitəsi ilə eşitdim. Və o, soyuq qış axşamında onlara getdim. Evlərində Azərbaycan mədəniyyətinin bir çox görkəmli nümayəndələri toplanmışdır. Oğlu, görkəmli rəssam Elçinə baş sağlığı verib, geri qayıtdım. Səhərisi yanvarın 14-də Barat xanımla Akademik Milli Dram Teatrında vida mərasimi oldu. Mərasimdə dövlət və hökumət nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri ilə yanaşı sadə insanlar da toplaşmışdılar. Fəxri qarovulda dayananların arasında mən də var idim. Barat xanımın ifa etdiyi “Otello” və “Fərhad və Şirin” radio tamaşalarından parçalar səsləndirildi. Sonra mətəm mitinqini baş nazirin müavini açıq elan etdi. Barat xanım haqqında xalq artistləri Məhluqə Sadıqova, Lütfi Məmmədbəyov, Yaşar Nuri və başqa şəxslər xatirələrin danışdılar. Matəm mintinqi bağlı elan ediləndən sonra cənazə ikinci fəxri xiyabanda torpağa tapşlırdı. Azərbaycan mədəniyyəti özünün bir böyük sənətkarınıda itirdi.

# NƏTİCƏ

Barat xanım Şəkinskayanın sənəti səhnəmiz və kinomuz üçün böyük əhəmiyyətə malikdir. Ona görə ki, bu sənət sağlam əsaslar üzərində yaranmış, böyümüş və inkişaf etmişdir. Mən Barat xanım haqqında ona görə əhatəli danışmağı qarşıma məqsəd qoydum ki, o, sözün tam mənasında böyük bir sənətkardır.

B. Şəkinskayanın istər teatr da, istərsədə kinoda yaratdığı obrazlar Azərbaycan mədəniyyətinin nadir inciləridir. Çünki onun qəhrəmanları zahiri effektdən çox uzaqdır. O, öz istedadını obraza düzgün münasibətdə səhnədə və ekranda yaşayaraq, yaratmağa sərf etmişdir.

Aktrisanın sənətkar qəlbinin məhsulu olan bu səhnə və ekran qəhrəmanları tamaşaçıları düşündürən mükəmməl, dərin obrazlardır. B. Şəkinskayanın ifa etdiyi obrazlar geniş dünya görüşünə malik insanlardır.

Barat Şəkinskayanın Azərbaycan teatrı tarixində yeri heç vaxt unudula bilməz. Nə qədər teatr və kinomuz var, Barat Şəkinskayada var!

*Bakı*
*1994-1999.*

# BAŞLIQLAR

GİRİŞ ..........................................................................................5

I FƏSİL
Aktrisanın həyatı və ilk səhnə fəaliyyəti........................................6

II FƏSİL
Aktrisa və Gəncə Teatrı ...............................................................10

III FƏSİL
Aktrisa Akademik Milli Dram Teatrının səhnəsində.....................14

IV FƏSİL
Aktrisa repressiya illərində ..........................................................28

V FƏSİL
Aktrisa yaradıcılıq zirvəsində ......................................................34

VI FƏSİL
Aktrisa və kino..............................................................................92

NƏTİCƏ…....................................................................................101

Имран Адиль оглы Ахундов
«Барат Шекинская»
*монография*
*(на азербайджанском языке)*
Баку – Мутарджим – 2014

***Kitab “Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap edilmişdir.***

*Няшриййат редактору* – Ялиш АЬАМИРЗЯЙЕВ

*Kompyuter tərtibatı* – Gövhər ALLAZOVA

*Üz qabığının dizaynı* – Cavid KİŞİYEV

Чапа имзаланыб: 07.03.2014.
Формат: 60х84 1/16. Гарнитур: Тимес.
Щяъми: 6,5 ч.в. Тираж: 200. Сифариш № 49.
Гиймяти мцгавиля иля.

**ТЯРЪЦМЯ**
**ВЯ НЯШРИЙЙАТ-ПОЛИГРАФИЙА**
**МЯРКЯЗИ**

**Аз 1014, Бакы, Рясул Рза кцч., 125**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
www.mutercim.az